

**TƏRANƏ MƏHƏMMƏDQIZI**

# QIRILIB TALE GÜZGÜSÜ....

**"Avropa" nəşriyyatı**

**Bakı - 2021**

Məsləhətçi: **Sabir Məhəmməd oğlu İbrahimov**

Redaktor: **İslam Qəribli**
**f.e.d, professor**

**Təranə Məhəmmədqızı ( Abdullayeva). Qırılıb tale güzgüsü..** Bakı,"AVROPA"nəşriyyatı-2021. 209 səh.

*Filologiya üzrə fəlsəfə döktoru, dosent, AYB-nin üzvü Təranə Məhəmmədqızının (Abdullayeva) "Qırılıb tale güzgüsü..." kitabına İkinci Qarabağ müharibəsində qəhrəmancasına şəhid olan Şəmistan Əziziov haqqında "Yaddaşlarda əbədi qalacaq şəhid" povesti, Şəmistanla bağlı xatirələr, Şəmistanın atası İlyas Əzizovun oğluna həsr etdiyi şeirlər və şəhid Şəmistanın ədəbi yaradıcılığından nümunələr daxil edilmişdir.*

4702060104-23
8032-2021

**© *"AVROPA" nəşriyyatı - 2021***

## TƏRANƏ MƏHƏMMƏDQIZI



**filologiya üzrə fəlsəfə doktoru, dosent, AYB-nin üzvü**

Təranə Məhəmməd qızı Abdullayeva Göyçay şəhərində ziyalı ailəsində anadan olmuşdur. Azərbaycan Dövlət Pedaqoji İnstituitunun dil və ədəbiyyat fakültəsini bitirmişdir. Ədəbi yaradıcılığa orta mətəbdə oxuduğu illərdə başlamışdır. "XX əsrin əvvəllərində Azərbaycan ədəbi-bədii fikrində qərbçilik meyilləri" mövzusunda namizədlik dissertasiyası müdafiə etmişdir (2007). "Azərbaycan ədəbi fikrində Qərbçilik meyilləri –XX əsrin əvvəlləri" (2014), "Məhəmmədağa Şahtaxtlı və Şərq" (2016), "M.Ə.Rəsulzadənin bədii yaradıcılığı" (2017), "Azərbaycan yazıçıları və Şərq" (2018), "Ədəbi düşüncələr" (2021) monoqrafiyalarının, "Sənsiz səninlə" (2007), "Ləmanlı günlərim" (2010), "Baharda düşən yarpaq" (2016), "Bir cüt göyərçin" (2017), "Qırılıb tale güzgüsü.." (2021) adlı bədii kitabların müəllifidir. Azərbaycanda və ölkə hüdudlarından kənarda Azərbaycan, türk, rus və fars dillərində əllidən artıq elmi məqaləsi çap olunmuş, dəfələrlə Respublika və Beynəlxalq Elmi Konfranslarda məruzə ilə çıxış etmişdir. Uzun illər pedaqoji fəaliyyətlə məşğul olmuş, "Futuroloq" Fasiləsiz Təhsil Kompleksi, Azərbaycan Dövlət Pedaqoji Universiteti, Bakı Qızlar Universiteti, Bakı Pedaqoji Kadrların İxtisasartırma və Yenidənhazırlanma İnstitutlarında dərs demişdir. Hazırda AMEA Nizami Gəncəvi adına Ədəbiyyat İnstitutu Yeni dövr Azərbaycan ədəbiyytı şöbəsində aparıcı elmi işçi vəzifəsində çalışır.

## YADDAŞLARDA ƏBƏDİ QALACAQ ŞƏHİD

*Qırılıb tale güzgüsü,*
*Ona baxan param-parça.*
*Qəlb sinədə bir şüşədir,*
*Sinə,yaxa param-parça.*

***Azərbaycan Respublikası Silahlı Qüvvələrinin hərbi qulluq-çularının "Vətən uğrunda" medalı ilə təltif edilməsi haqqında Azərbaycan Respublikası Prezidentinin sərəncamı***

**Əzizov Şəmistan İlyas oğlu - əsgər (ölümündən sonra)** Azərbaycan Respublikasının ərazi bütövlüyünün təmin edilməsi uğrunda döyüş əməliyyatlarında iştirak etmiş və hərbi hissə qarşısında qoyulmuş tapşırıqların icrası zamanı vəzifə borcunu şərəflə yerinə yetirdiyinə görə "Vətən uğrunda" medalı ilə təltif edilsin.

15 dekabr 2020-cu il

Aşağıdakı cümlələr Şəmistan Əzizovun 2012-ci ilin fevralında Füzulidə hərbi xidmətdə olarkən dəftərçəsinə etdiyi qeydlərdən götürülüb: *"Vətənimi, torpağımı, azadlığımız uğrunda canından keçən şəhidlərimizi, valideynlərimi çox sevirəm. Görəsən, vətənimə, valideynlərimə layiqli övlad ola biləcəyəmmi? Sevgimi sübut etəyə ömür vəfa edəcəkmi?".* Bu sevgini sübut etmək Vətən torpaqlarının mənfur erməni tapdağından xilas edilməsi uğrunda canını fəda edib müqəddəs şəhidlik zirvəsinə

ucalan Şəmistan Əzizovun əzəli və əbədi arzularından, istəklərindən biri, bəlkə də birincisi idi......

***Peğəmbərimiz Rəsili-əkrəm (s) buyrur ki, vətəni sevmək imandandır.*** Gözəl şairimiz Abbas Səhhətin də aforizm dəyərində olan belə bir beyti var:

***Vətəni sevməyən insan olmaz,***
***Olsa da ol şəxsdə vicdan olmaz.***

***

Şəhadət şərbətini nuş edib cənnət mələklərinə qoşulan, ruhu azadlığı uğrunda canından keçdiyi Qarabağ səmalarında dolaşan Şəmistan haqqında yazıya bu kiçik müqəddimə ilə başlamağım səbəbsiz deyil. Gözümüzün qabağında böyüyən, ilk baxışda sakit təbiətli, həlim xasiyyətli kimi görünən Şəmistanın ürəyində elə bir od, atəş var idi ki, onu yaxından tanımadan, əqidə və məramına bələd olmadan onun nədən bu qədər inad, qarşısına qoyduğu məqsədinə çatmaq üçün hər cür çətinliyə qatlaşmağa razı olduğunu anlamaq, şübhəsiz ki, çətin olardı.

"Ot kökü üstə bitər", - deyib ulularımız. Şəmistan elə bir köklü-köməcli nəslin davamçısı, elə bir ocağın ovladı idi ki, bu nəsil, yəni İbrahimovlar təkcə Göyçayda yox, demək olar ki, bütün Şirvan bölgəsində vətənpərvər, mərd, qonaqsevər, arxasıza arxa olmaq və s. bu kimi yüksək insani keyfiyyətləri ilə seçilib-sevilmiş, bir çox nümayəndələri el ağsaqqalı kimi mahalda söz sahibi olmuşdular. Nəslin ulu babalarından hesab edilən İbrahim kişi təxminən 180 il bundan əvvəl Şamaxdan Göyçayın Qaraxıdır kəndinə gələrək İbrıxlı məhəlləsində binə salmış, ev-eşik sahibi olmuşdur. İbrahim kişinin Həbullah, Yaqub, Əziz, Abdulla

və Beydulla adlı beş oğlu olmuş, zaman keçdikcə nəsil şaxələnmiş, həmin nəslin törəmələrinin bir qrupu indi də ulu babalarının adı ilə "İbrahimov" familiyası daşısa da, digər qruplar İbrahim kişinin övladları olan babalarının adı ilə "Yaqubov", "Həbullahov", "Əzizov", "Abdullayev", "Beydullayev" familiyalarını daşıyırlar. Bu nəslin soykökü, şəcərəsi haqqında ağsaqqalardan topladığı çox dəyərli məlumatlar və arxiv sənədləri əsasında kitab yazan, lakin hələ ki, çap etdirməyən qardaşım Sabir İbrahimovun hesablamalarına görə, kökü İbrahim kişiyə gedib çixan insanların sayı 1000-dən artıqdır. Göyçay və Şamaxıdan başqa onlar kompakt şəkildə Bakı, Sumqayıt, Moskva və Rusiyanın dugər şəhərlərində yaşayır, bir çox nümayəndələri isə dünyanın müxtəlif ölkələrinə səpələniblər. Doğruçuluğu, düzlüyü, mərdliyi və xeyirxahlığı ilə seçilən bu nəslin istər elm, mədəniyyət, maarif, iqtisadiyyat, istərsə də dövlətçilik sahəsində fəaliyət göstərmiş və hal-hazırda göstərən tanınmış nümayəndələri vardır ki, məqsəddən yayınmamaq üçün onların adlarını burada sadalamağa ehtiyac görmürük. İbrahimovlar nəsli Şəmistanın şəhadət şərbətini içdiyi II Qarabağ Vətən müharibəsi savaşına qədər adı tarixə Böyük Vətən müharibəsi kimi düşmüş 1941-1945-ci illər müharibəsində iştirak etmiş, igidlik göstərmişlər. Belə ki, İlyasın babası Cəlil Əziz oğlu İbrahimov, əmisi Zinhar Həbullahov alman faşitlərinə qarşi döyüşlərdə qəhrəmancasına həlak olmuş, atasının əmisi – mənim atam Məhəmməd Əziz oğlu İbrahimov və Abdul Həbullahov sinələri orden və medallarla dolu olaraq vətənə dönmüş, uzun illər şərəf və namusla millətinə xidmət etmişlər.

İbrahimovlar nəslindən Namiq Əzizov, Ətraf Həbullahov, İnqilab Həbullahov, Şivan İbrahimov, Əfqan Abdullayev, İbrahim Abdullayev və Vidadi Hüseynov Birinci Qarabağ müharibəsinin iştirakçıları olmuş, Səbuhi Abdullayev isə həmin müharibədə qəhrəmancasına şəhid olmuşdur.

Vidadi Hüseynov həm də sovet ordusu sıralarında Əfqanıstanda olmuş, leytenant rütbəsi ilə vətənə qayıtmışdır. O, birinci Qarabağ müharibəsinin od-alovlarından da keçmiş, kapitan rütbəsinə qədər yüksəlmişdir. İkinci Qarabağ müharibəsində könüllü şəkildə döyüşə qatılmaq istəsə də, yaşının çoxluğu nəzərə alınaraq səfərbərliyə alınmamışdır.

Şəmistan gözünü açıb özünü belə bir mühütdə görmüş, yaşının üstünə yaş gələ-gələ, həyatı dərk edə-edə böyüklərindən gələn ali xüsusiyyətlər ona da keşmiş, genindən, qanından gələn xeyirxahlıq, mübarizlik, düzlük, sədaqət və ən başlıcası Vətənə məhəbbət onun həyat amalına çevrilmişdi.

Şəmistan Vətən sevdalısı, Leylası Azərbaycan adlı məmləkət olan həqiqi aşiq, təpədən-dırnaqacan əqidə, məslək adamı idi. Şeiri, sənəti çox sevər, ustad Məhəmmədhüseyn Şəhriyarın:

**Vətən eşqi məktəbində can verməyi öyrənmişik,**
**Ustadımız deyib heçdir vətənsiz can Azərbaycan,-**

beyti dilinin əzbəri idi. Sox sevdiyi, təkrarladığı misralar içində vətənpərvər şairimiz Məmməd Arazın bu misraları da var idi:

**Vətən mənə oğul desə nə dərdim,**
**Mamır olub qayasında bitərdim.**

***

Şəmistan Əziziov 1993-cü ilin payızının son ayında, dekabrın 6-da Göyçay rayonunun axar-baxarlı Qaraxıdır kəndində ziyalı ailəsində anadan olmuşdur. Adının hərfi mənası “şamı olan, işığı olan yer” anlamında olan, dünyaya gəlişi ilə ailəsinə sevinc, işıq, nur, bərəkət, şəhidlik zirvəsinə ucalıb yeri cənnətlik olması ilə mənsub olduğu nəsilə başucalığı gətirən Şəmistanın atası İlyas Əzizov mühəndis, anası Əminə xanım isə mədəniyyət işçisidir.

Şəmistan 2000-ci ildə Birinci Qarabağ savaşının qəhrəmanlarından olan Zülfüqar Zülfüqarov adına Qaraxıdır kənd orta məktəbinin birinci sinfinə qəbul olunmuş, 2011-ci ildə orta təhsilini tamamlamışdır. On bir il onunla eyni sinifdə oxuyan dostu Ramil Şahin oğlu Kərimov yazır: “Şəmistan heç vaxt dostunu darda qoyan birisi deyildi. Məktəb illərində fiziki cəhətdən nisbətən zəif olmasına baxmayaraq, hər bir işimizdə öndə gedərdi. Şəmistan dostları üçün, sevdiyi və sevənləri üçün, vətəni və milləti üçün çətin günlərdə sinəsini qabağa verən oğulladan idi. Vətənpərvərlik hissi onda lap uşaqlıqdan özünü biruzə verərdi. Həvəskar rəssam və şair idi. Rəsm dərslərində heç vaxt müəllim verən tapşırığı yerinə yetirməz, öz beynindəkilərini – tank, top, avtomat, pulemyot şəkilləri çəkərdi. Müəllimlər də onun xətrinə dəyməzdi. Bütün sinif yoldaşlarının və müəllimlərin sevimlisi idi”.

Şəmistanın məqsədi hərbçi olmaq idi. Orta məktəbi qurtardığı il Ali Hərbi Məktəbə girmək üçün mandatı – icazə kağızı olmadığından bu arzusunu həmin il gerçəkləşdirə bilmədi. Arzusunu reallaşdırmaq ümidi ilə 2012-ci ilin yanvar ayında həqi-

qi hərbi xidmətə yollanan Şəmistan il yarım Füzuli rayonunun Horadiz kəndində hərbi xidmətdə olur. Xidmət müddətində atəşkəs olmasına baxmayaraq, düşmənlərimizin xaincəsinə sərhədlərimizi pozması nəticəsində baş verən döyüşlərdə o, iki dəfə yaralanır. Şəmistanın həmin günlərdə yazdığı "Son arzum" şerini burada verməyi lazım bilrik:

**Bir güllə sancılıb köksümə,**
**Çıxarıb ata bilmirəm.**
**İçim acı ilə, həsrətlə dolub,**
**Ömür də tükənir, Allah!**
**Möhlət ver, İlahi,**
**Son dəfə,**
**Bircə yol sevdiklərmi,**
**Atamı, anamı görə bilim.**
**Bu, son nəfəsimdə arzumdu, Allah!**

Şəmistan ordudan tərxis olunandan sonra yenidən müddətli hərbi xidmətdə olmaq, yaxud Ali Hərbi Məktəbdə təhsil almaq istəsə də, müxtəlif səbəblər ucbatından bu, ona qismət olmur. 2016-cı ilin Aprel döyüşlərində Göyçay Rayon Hərbi Komissarlığına gedib yenidən orduda olmaq istədiyini bildirsə də, yenə də istəyi baş tutmur.

Şəmistan təbiətən çox pozitiv, həyatsevər, şən, enerjili bir gənc idi. Onun böyük arzuları vardı və ən ali arzusu da, heç şübhəsiz ki, Qarabağı azad görmək, baş verməsi labüd və qaçılmaz olan Vətən müharibəsində iştirak edib düşmənlərimizə qan uddurmaq idi.

Vətən müharibəsi başlanan ərəfədə Hərbi Komissarlığa gedib könüllü kimi orduya yazılan Şəmistana çağırış gəlməyəndə o, yenidən Komissarlığa yollanıb tələb edir ki, məni də təlim-toplanış məntəqələrinə göndərin. Əgər müharibə başlanarsa, ilk gündən döyüşlərdə iştirak etmək istəyirəm. Nəhayət, müharibə başlanan gün ona çağırış gəlir və o, valideynləri, doğmları ilə görüşərək sentyabrın 29-da sevinə-sevinə, gülə-gülə könüllü kimi cəbhəyə yola düşür. Ayrılıq məqamında üzünü onu yola salanlara, onunla görüşməyə gələnlərə tutaraq deyir: “Ağlayıb pis olmayın, ardımca göz yaşı axıtmayın. Bu günü neçə illərdir ki, gözləmişəm. Qarabağı almağa gedirəm. Qazanılacaq qələbədə zərrə qədər payım olarsa, hesab edərəm ki, dünyanın ən xoşbəxt adamıyam. Gedrirəm, qayıtsam ellərdə bayraq, qayıtmasam, dillərdə şəhid kimi dastan olaram”.

Tərtər rayonunun İsmayılbəyli kəndinddə yerləşən 703 N-li hərbi hissədə, leytenant Mahir Məmmədovun komandir olduğu batalyonda bir neçə günlük hazırlıqdan sonra Şəmistangili Füzuli istiqamətində döyüşən hərbi hissəyə göndərirlər. Qaradağlı kəndində mövqe tutan dəstə oktybrın 4-dəki döyüşdən sonra Evoğlu kənd məktəbində yerləşdirilir. Şəmistanın döyüş yoldaşlarından bölük komandiri, Mingəçevirdən olan zabit Səbuhi Babazadə deyir ki, oktybrın 4-də olan döyüşdə Şəmistan əsl qəhrəmanlara xas olan təcrübəli döyüşçü kimi döyüşür, özünü odun-alovun içinə ataraq var gücü ilə, ölümün gözünün içinə dik baxa-baxa yoldaşlarını qoruyurdu. Həmin döyüşdə düşməni ağır məğlubiyyətə uğratsaq da, mən də, Şəmistan da yaralandıq, amma salamat qaldıq. Əfsuslar olsun ki, həmin döyüşdə yoldaşlarımızdan 17 nəfər şəhid oldu.

Əksəriyyəti könüllülərdən ibarət olan bu hərbi birləşmə tərkibində Şəmistan dörd döyüşdə iştirak edərək mənfur düşmənə qarşı şücaətlə döyüşür, qəhrəmanlıq nümunəsi göstərir.

Şəmistanın 5-ci – son döyüşü oktyabrın 13-də olur. Burada atasının sorğumuza cavab olaraq ünvanladığı məktubu olduğu kimi veririk: "Şəmistan son telefon danışığında deyirdi: Mən ölməyəcəyəm, çünki o xainlərdə qisasım var. Mən qisasımı alıb vətənimi azad edib yanınıza qayıdacağam. Dörd dəfə döyüş əməliyyatına girmiş, cağ-salamat mövqeyinə qayıtmışdır. Lakin beşinci dəfə oktyabrın 13-də Ağdərədə Qlobus deyilən bölgədə əks hücuma keçən zaman ağır döyüşdə düşmənin səngərə atdığı qranat onun həyatına son qoydu. Ölümündən sonra mənə yazdığı əsgər məktubu gəldi. Deyirdi ki, ata, mən sizi başıuca edəcəyəm".

Şahidlərin dediyinə görə, Şəmistanın son döyüşü oktyabrın 13-də Ağdərə rayonunun İlan dağı istiqamətində olmuşdur. O, bir neçə döyüşçü yoldaşı ilə 3-4 km məsafə qət edərək mövqelərimizi artileriya atəşinə tutan erməni postuna getmiş, istehkama girərək düşmənin top atəşini susdurandan sonra səngərdən çıxmış, qaçan düşmənləri yaylım atəşinə tutmuş, bu zaman uzaqdan atılan mərminin yanında partlaması nəticəsində qarnından ağır yaralanmışdır. Əsgər yoldaşları yardımına qaçıb onu döyüş mövqeyindən çıxarmağa can atsalar da, özünü Vətəni, tabeliyində olan əsgəri, qardaş hesab etdiyi Şəmistanın yolunda fəda etməyə hazır olan cəsur komandiri əsgərləri dolu kimi tökülən güllə yağışının altına girməyə qoymamış, böyük çətinliklə olsa da Şəmistnı döyüş meydanından çıxarmışdır.

Həmin hadisəni sorğumuza göndərdiyi cavabda leytenanat Mahir Məmmədov aşağıdakı kimi izah edir: “Oktyabrın 12-də sabahkı döyüşlə bağlı əsəgərlərə təlimat keçib tapşırıqlar verəndən sonra üzümü onlara tutaraq dedim: - Sahahkı döyüş çətin döyüş olacaq. Düşmənin illərdən bəri qurduğu istehkamları dağıtmaq, onların mövqeyini yarmaq komandanlıq tərəfindən qarşımıza tapşırıq kimi qoyulub. İçimizdə kim ürəklidirsə və özünü hazır bilirsə, ön cərgədə onlar döyüşəcək. Sözümü qurtaran kimi Şəmistan ayağa qalxıb dedi: - Yoldaş komandir, mən hazır. Düzü, əvvəl razılaşmaq istəmədim. Çünki əvvəlki döyüşlərdə kifayət qədər zəhmət sərf etdiyindən, bir az yorğun adam təsiri bağışlayırdi. Odur ki, dedim: - Sən arxada qal, sonra yoldaşlarını əvəz edərsən. Şəmistan isə gülümsəyərək: - Arxada qalsaydım elə kəndimizdə qalardım da, daha döyüşə niyə gəlirdim? cavabını verdi. Məcbur olub ön sıralarda döyüşməsinə icazə verdim.

Səhər şiddətli döyüş başlandı. Düşmənin piyadalarını geri oturtmağa müvəffəq olsaq da, xeyli irəlidəki istehkamda qurulan topdan açılan aramsız atəşlər əsgərləimizin irəliləməsinə, açıq, üzbəüz döyüşə girməsinə imkan vermirdi. Gözləmədiyimiz halda Şəmistanın sürünə-sürünə düşmənin istehkamına yaxınlaşdığını gördük. Heç bir dəqiqə keçmədi ki, üstümüzə od yağıran topun yerləşdyi istehkamdan güclü bir partlayış səsi eşidildi. Düşmənin topu susdurulandan sonra erməni əsgərləri mövqelərini tərk edib qaçmağa başlıadılar. Şəmistan onlardan əl çəkmədi. Arxalarınca düşüb atəş açmağa başladı. Bir neçə əsgərlə mən də səngərdən çıxıb düşmən tərəfə atəş aça-aça sürətlə Şəmistan olan istiqamətə yüyürməyə başladıq. Birdən mərmi

partlayışı səsi eşidildi. Toz-duman, tüstü hər tərəfi bürüdü, Şəmistan bir anlıq gözümüzdən itdi. Tüstü çəkiləndən sonra onun dizi üstə çöküb qarnını qucaqladığını gördüm. Əsgərlərə özlərini qorumaq tapşırğını verib onun yanına tələsdim. Yaxınlaşanda gördüm ki, ayaq üstə qalxmaq istəsə də bacarmır, əli ilə yarasını qapayaraq qarın nahiyəsindən axan qanı dayandırmaq istəyir. Ona çatanda qeyri-ixtiyari olaraq gözlərimdən yaş süzüldü. Şəmistan isə qamətini azacıq dikəldib gülümsəyərək: "Komandir, niyə ağlayırsan. Mən arzuma çatdım. Vətən sağ olsun!" -dedi. Qoluna girib ayağa qaldırmağa çalışdım. Hiss etdim ki, yarası çox ağırdır. Qucağıma götürüb sürətlə mövqelərimzə tərəf addımlamağa başladım. Yolda məni saxlayıb: "Komandir, əlcəklərimi çıxart, mənə istidir, ürəyim sıxılır. Ciyərim yanır, mənə su ver", -dedi. Bir də xahiş etdi ki, cibimdəki telefonu anama çatdır. Bilirdim ki, ona su vermək olmaz. Təkidlə: "Komandir, mənə su ver, yoxsa haqqımı sənə halal elmərəm",- desə də, imtina etdim.

Bir neçə kilometr qət etdikdən sonra gətirib onu səngərlərimizə çatdırdım. Hiss edirdim ki, rəngi yavaş-yavaş ağarmağa, əlləri soyumağa başlayır. Qəhər məni boğdu. Kənara çəkilib hönkür-hönkür ağlamağa başladım. Bilirdim ki, Şəmistan anasının yeganə övladı, aldığı nəfəsi, bütöv varlığıdır. Çarəm kəsilmiş, əlimdən heç nə gəlmirdi. Anlayırdım ki, bütün səy və yardımına baxmayaraq o, gözümün qarşısında, ovcumun içərisində dünyaya əlvida deyəcək, işıqlı gözlərindəki atəş əbədi sönəcək. Şəmistan artıq son dəqiqələrini yaşayırdı. Məni dərd götürmüşdü ki, bu müdhiş, acı xəbəri balasına qovuşmaq üçün gecə-gündüz əl açıb Allaha dua edən valideynlərə, ata-anaya necə çatdı-

racağam. Bu zaman Şəmistan yenə məni səslədi və zəif, lakin inam dolu bir səslə dedi: “Ağlama komandir, mən arzuma çatdım. Xocalı soyqrımında min əzabla öldürülən körpələrin, ana-bacılarımızın, Birinci Qarabağ döyüşlərində şəhid olan kəndimizin igid övladlarının – Zülfüqarın, Səbuhinin, Raqibin, Arazın, Elnurun qanını aldım”. Bu, onun son sözləri oldu. Bir də dedi ki, ”Anama deyin məni bağışlasın, ona arxa ola bilmədim, onu tək qoydum”.

***

Oktyabr ayının 12-si, gecə saat 12 radələri. İlyas həyətdə var-gəl edən yoldaşına səsləndi: “Əminə, hardasan? Mənə ürək dərmanı, bir sətəkan da su gətir”. Əminə yuxarı qalxdı, əlindəki bir stəkan su və dərmanla içəri girdi. İlyas gördü ki, Əminənin halı özündə deyil. Dedi ki, bütün günü həyətdə var-gəl edib elə hey Şəminin adını çəkib danışmısan. Yorğunsan, bir az dincəl. Əminə yoldaşına dərman verib özü də dərman içdi. Otağa girib işığı sondürdü. Yatağın üstündə oturub dərin fikrə daldı...

Bütün gecəni nə ata, nə də ana yata bildi. Yuxuları ərşə çəkilmişdi.

Oktyabrın 13-ü. Səhər obaşdan Əminə otaqdan çıxıb həyətə düşüdü. Özünü çox narahat hiss edirdi. Az qalırdı ürəyi partlasın. Fikrini azdırmaq üçün həyət darvazasına tərəf gedib küçəyə çıxdı. Alatoranlıq... Kənd sükut içində idi. Bir xeyli kənd yoluna baxdı, sonra ayağını sürüyə-sürüyə nəfəsi təntimiş halda həyətə döndü, yorğun addımlarla gəlib pilləkəndə oturdu.

Aradan bir müddət keçdi. İlyas otaqdan çölə çıxanda Əminəni pilləkəndə oturan gördü.Yaxınlaşıb soruşdu ki, nə

olub, səhər tezdən niyə burada oturmusan? Əminə cavab verdi ki, yata bilmədim, ürəyim sıxılır. Şəmidən yana çox narahatam, ürəyimə qara-qura fikirlər gəlir, elə bilirəm ki, ya Şəminin başında bir iş var, ya da nəsə baş verəcək. İlyas rəng-rufu dəyişmiş yoldaşını sakitləşdərmək istəsə də mümkün olmur, özü də onun kimi haldan-hala düşürdu. Özündə təpər tapıb: "Darıxma, tezliklə müharibə qurtarar, Şəmi sağ-salamat qayıdıb gələr", - deyə Əminəyə təslinlik verən İlyas onun qoluna girib birtəhər evə apardı.

Elə bil Əminənin qulaqları tutulmuşdu, heç nə eşitmirdi. Artıq saat 10-u keçmişdi. İlyas yenə üzünü yoldaşına tutaraq: "Bəlkə, gedək 1 stəkan çay içək, 5-6 saatdı həyətdə o başa, bu başa gedirsən", - dedi. Əminə istəməsə belə yoldaşına çay verməkçün mətbəxə keçdi. Çay dəmlədi. Yumurta bişirdi. İlyas müəllim yumurtadan birni yedi, ikincisinə əl vurmadı. Gözləri qapıya dikildi. Əminə xanım isə əlini süfrəyə uzatmadı. Nə çörək yedi, nə çay içdi. İstədi süfrəni yığışdırsın. Stəkan-nəlbəkini əlinə alanda stəkan nəlbəki əlindən yerə düşüb çilk-çilk oldu. Ana diksindi. Dedi: "Şəminin səsi gəlir qulağıma, Şəmi məni çağırır". Həyətə düşdü. Allaha yalvarmağa başladı: "İlahi, özün kömək ol, bu nə qara-qura fikirlədir axşamdan məndən əl çəkmir. Bəlkə, balam döyüşdə, dardadır. Allahım, onu sənə əmanət etmişəm. Hamının gedəni sağ-salamat gəlsin, mənim birdənəm də onların içində. Sən bilirsən ki, mənim səndən və ondan başqa ümidim yoxdur. Onu pənahında saxla"....

Ananın narahatlığı əbəs deyilmiş. Doğurdan da Şəmistan həmin saatlarda, ayın 13-də saat 12-nin yarısında döyüşdə yaralanır və yarım saatdan sonra əbədi olaraq gözlərini yumur.

Elə o saatlarda da ana özünə yer tapa bilmir, havası çatmır, 10 dəfə küçəyə çıxır, yola baxır, geri qayıdır. O, saata baxır, görür saat 12-nin yarsıdır. Əl atır telefona. Şəmistana zəng edir. Şəmistan telefonu götürmür. Telefondan səs gəlir, bu telefona zəng çatmır. Telfon ya söndürülüb, ya da şəbəkə xaricindədir. Ana dəli olur. Deyir: "İlyas, Şəmiyə zəng çatmır". İlyas da çox narahat olur. Amma yenə də Əminəyə toxtaqlıq verir ki, narahat olma, yəqin döyüş bölgəsindədir, götürməyə imkan yoxdur. Əminə cavab verir: "Nə danışırsan, İlyas, o odun içərisindən də mənə cavab verərdi".

Ayın 14-də kəndə xəbər gəlir ki, Şəmistan İlyas oğlu Əzizov şəhid olub. Bu xəbəri ilk dəfə kəndin sakini, Əminə xanımın işçisi Rüstəmə verirlər. O, bu xəbərdən çox sarsılır. Deyir ki, ola bilməz, nə danışırsız? Mən o xəbəri anaya necə deyə bilərəm? Bir gün bu xəbəri anadan gizlədirlər. Ayın 15-də artıq Şəmistanı doğma kəndinə yola salırlar. Məcburiyyət qarşısında qalaraq Şəmistanın əmisi Namıqın yoldaşı Ruhəngiz xanımla qardaşı Cavidin yoldaşı Könül xanım Əminə xanımgilə gəlir. Əminə xanım onları görən kimi soruşur ki, nə olub, Şəmidən xəbər var? Hər ikisi ağlayaraq: "Şəmi yaralanıb, onu gətirirlər",- deyirlər. Ana qışqıraraq başına döyməyə başlayır və deyir: "Deyin evim yıxılıb da, başıma daş düşüb da. O boyda xəstəxana da mənim bir balama yer olmadı ki, onu yaralı evə gətirirlər? Aman Allah, bu nə xəbərdir, mən eşidirəm". Sonra da dizləri bükülərək yıxılır və özündən gedir. Gözünü açan zaman özünü insan izdihamının içində görür və qulağına ağlaşma səsləri gəlir.

Böyükdən-kiçiyə hamı matəm içində idi. Əminənin gözünün ağı-qarası bircə balası şəhid olmuşdu. Nəinki Qaraxıdır

kəndi, həm də qonşu kəndlər, rayon və Bakıdan bir çoxları bu xəbərə İlyasın evinə yığışmışdı. Şəmistan yoldaydı. Az bir vaxtdan sonra onun cənazəsini gətirib valideynlərinə verəcəkdilər. Ana qəlbi bu itkini artıq ayın 12-dən hiss etmişdi.

Şəmistan gəldi. Gülə-gülə gedən Şəmistan lal-dinməz qayıtdı. 100-lərlə insan axını içərisindən kimsə valideynlərə, xüsusulə Əminə anaya təsəlli verməyə söz tapmırdı. Hamının gücü ağlamağa çatırdı. Nəinki qadınların, hətta kişilərin də ağlaşma səsi kəsilmirdi.

Bəzən mənə elə gəlir ki, anaların bir yox, iki, üç ürəyi var. Taleyin ağır yükü həmişə anaların çiyinlərində olub. Bəs nədən dağ boyda dərdi çiyinlərində daşıyan anaların ürəyi partlamır? Bir ürək anaların çəkdiyi iztirablara, acılara tab gətirə bilməz axı...

Həyatın şirinliyi də övladdır, acısı da.Valideynlərin xoşbəxtliyi də övladdır, bədbəxtliyi də. Bu dünyanın cənnəti də övladdır, cəhənnəmi də. Şəmistan dünyaya gəlişiylə valideynlərinə həyatın şirinliyini, xoşbəxtliyini, cənnətini yaşatdı. Nakam gedişiylə, bu amansız ayrılıqla da acısını, zülmünü, məşəqqətini yaşatdı.

***

Yeri gəldiyindən burada kişik bir haşiyə çıxmaq istəyirəm. Göyçay rayonunda qəhrəmanlar məskəni kimi tanınan Qaraxıdır kəndinin Birinci və İkinci Qarabağ müharibəsində vətən yolunda, torpağ uğrunda canlarını fəda edən şəhidlərin adlarını qeyd etməyi lazım bilirəm. Birinci Qarabağ müharibəsində Qaraxıdırdan dörd nəfər: Səbuhi Bayram oğlu Abdullayev, Zülfüqar Emin oğlu Zülfüqarov, Raqub Fərhad oğlu İsgəndərov,

Araz Mahir oğlu Hacıyev şəhid olmuş, bir nəfər: Elnur Həmid oğlu Məmmədov isə itkin düşmüş və ona Göyçay Rayon Məhkəməsinin qərarı ilə Şəhidlik statusu verilmişdir. Tərtər rayonundakı Qırmızı kənddə yerləşən 703 polkun əsgəri olan Elnur Məmmədov alınan son məlumata görə 1994-cü il aprelin 20-də döyüş bölgəsində olmuş, bundan sonra nə onun öldüsü, nə də qaldısından dəqiq bir xəbər yoxdur. Bu günə kimi Elnurun atası 91 yaşlı Həmid atanın, doğmalarının gözü yollardadır. Həmid kişi deyir ki, mən balamın yolunu gözləyirəm. Onun çiyinlərində haqq dünyasına getmək istəyirəm.

**Əzizim gözlərəm mən,**
**Ağlaram, sızlaram mən.**
**Sən gəlincə ölmərəm,**
**Can verib gözlərəm mən.**

İkinci Qarabağ müharibəsində də Qaraxıdır kəndindən olan cavanlar qəhrəmanlıqla döyüşmüş, onlardan üçü: Səməd Sədyar oğlu Abdullayev, Rəhim Ehtiram oğlu Həmidov və Şəmistan İlyas oğlu Əzizov şəhadət şərbətini içərək şəhidlik məqamına ucalmışlar.

Rəhim Həmidov qəribə taleli bir insan olmuşdur. Vaxtsız ana itirimiş, həyatın enişli-yoxuşlu yollarında çətinliklə addımlayaraq boya-başa çatmışdı. Bütün ağrı-acılara sinə gərərək ayaqda durmağı bacaran ana həsrətli Rəhim "Odlar Yurdu" Universitetinə qəbul olunmuş, düşünürdü ki, çətinliklər arxada qaldı. Atalarda misal var, deyərlər: "Sən saydığını say, gör fələk nə

sayır". Müharibə başladı və Rəhimin bütün arzularına son qoydu.

Səməd Abdullayev cəmi üç ay idi ki, həqiqi hərbi xidmətə çağrılmışdı. Valideynləri günləri sayaraq əsgər balasının yolunu gözləyirdilər. Amansız müharibə Səmədin də yeniyetmə ürəyindəki arzuların qatili oldu. Səməd 18 yaşında şəhid olaraq əbədiyyətə qovuşdu.

**Qeyd:** Qarabağ uğrunda gedən döyüşlərdə iştirak edərək canlarını Vətən uğrunda fəda edən Göyçay şəhidləri haqqında yazdığımız kitaba adları qeyd olunanların hər biri haqqında ayrıca oçerk daxil etdiyimizdən, burada onlar haqqında geniş məlumat verməyə lüzum görmədik.

Rahat uyuyun, şəhid balalarımız! Qanınız yerdə qalmadı. Bütün çətinliklərə, satqınlıqlara, xəyanətlərə baxmayaraq, qələbə bizim oldu. Əldə olunmuş qələbədə sizin xüsusi yeriniz və böyük zəhmətiniz var. Alnınız açıq, üzünüz ağdır. Siz qəhrəmansınız. Qəhrəmanlıq valideyninin verdiyi tərbiyədən qaynaqlanır. Valideynləriniz sizi vətən üçün layiqli övlad, qəhrəman böyüdüblər.

Bəşəriyyətin sağlamlığı maddiyyətdən daha çox mənəviyyatla bağlıdır. Siz qəhrəmanlar və bu qəhrəmanları dünyaya gətirən valideynlər mənəviyyatca zəngindir.

Bizim şəhidlərimiz! Siz 44 günlük zəfər yürüşündə, döyüş meydanında əsl tarix yazdınız. Xalqımız Azərbaycan ordusuna, Azərbaycan əsgərinə, sizə minnətdardır. Sizin və valideynlərinizin qarşısında baş əyirik!

***

Şəmistanın dəfn mərasimində iştirak edən taqım komandiri Səbuhi Babazadə onin dekabrın 6-da keçirilən "Ad günü"nə də gəlibmiş. Məclisdə iştirak edənlərdən biri onun danışığını telefonun yaddaşına yazaraq bizə göndərmişdir. Həmin söhbətdən bəzi məqamları burada veririk: "O, fiziki çəhətdən çəlimsiz olsa da, qorxu nədir bilməzdi. Xarakterсə, iradəcə çox möhkəm, əqidəsindən, məsləkindən dönməyən, sözü bir dəfə deməyi xoşlayan odlu-alovlu gənc idi. Döyüşlərdə oda-alova dönər, pələng kimi vuruşardı. Hərdən ona baxıb heyrətlənirdim. Onun bu cılız bədəninə arzuları sığmadığı kimi, özü də bu dünyaya sığmırdı".

***

Kənddə, el-oba arasında hörmət sahibi olan İlyas zəhmətkeş, ailəcanlı və qohumcanlı insan olmaqla yanaşı, şairlik iddiasında olmayan əli qələmli söz adamı, lirik və satirik şeirlərin də müəllifidir. Ürəyinin çırpıntıları olan poetik yazılarını mətbuata çıxarmasa da, yaxın ətrafı, dost-tanışları onun şeirlərindən xəbərdardır və çox təkid etsələr də, o hələ ki, yazdıqlarını kitab halında çap etdirmək niyyətində deyil.

İlyas müəllimin uzun xahiş-minnətdən sonra mənə təqdim etdiyi son yazılarını oxuyarkən anladım ki, o, şəhid övladına həsr etdiyi şeirləri ilə özünü ovundurmaqla yanaşı, barışmaq istəmədiyi, lakin çətin də olsa, barışmağa məcbur olduğu reallıqla hesablaşmağın qaçılmaz olduğunu da bəyan edir. Bir vətəndaş, bir ata kimi arzulayır ki, Vətən bir daha dara düşməsin və heç bir valideynə belə vaxtsız ayrılıqlar nəsib olmasın. Övladının şəhadətini Allahın əmri, ailələrinin qisməti kimi qəbul edən İlyas müəllimin öğluna həsr etdiyi şeirlərində nə qədər acı-

ağrılar, üzüntülər, övlad itkisindən doğan kədər olsa da, ümidsizlik yoxdur. İnam, “yazıya pozu yoxdur”, “Vətən uğrunda ölmək ölümsüzlük, əbədi yaşamaqdır”, - ideyası bu əsərlərin baş xəttini, cövhərini təşkil edir. Şəhid balasının dilindən yazdığı “Əmanətdir” şeirində oxuyuruq.

**Məzarından əl eləyir,**
**Atam, anam, siz sağ olun!**
**Mədən nigaran olmayın,**
**Mən ərənlər yanındayam,**
**Mən igidlər yanındayam.**
**Mən Mehdinin, mən Həzinin,**
**Mən Fəridin, Mübarizin yanındayam.**
**Hələ neçə şəhidi olan**
**Millətimin yanındayam.**

**Siz sağ olun, atam, anam!**
**Başınızı uca tutun,**
**Məğrur baxın bu həyata.**
**Uğurunda öldüyümüz**
**Vətən sizə əmanətdir,**
**Siz sağ olun, atam, anam!**

İlyas müəllimin nümunə kimi verdiyimiz ikinci şeirini isə təkcə onun yox, sinəsinə övlad dağı çəkilmiş valideynlərin də ağısı adlandırmaq olar.

**Arabir yuxuma gəlirsən, balam,**
**Gendən əl eləyib qaçırsan məndən.**
**Elə istəyirəm bağrıma basam,**
**Məndən arxayın ol, deyirsən gendən.**

**Bir dəfə əlinlə əlimə toxun,**
**Bir dəfə yaxın gəl, deyim dərdimi.**
**Bizə böyük dərddir sənin yoxluğun,**
**İtirdim ömrümü, şux qamətimi.**

**Gəl oğlum, gəl baxım, bircə dəfə gəl,**
**Gəl basım bağrıma, oxşayım səni.**
**Mənim gəlməyimi istərsən əgər,**
**Onda ölüm gəlim, mən görüm səni.**

***

Şəmistanin anası Əminə ziyalı bir xanımdır. Şuşa Mədəni Maarif Texnikumunu bitirmiş, uzun illərdir ki, Qaraxıdır kəndində klub müdiri işləyir. Deyərdim ki, o, insan yox, yer üzünə göydən enmiş bir mələkdir. Əminə xanım İlyas müəllimin vaxtsız həyatdan köçmüş birinci xanımından olan iki oğlu - Cavidə və Müşfiqə analıq edərək anasız körpələrə ana dərdini unutdurmağa çalışmış, onları böyüdüb boya-başa çatdırmış, ev-eşik sahibi etmişdir. İlyas müəllimin üç oğlunun sonunsusu Şəmistan Əminə xanımın ilki və bircə balası idi.

***Əminə xanımın nakam balası haqqında söylədiklərindən:*** Şəmistan evin sonbeşiyi olsa da, xarakterində ərköyünlük yox idi. Əslində ərköyünlük etməsinə özüm şərait yaratmır, ana-

sız körpələr anasızlığın sitəmini yaşamasınlar deyə, onu nazlamaqdan, hər istəyini yerinə yetirmkdən uzaq bir tərbiyə sistemi çeçmiş, qardaşlarını da, onu da torpağına, vətəninə, adət-ənənələrimizə bağlı gələcəyin əsl vətəndaşı kimi tərbiyə etməyi qarşıma məqsəd qoymuşdum. Zaman keçdikcə hiss edirdim ki, ümidlərim özünü doğruldur.

Şəmistanın qardaşlarından və tay-tuşu olan qonşu uşaqlardan fərqli, özəl cəhətini bir ana olaraq hiss edir, bu cəhəti ilə qürur duysam da, biruzə vermirdim. Nə idi bu cəhət? Şəmistan yaşına uyğun olmasa da, Qarabağ düyününün nədən indiyə qədər çözülməməsinin səbəbini anlamağa çalışır, dönə-dönə atasını və məni sorğu-suala çəkir, uşaq inadı və inamı ilə: "Qoy böyüyüm, onların dərsini özüm verəcəyəm", - deyə döşünə döyürdü. Görmədiyi Şuşa şəhəri isə onun arzularının şəhərinə dönmşdü. Şübhəsiz ki, burda mənim Şuşada oxumağımın və Vətənimizin bu musiqi beşiyi olan məkanı haqqında söylədyim gənclik xatirələrimin də kifayət qədər rolu var idi.

O böyüdükcə istəkləri də böyüyür, vətənini, bayrağını sevən, torpağına, dövlətinə dəyər verən, gecə-gündüz işğal olunmuş torpaqlarımızın azad olunması üçün xəyallar quran, yollar axtaran bir gənc kimi formalaşırdı.

Şəmistan ermənilərin xoşluqla Qarabağ toppaqlarını Azərbaycana qaytaracaqlarına qətiyyən inanamır, başlanacaq müharibə xəbərini səbirsizliklə gözləyir, müharibə başlayarsa, mən bir gün də evdə qalmaram deyərdi. Həmişə təkrar etdiyi belə bir fikri vardı: "Mənim ermənilərlə hayıfım var. Mən onları silahla qırar, hətta yalın əllərimlə boğar, məhv edərəm".

***

Deyərdim ki, Şəmistanın vətəninə olan sonsuz məhəbbəti daha çox anası Əminə xanımdan keşmişdi. Əminə xanım da vətənini sevən, lazım gələrsə "uf" demədən vətən uğrunda canından keçməyə hazır olab mərd və qormaz bir Azərbaycan xanımıdır. Məhz bu səbəbdən də hər zaman oğlunu dəstəkləyib, ona bu amalla irəli getməyi, əqidəsindən, mövqeyindən dönməməyi tövsiyə edib.

Ana deyir: - Mən onun vətən eşqi ilə döyünən, alışıb-yanan ürəyinin arzularına qarşı çıxmazdım, çıxa bilməzdim. O, könüllü olaraq cəbhəyə yola düşən zaman onun üzündəki, gözündəki sevinci kaş ki, görəydiniz. Mən, bəlkə də heç bir zaman onu bu qədər xoşbəxt görməmişdim. Ana olaraq ondan bir şey xahiş etdim: "Müharibədir, hər şey ola bilər. Görsən ki, əsir düşmək təhlükəsindəsən, o zaman özünü daşdan-qayadan at, özünü öldür, erməniyə əsir düşmə. Şəhid olsan, dözərəm. Təsəlli taparam ki, balam arzusuna çatdı. Əsir düşsən dözmərəm".

***

Əziz oxucum! Siz Əminə xanımda olan böyük ürəklə bir daha tanış olun. Gözünün ağı-qarası olan övladı şəhid olub, evinin çırağı sönüb. Övladı şəhid olandan təxminn 20-25 gün sonra, noyabrın 10-da gecə saat iki radələrində atəşkəs elan olunan zaman qonşuluqdakı hərbi xidmətdə olan iki əsgərin gedib qapısını döyüb, analarına gözaydınlığı verib ki, şükür Allaha müharibə bitdi. Tezliklə balalarınız sağ-salamat evinizə-eşiyinizə gələr. Belə qəhrəman anadan elə qəhrəman oğul dünyaya gələr. Baş əyirik şəhid analarının qarşısında biz!

***

Övlad elə bir şirin paydır ki, necə olursa-olsun, ondan heç bir zaman keçmək mümkün deyil. Bir var əcəl sənin övladını gəlib evin içindən, gözün görə-görə apara, bir də var öz əlinlə övladını cəbhəyə yola salasan, gəlməyəcəyini bilə-bilə....

Müharibənin hər günü neçə igidin ölümü deməkdir. Qan tökülməsə torpaq alına bilərmi? Allah övladı cəbhədə olan anaların hamısına səbir və dözüm versin. Şəhid olanlara rəhmət, qalanlara can sağlığı nəsib etsin.

Bütün bu məğrurluq, qəhrəmanlığa baxmayaraq ana anadır, bala da bala.

Əminə xanım artıq aylardır ki, oğlunu olmadığı yerlərdə görür, eşidir, duyur və onu içində böyüdür, yaşadır. Əminə xanım oğluna, igid Şəmistanına sevgi və sədaqəti ilə məni bir şeyə inandırır ki, analıq həm də nə olursa-olsun, övladından vaz keçməmək, həyatda olmadıqda belə, onu yaşatmaqdır. Şəmistan onunla birgə gözünü sabahlara açır, işə gəlir, yaxşılıqlar edir... Bəzən mənə elə gəlir ki, atıq Əminə xanımın həyatının bütün mənası yalnız oğlunu özündə yaşatmaqdan ibarətdir.

**Nə qədər ki, kor deyiləm,**
**Gözüm səni axtaracaq.**
**Lal deyiləm, kar deyiləm,**
**Sözüm səni axtaracaq.**

**İzinə düşər ayağım,**
**Səsinə düşər qulağım,**
**Soyuyan odum-ocağım,**
**Közüm səni axtaracaq.**

**Ürəyimdə arzu, dilək,**
**Xəzan vurmuş solğun çiçək,**
**Əminə də divanətək,**
**Öğlum, səni axtaracaq.**

Şəmistanın anası Əminə xanım! Sizin bir övladınız şəhid olduğu gün milyonların oğlu kimi yenidən doğuldu, dünyaya gəldi.

Nur içində yat, şəhidim!

***

Şəmistan haqqında öyrəndilklərimdən məlum olur ki, o böyüdükcə, yuxarı siniflərə keçdikcə məktəbin bütün tədbirlərində fəal iştirak edir, aktiv şagird olur. Deyirlər ki, onun ərköyünlüyü, kaprizləri, demək olar ki, yox idi. Çox qonaqpərvər, zəhmətkeş, əlindən gələn köməyi heç kimdən əsirgəməyən bir övlad, bir igid, istiqanlı, mehriban, hamıya qaynayıb-qarışan bir gənc, valideynlərini çox sevən, onları eşidən bir bala imiş. Həm valideynlərinin tələb və tövsiyələrini eşidər, həm də onlara əməl edərmiş. Kənddə, qohum-əqrəba içərisində hər kəsə hörmətlə yanaşıb böyük-kiçik yeri bildiyindən özü də hörmət, izzət sahibi olmuşdu. İstək, hörmət elə bir şeydir ki, ona hər kəs ancaq özü qazana bilər. Şəmistan onu alın təri ilə qazanmışdı.

***

Xoşbəxtlik geniş məfhumdur. Hər insan xoşbəxtliyi bir şeydə görür. Kimi var-dövlətdə, kimi sağlamlıqda, kimi yüksək titullarda, kimi mehribanlıqa, kimi zəngin mənəviyyatda... Mənim anlamında hər bir şeyi məqamında görüb dəyərləndirmək,

Allaha sonsuz şükür etmək xöşbəxtliyə gedən yolun başlanğıcıdır. Mən xoşbəxtliyi mehribanlıqda, birlikdə, doğmalarının, bacı-qardaşlarının, övladlarının, ailənin birgəliyində, mənən qururlu olmaqda görürəm. O ailə, o valideynlər, o bacı qardaşlar xoşbəxtdir ki, bir-birini zamanında görür, sevir, əzizləyir, uca tutur. Bəzən insan kənardan xoşbəxt görünür. Sənə elə gəlir ki, onun heç bir dərdi, problemi, qayğısı yoxdur. Amma bu mümkünsüzdür. Lakin dərdə qalıb gəlmək, mübarizə aparmaq, ayaqda durmaq səni məğrur, xoşbəxt göstərir. Sözümün səmimiliyinə inanın, həyatımdakı daşlı-kəsəkli, enişli-yoxuşlu, qarlı-tufanlı yollara, məşəqqətlərə, itkilərə rəğmən mən özümü Allahın xoşbəxt bəndəsi sayıram. Çünki Allah mənə arzuladığım sağlam ailəni, canı yanan bacı-qardaşları, göz toxluğu, sağlam düşünərək yaşamağı və ən əsası da Ləman kimi fitri istedada sahib olan bir qız övladı, Orxan kimi valideynlərini əziz tutan, hörmət qoyan oğulu və Şəmistan kimi, cəsur, qorxmaz, ölümün gözünə dik baxan, qəhrəmanlığı ilə tarix yazan, ölümüylə ölümsüzlüyə qovuşan doğmamı hədiyyə edib. Fərd olaraq, insan olaraq, özümə məxsus xarakterimi, təvazakarlıqdan bir qədər uzaq olsa da, bu bacarığı, istedadı mənə bəxş edib.

Rus tarixçisi Vasili Klyuçevvskı (1841-1911) deyir ki, “Xarakter- sənin öz üzərində hakimiyyətindir. İstedad- sənin başqaları üzərində hakimiyyətindir”.

Ona görə də hər zaman, hər yerdə çox cəsarətlə deyirəm ki, mən xoşbəxtəm. Tanrının məndən aldıqlarına rəğmən, verdiklərinə min şükür. Bir də insan olaraq ömrümüz boyu borclu olduğumuz bir uca varlığın, Allahın qarşısında əyilək ki, bəndələr qarşısında dik durmağı bacaraq.

Allah insanı paxıllıqdan, paxıl adamlardan hifz eləsin. Təəssüf ki, belə hallar da istisna deyil. Qardaş doğma qardaşının bir addım qabağa getməyinə dözmür, qəbul etmir, hətta mane olur. Paxıllıq hissi özü də dərddir. Çarəsi, dərmanı olmayan bir dərd. Düşünürəm ki, bu xislət cılız adamlara məxsusdur. Sonda o xistətdə olanlar özləri məhv olur. Həyatdan zövq ala bilmir, özünə kifayət qədər vaxt, zaman ayırmır, bir də ayılır ki, ömür bitdi. Yazıqlar olsun ki, çevrəmizdə, tanıdıqlarımızın içərisində də elələri var. Hər zaman "filankəs övladına maşın aldı, ev tikdirdi, filan qədər qazanır" deyir. Bəs niyə demirlər ki, filankəsin gözünün ağı-qarası olan bir övladı cəbhəyə getdi, düşmənlə üzüzə durdu, sinəsini güllə qabağına verdi, şəhid oldu. Sən də onun kimi vətən, torpaq, ana qeyrəti çək.

Valideynlər gərək övladlarına düzgün yol göstərsin, istiqamətləndirsin. Sağlam ruhda tərbiyə etsin, böyütsün. Zəhmətlə arzu-amala, yüksəkliyə çatmaq olar, paxıllıqla, əyriliklə yox. Düz yol daşlı-kəsəkli də olsa, mənzil başına çatanda rahat dincələ bilirsən, çünki vicdanın rahatdır. Vicdan yeganə məhkəmədir ki, orada hakimə ehtiyac yoxdur. Əyri yollarla dağ başına çıxsan belə, çox keçmədən ayağın kola-kosa ilişər və ordan dərəyə yuvarlanıb toza-dumana dönərsən.

***

Şəmistanın ən böyük arzusu Şuşanın azad olmasını görmək, Azərbaycan bayrağını öz əlləri ilə anasının təhsil aldığı Şuşa Mədəni Maarif Texnikumunun binasına sancmaq idi. O, anasına söz vermişdi ki, səni tezliklə Şuşaya aparacağam. Sənə öz gəncliyini, qayğısız tələbəlik illərini yaşadacağam.

**ŞUŞAM**

**Bu acı həsrətə necə dözürsən,**
**Ay qəlbi yaralı, ay əsir Şuşam!**
**Nədən müşkülünə çarə tapılmır,**
**Nədən dərdin-sərin əksilmir, Şuşam?!**

**Nədən dan yerindən şəfəq sökülmür,**
**Yaran çox, yarana dərman səpilmir,**
**Nədən başın üstən duman çəkilmir,**
**Bu nə dərd, nə ələm, bu nə sirr, Şuşam?!**

**Sənsiz sinəm dağlı, bağlanıb yolum,**
**Şuşa deyə-deyə pörşəlib dilim,**
**Bu nalan, bu kövrək natəvan könlüm,**
**Səni görmək üçün tələsir, Şuşam!**

***

Şəmistanın çox müdrik fikirləri var idi. O, həmişə deyərdi: "Dəyərli olan heç bir şey həyatda mübarizəsiz qazanılmaz, əldə edilə bilməz". Dostluq haqqında da belə deyərdi: "Dostluq etdiyin insanın bütöv ürəyi, saf əxlaqı, dərin düşüncəsi və açıq qəlbi olmalıdır". Onun sevgi haqqında düçüncəsi belə idi: "Mənə elə gəlir ki, ülvi hisslər ancaq və ancaq böyük ürəklərdə doğula bilər". O deyirdi: "Allahım mənim hər şeyimdir. Atam, anam yer üzərində güvəndiyim, mənəvi və maddi qida aldığım arxamdır".

Bu məqamda nakam Ləmanımın ailə haqqında bir aforozmi də yadıma düşdü: "Ailə, ata-ana müqəddəsdir. Ailə alınmayan qaladır, oxunmayan maraqlı kirtabdır, sirli dünyadır, zülmət meşədir, işıqlı həyatdır, mənalı ömürdür. Bir sözlə, insanın

güvəndiyi, sığınağı olan bir dağdır. İnsan tək Allaha, bir də valideynlərinə inanmalıdır". Və bir də deyirdi: "Binövrəsi olmayan ailənin uşaqları gələcəkdə nə yaxşı insan, nə yaxşı ata-ana, nə dost, nə də vətəninə, elinə layiq övlad ola bilər".

Bəli, tamamilə doğrudur. Məhz Şəmistanın bünövrəsi, əsli-nəcabəti olduğu üçün o yaxşı oğul, yaxşı nəvə, yaxşı dost, yaxşı qardaş və Vətən üçün yaxşı övlad, vətəndaş oldu.

***

Şəmistan həm sevirdi, həm də sevilirdi. Onun öz Leylisi, böyük xəyalları, arzuları var idi. Yaxın günlərin birində nişan aparacaqdılar. Dünyada və ölkəmizdə baş verən pandemiya, karona xəstəliyi, komendat rejimi bu gənclərin sevgilərinin rəsmiləşməsinə əngəl yaratdı, mane oldu. Gözləməyə məcbur oldular. Qəfil başlanan müharibə isə iki sevən qəlbə qənim kəsidi, Əsli və Kərəm, Leyli və Məcnun kimi onların da qovuşmağına imkan vermədi.

Anası Əminə xanım: "Balam, bəlkə, gedək bir üzük taxaq",-dedi. Şəmistan qəti etiraz etdi. Dedi: "Ana, Vətən dardadır, mən cəbhəyə gedirəm. Müharibədə hər şey ola bilər. İnşallah gedib sağ-salamat qayıdaram, sonra....".

O xanıma – sevgilisinə də belə deyir: "Vətən dardadır, mən getməliyəm. Yer üzündə ən çox sevdiyim valideynlərimdir, Vətənimdır, sənsən. Valideynlərimi də, səni də Allaha əmanət edib gedirəm. Anasını sevməyən Vətənini sevə bilməz, Vətənini sevməyən səni sevə bilməz. Mən sevdiyim valideynlərimi, səni xoşbəxt görmək üçün Vətən uğrunda əlimdən gələni etməliyəm. Arxada qalmaq vaxtı deyil. Gözlə yolumu. Torpaqlarımız işğaldan azad olduqdan sonra qayıdacağam!".

Sevdiyi xanım onu heç vaxt əqidəsindən döndərə bilməyəcəyinə görə, belə söyləyir: "Sənə uğurlu yol, əzizim. Hər zaman sənə duaçıyam. Tezliklə müharibə bitər, torpaqlarımız düşmən tapdağından azad olar, sən də qalibiyyətlə evinə-ocağına, səbirsizliklə yolunu gözləyənlərin yanına qayıdarsan. Yolunu gözləyəcəyəm, gözün arxada qalmasın".

Beləliklə, onlar görüşərək ayrıldılar. Şəmistan 3-5 addım atmamış yenidən geri dönərək ayaq saxladı. Dinməz-söyləməz baxdı, baxdı.... Görəsən həmin an Şəmistanın ürəyindən nələr keçdi. Sevgilisi də yerində donub qalmışdı. Gözlərindən yaş süzülə-süzülə güclə gülümsəyərək Şəmistana əl eləyirdi. Şəmistan bir addım qabağa atdı və o an da geri dönərək sürətlə uzaqlaşdı. Sevgilisi isə Şəmistan gözdən itənəcən onun ardınca baxdı. Bu, onların son görüşü, son baxışı oldu.

Bəli, Şəmistan 20 gün sonra qayıtdı. Ölümü ilə ölümsüzlüyə qovuşaraq şəhidlik zirvəsinə ucaldı.

Sevdiyi xanım bi xəbəri alan kimi çox sarsıntı keçirir. Ağlaya-ağlaya ancaq bu sözləri deyir: "Niyə, axı niyə... Sən ki mənə heç vaxt yalan danışmamışdın. Bəs deyirdin səni çox, çox sevirəm. Sevən sevəni belə cəzalandırarmı?"

Şox keçmədən bir dəstə güllə Şəmistanın məzarı üstünə gələrək ora bir məktub qoyur və pıçıltı ilə bu sözləri deyir: "Bu gülləri sən mənə alacaqdın, toy günümüzdə. Mən alıb məzarın üstə gətirdim. İgid, qəhrəman şəhidim! Nur içində yat! Cənnət yuxulu şəhidim!

**Yollarında gözüm qalıb,**
**Deyiləsi sözüm qalıb,**

**Odum keçib, közüm qalıb,**
**Bulud kimi tutulmuşam,**
**Qəlbi yara qan olmuşam,**
**Şəhidim, sənsiz qalmışam.**

**Gəl, sən məni sevindir, gəl,**
**Gəlişinlə öyündür, gəl,**
**Gəl Leylini ovundur, gəl,**
**Sənsiz sınıq tel olmuşam,**
**Şəhidim, sənsiz qalmışam.**

***

Şəmistan kiçik yaşlarından düşüncəli və həssas bir uşaq imiş. 8 Mart qadınlar bayramı münasibətilə anasına öz əlləri ilə məhəllədən güldən-çiçəkdən dərib və bir dənə də açıqca (otkritka) yazıb üstünə qoyub hədiyyə edərmiş. Deyərmiş ki, ana, qoy böyüyüm, səni dünyanın hər yerini qarış-qarış gəzdirəcəyəm, səni yaşadacağam. Əminə xanım isə: "Mənim dünyam sənsən, bala. Sənin bu hədiyyən mənim üçün dünya malına dəyər. Bu güllərdə balamın əl izi var", - deyərmiş

Əminə xanım hər zaman Allaha şükür edirdi ki, ona belə düşüncəli, istiqanlı, ata-ana istəyən ağıllı övlad verib. Ata da, ana da övladları haqqında eyni sözü deyir: "Biz ondan heç vaxt incimədik. O, uşaqlıqdan bizim qürür yerimiz idi. Hər kəsin yanında başıyuxarı, alnıaçıq gəzirdik. Əmin idik ki, çevrəmizdə olan qohum-qonşular, dost-tanışlar, onu tanıyanlar – heç kim onun haqqında bizə bir kəlmə mənfi, ürək sızladan, utancverci söz deməyəcək. Necə indi, eləcə də ta uşaqlıqdan, ağılı söz kəsəndən həmişə başımızı uca etdi Şəmistan".

O, uşaqlıqda məhəllədə uşaqlarla oynayanda həmişə vətənpərvər ruhda oyunlar oynayardı. Sevdiyi və oynadığı oyuncaq isə tapança və tank olardı. Bir dəfə ona qohumu oyncaq dovşan alıb gətirir. O zaman Şəmistanın 4-5 yaşı olardı. Şəmistan oyuncağa baxıb  və sakitcə həmin oyuncağı aparıb həyətdə qonşunun qızına verib ki, onu qızlar oynadar. Özü də məhəllədə bir səhnə qurarmış, adını da "Dağlarda döyüş" qoyarmış. Həmişə qalib komanda da Şəmistan olduğuna görə, uşaqların hamısı onun dəstəsində olmaq istəyərmiş.

Deməli, Şəmistan elə uşqalıqdan kişi qeyrətli, döyüşkən ruhda böyüyüb.

Şəmistanın ən çox sevdiyi fənn tarix fənni idi. Azərbaycanın qədim və orta  əsərlər tarixini, ədədəbiyyatını və dünya tarixinu öyrənməyə daha çox səy göstərərdi. Amma xəyalına gətirməzdi ki,  aylar-illər ötəcək, Şəmistan böyüyüb boya-başa çatacaq, 2020-ilin sentyabrında müharibə başlanacaq  və Şəmistan könüllü olaraq  müharibəyə qatılacaq, mənfur düşmənlə üz-üzə qalacaq, onlardan yaxın keçmişimiz olan Xocalının, ana-bacılarımızın qisasını alacaq, özü də tarixə düşəcək, tarix yazacaq və əbədiləşəcək.

Şəmistanın yas mərasiminə əsgər yoldaşları, hərbçilər gəlmişdi. Həmçinin taqım komandiri Səbuhi Babazadə də gəlmişdi. Şəmistanın bibisi Ofelya xanım deyirdi ki, Səbuhi Babazadə deyib ki, mən belə qorxmaz oğul, belə ürəkli əsgər görməmişdim. Mən onu saxlaya bilmirdim. Elə hey qabağa gedirdi. Kaş ki, mənim Şəmistan kimi əsgərlərimin sayı çox olaydı. Mən onu şox istəyirdim. Necə siz, eləcə də mən Allaha dua edirdim ki, o bu döyüşdən də sağ-salamat çıxsın. O, anadangəl-

mə döyüşçü idi. Mən bura onu doğan qəhrəman ananın əllərindən öpməyə gəlmişəm. Göstərin mənə o qəhrəmanı doğan ananı. Və onu da qeyd etdi ki, əsgər yoldaşları da Şəmistanı çox istəyirdi. Qardaş münasibəti göstərirdilər ona. Məhz ona görə də Şəmistan yaralanan günü (13 oktyabr) bu acı xəbər hər birimizi qəlbən sarsıtdı. Baxmayaraq ki, biz ölümlə hər gün göz-gözə idik. Həmin gün bir neçə əsgərimiz də döyüşdə şəhid oldular. Məkanınız cənnət olsun, nur üzlü şəhidlərimiz!

***

Hər kəs, xüsusilə ürək yarası görən analarımız yaxşı bilir ki, övlad itkisi nə deməkdir. Allah şəhidi olan analarımızın yanan ürəyinə su səpsin, ovundursun. Amin..

Şəmistanın bibisi Ofelya xanım deyir ki, Şəmistan bizim uşaqlarımızın gözü idi. Hər bir xüsusuyyəti ilə uşaqların hamısından fərqli idi. Mənim üç oğlum, bir qızım var. Amma onu da öz balalarım kimi istəmiş, oğlanlarımdan ayırmamışam. Çünki ondan hər zaman gülər üz, şirin söz eşitmişəm. Biz Bakıdan onlara qonaq gedəndə onun sevincinin həddi-hüdudu olmurdu. Hərdən səsi gəlir qulağıma, diksinirəm. O həm də səxavətli idi. Mən deyərdim ki, Şəmistanda olan ağır təbiət, əliaçıqlıq, ürəyiyumşaqlıq ona bizim kökümüz, ulu babamız olan Əziz babamızdan keçib. Kəndin cəmi bir dükanı var imiş. Onu da babam işlədərmiş. Bu dükanda hər şey (ərzaq, pal-paltar) satılarmış. Əziz babamız bayram günlərində kəndin ehtiyac içində olan ailələrinə, atasız yetim saxlayan qadınların evinə yağ, qənd, çay, un, düyü göndərərmiş ki, onlar da bayram süfrəsi aça bilsinlər. Hər zaman yetim-yesirə təmənnasız əl tutarmış. Öz həyat yoldaşı Məkkə nənəmizə də tapşırarmış ki, qapıya biri diləyə

gəlsə, əli boş yola salmasın. Hətta bir çörəyi qalıbsa, onu da versin. Biz həmişə qonaq-qaralı, süfrəsi açıq bir ailə, nəsil-kök olmuşuq. Bizim soyadımız İbrahimov olub. Sonradan atamgil öz babasının adını soyad götürüb.

***

Hər kəs dünyasını dəyişər, kimisi torpağa basdırılar, kimisi ürəyə.

Həyat, sən nə qəribəsən!... Bəzi insanlar həyatımızda istəməsək də var... Bəzi insanlar isə istəsək də yoxdur...

Şəmistan bizim gözümüzün qabağında pillə-pillə böyüdü, yeniyetmə bir gənc oldu. Daha sonra əsgər getdi. Əsgəri xidmətini sağ-salamat başa vurub, ailəsinə, ocağına qayıtdı.

Valideynləri çox sevinirdi. Düşünürdü ki, şükür, balaları bu sınaqdan da, imtahandan da, kişilik məktəbindən də alnıaçıq, üzağ qayıdıb evə gəldi.

Sən saydığını say, gör fələk nə sayır... Eh! Təsəlli verməyə söz tapmıram.Gücüm dua etməyə çatır. Bir də arzu edirəm ki, elə bir ömür yaşayaq ki, əbədi axirət dünyasında o pak, gözəl balalarımıza qovuşa bilək. Bu dünyada onlardan doymadıq. Heç olmasa o dünyada doyaq. Bir təsəllimiz də odur ki, Şəmistan kimi şəhid balalarımız torpaqda yox, qəlblərdə dəfn olundu.

Sözün bitdiyi yerdir. Şəhidlərimizin qarşısında söz deməyə insan acızdır. Biz nəslən Allaha sığınan, Allahı sevən bəndələr kimi bir gerçəkliyi dərk edirik. Biz Allah tərəfindən gəlmişik. Allah tərəfindən də gedəcəyik...

Bu, Allahın balalarımıza yazdığı qısa bir ömür, nakam bir taledir!...

Allahın varlıqdan yoxluq, yoxluqdan varlıq yaratdığının sirri də ancaq özünə bəlli... Biz inamımızı, dinimizi itirmədən Allahın verdiklərinə də, aldıqlarına da şükür edən bəndələrdən olaq. Hər şeyi bilən Allahdır.

Bu dərdin əlindən ancaq möhkəmliklə, səbirlə qurtarmaq olar.

Bu bir gerçəklikdir ki, düşündüklərini, duyduqlarını, keçirdiyin hisləri sözlərlə əvəz etdikdə razı qalmırsan. Bir müdrikin dediyinə görə, sözlər hisslərin paltarıdır. Düzgün ifadə etmədikdə bu paltar düşündüklərinə dar gəlir...

Şəmistanın qəlbində, düşüncələrində Allaha çox böyük sevgi var idi. Elə bil dünyasını dəyişəçəyini bilərək Allaha qovuşmağın gözəlliyindən danışardı. O deyirdi ki, uzun ömür yaşayıb tez unudulmaqdansa, qısa ömür yaşayıb yaddaşlara köçmək daha yaxşıdır.

Mövlanə Cəmaləddin Rumi: “ Məni məzarda deyil, qəlblərdə axtarın”, - demişdir.

Əziz və unudulmaz şəhid balalarımız!

Bilirik ki, yeriniz çox rahatdır, yaxşıdır...

Nə günahınız var idi ki.... Amma ayrılıq çox çətindir. Allah cümlə sevənlərinə səbr versin!....Amin!

Məkanınız cənnət olsun! Allah axirətdə bizləri qovuşdursun. Amin!

Şəmistan, sən sanki valideynlərin üçün həyatın dayanacaq nöqtəsi oldun. Sən ilk dəfə günəş yerə nur saçan kimi valideynlərinin həyatına nur saçdın. Nağıl kimi: “biri var idi, bir yox”, - deyə düşünəndə, hətta sənin yoxluğunu hiss etdikdə necə əzablar çəkdiklərini kaş ki, görə biləydin.

Anan sənin izinlə gəzir. Hər yanda səni axtarır, səninlə danışır. Deyir ki, birdənəm, canım, mənə hər zaman mənimlə olacağını, məni tək buraxmayacağını söyləmişdin. Nədən sən mənim səndən başqa canım, sirdaşım və dostum olmadığını bilə-bilə tərk etdin məni. Niyə?

Hər zaman ailəsinin sevincini, rahatlığını düşünən Şəmistan indi ailəsinin, valideynlərinin göz yaşlarına səbəb olub. Ən böyük arzusu böyüyüb valideynlərinə dəstək olmaq, kasıblara, imkansızlara yardım etmək idi.

Mən Şəmistanın anası Əminə xanımı kənardan müşahidə edirəm, maraqlanıram, soruşuram. Həmişə içimdə bir narahatlıq olub ki, Əminə xanım bu dərdə tab gətirməz. Çünki bala itkisinin çəkisi olmadığını mən də bilirəm, yaşayıram. Həm də ona görə narahat olurdum ki, Əminə xanım Allaha qarşı çıxar, üsyan edər, ası düşər...

Şükürlər olsun Allaha, Əminə xanım odsuz- ocaqsız yanmağına baxmayaraq bir an da olsun Allahını unutmadı. Mən onun bu müdrikliyinə, ağlına heyran olmuşdum. Qardaşım Sabir demiş: “O nə qədər qeyrətli qadın imiş”.

Ana üçün bala itkisinin nə demək olduğunu bütün insanlar bilir, bunun izaha ehtiyacı yoxdur. Amma hər ana da övlad itkisinin qarşısında özünü dəyanətli bir ana kimi təsdiq edə bilməz. Mən düşünürəm ki, bu, Əminə xanıma kökdən, baba-nənələrindən gələn bir əxlaqdı, xarakterdi.

Mən analara təsəlli üçün demirəm. Düşünürəm ki, şəhidlərimiz göydən yerə enmiş mələklər idilər və bu gün də bizim aramızdadırlar, sadəcə onları görə bilmirik. Onları görmək üçün

onlar kimi pak olmaq lazımdır. Amma inanıram ki, inşallah, bir gün analarımız o gül balalarımızla görüşəcək.

Dünya beş günlükdür deyənlər yanılır. Dünya əbədidir, ömür beş günlükdür, beş dəqiqəlikdir. Ona görə də bir-birimizə dəyər verək, əbədi dünyamızı qazanaq. İnsanın dəyərini varlığı deyil, yoxluğu göstərir. Yoxluğu heç bir şeyi dəyişməyənin varlığına da ehtiyac yoxdur.

***

12-13 yaşım olardı. Qonşumuzun 20 yaşlı qızı ağır xəstə idi. Anam və qonşular tez-tez ona baş çəkərdilər. Hər kəs əl açıb Allahdan qıza şəfa diləyirdi. Həftələr ötdü, aylar keçdi və bu xəstə qız Allahın lütfü və möcüzəsi ilə şəfa tapdı, sağaldı. Allah toplum duaları qəbul etmişdi. Günlərin bir günü həyətimizdən səs gəldi. Pəncərədən baxıb gördüm ki, səsi gələn xəstə qızın anasıdır. O, bir neçə dəfə "ham-ham" edərək, çıxıb getdi. Bu minvalla bütün qonşuları gəzdi. Bu səhnədən həm qorxdum, həm də təəccübləndim. Sonradan eşitdim ki, qızın anası həm də qonşuları gəzərək, əl açıb dilənib. Uzun illərdən sonra anladım ki, ana balasının sağalması üçün belə edəcəyinə əhd edibmiş.

İlahi! Sən anaları nə qədər böyük, nə qədər müqəddəs yaratmısan. Analar öz balaları üçün ən açıb dilənərmiş, it olub hürərmiş, ilan kimi sürünərmiş, övladdan ötrü dəli-divanə olarmış.

Bütün sevgiləri yığdım bir ana sevgisini əvəz etmədi. Allahım! Sən ki, analara bu qədər sevgi vermisən, bəs nədən anaların qəlbinə övlad dağı vurub, onları övlad imtahanına çəkirsən?

Nə olar Allahım, qıyma analara. Onları bala həsrəti ilə yandırma. Aclığa dözmək olar, yetimliyə dözmək olar. Balasız

yaşamaq olmur axı... Kənardan baxana elə gəlir ki, adam yaşayır. Ama yaşamır, sadəcə gözə görünür.

Çox acizik bu yazının, bu hökmün qarşısında. Nə yerigöyü yandıran ah-naləmiz, nə də selə dönən göz yaşlarımızın o xoşbəxt günlərimizi – Şəmistanlı, Səmədli, Rəhimli, Şəfalı, Ləmanlı, Səmalı, Aytaclı günlərimizi geri qaytarmağa, heç olmasa bircə an üz- üzə, nəfəs-nəfəsə dayanmağa, bizi sevinc dolu, səadət dolu günlərimizə, o qayğısız və sakit həyatımıza qaytarmağa gücü çatmır.

Belə çıxır ki, nə qədər ömrümüz qalıbsa, pərvanə kimi bu odun başına fırlanıb, şam kimi əriməliyik. Düşünürəm ki, həyatın ən ağır işgəncələri, acıları, məşəqqəti, təklik və tənhalıq yaxşı insanların alın yazısıdır, taleyidir, qismətidir. Bu da Allahın açılmayan, şəxsən mənim üçün qaranlıq olan bir sirridir.

**Fələk məni qarğıdı,**
**Bu sinəmi dağladı.**
**Tale çırpan qapını,**
**De, kim açıb bağladı?**

Hamıdan uzaq olmağa, uzaq gəzməyə çalışır Əminə xanım. Qətiyyən ürəyi açılmır. Elə bil sevinc hissi qəlbindən qeyb olub, çox uzaqlara – əlçatmaz, ün yetməz bir yerə gedib. Bəlkə də ətrafında çoxları bunu hiss etmir. O, günbəgün hamıdan uzaqlaşır. Elə bil əvvəllər insanlarla saatlarla ünsiyyətdə olan o deyilmiş.

İndi isə danışmağa nə həvəsi var, nə də sözü. Gecə-gündüz yorulmadan danışdığı bir insan var, o da Şəmisidi, canı-ci-

yəridi, havası, suyudu. “Mən tək onunla olanda yaşadığını hiss edirəm”, - deyir Əminə xanım.

**Əsdi xəzan yeli, saraldı bağlar,**
**Bağçanın gülləri soldu, Şəmistan.**
**Hamımız qərq olduq göz yaşlarına,**
**Anan saçlarını yoldu, Şəmistan.**

**Doyunca üzünü görmədik sənin,**
**İtdin qucağında dumanın, çənin,**
**Uyudun qoynunda ana Vətənin,**
**Məzarın nur ilə dolsun, Şəmistan.**

*******

Küsmüşəm! Mənə acılar yaşadan qismətimdən küsmüşəm. Üzümə gülməyən bəxtimdən küsmüşəm. Məni gözü yaşlı qoyan taleyimdən küsmüşəm.

Əminə xanımın iniltisində dərd içində boğulan övlad nisgilli bir ananın ürək çırpıntıları, həsrət, hicran dolu duyğuları və bu duyğuların qəlbləri riqqətə gətirən hönkürtüləri tək onun deyil, milyonlarla atanın, ananın yaşadığı və yaşadıqca da ömürgününü budayan bir Tanrı ruzgarının hayqırtısı, yanıqlı naləsidir. Hiss və duyğularımızı dərd çiyindaşlarımızın hiss və duyğuları kimi də dəyərləndirəcəyinizə inanmaq istərdim.

O ananın nələr yaşadığını görmək üçün açıq göz, isti ürək, düşünən beyin lazımdır. Əslində, Əminə xanım yoxdur. Onun yerində bir ovuc kül var. Həftələr keçəcək, aylar ötəcək, hətta Əminə xanımın çevrəsində olan bəzi duyğusuz, düşüncəsiz

adamlar (elələrinə insan deyə bilmərəm) o anadan əvəlki qayğını, diqqəti gözləyəcək, umacaq.

Daha düşünməyəcəklər ki, onlar üçün köhnələn dərd onun üçün hər zaman təzə olaraq qalacaq. Sınıb çilik-çilik olan qəlbinin, arzularının həmişə bir şirin sözə, bir nəvazişə ehtiyacı olacaq. Şəmistan sıradan biri deyil. O vətən yolunda, torpaq uğrunda, xalqın gözəl, sakit yaşamasına görə canını fəda edən şəhid balamızdır. Ən azından onun ruhunu şad etmək üçün, incitməmək üçün o valideyinlərə daha artıq sevgi, qayğı göstərmək gərəkdir. Onlara qarşı olan hər bir hərəkət (yaxşı ya pis) Şəmistana əyan olacaq. Üzbəsurət deyə bilmədiyi sözünü yuxuya girərək deyəcək, çatdıracaq.

Kaş bu ayrılıq olmayaydı. Kaş ürək sözlərimi Şəmistanın toy günü deyəydim. Onun haqqında nə qədər yazsam da, sözüm tükənməz. Eyni hisslər keçirən, eyni yaşantıları yaşayan analar bu kitabı yazarkən nələr çəkdiyimi yaxşı bilər.

Qəlbi həyat sevgisi, yaşayıb-yaratmaq eşqi ilə döyünən, sonsuz arzularına qovuşacağına can atan, fəqət heç bir arzusuna çata bilməyən nakam balam! Sən əbədi olaraq mənim qəlbimdə, ruhumda və əməllərimdə yaşayacaqsan.

**Bizi qoyub getdin, ah,**
**Arxamızdan uçdu dağ.**
**Bir az başını qaldır,**
**Səni sevənlərə bax.**

***

Təbiətən yaxşılığı görüb dəyərləndirdiyim kimi, pisliyə də göz yuman deyiləm. Hüququmu da bilirəm, borcumu da. Əyər pisliyi mənə bilmədən edirlərsə, güzəştə gedirəm. Hər kəs

səhv edə bilər. Səhvi aradan qaldırmağa kömək etmək, güzəşt etmək lazımdır. Yox, bu pislik təkrar-təkrar, bilərəkdən olunursa, deməli artıq o pis adamdır. Onu susdurmağı bacarıram. Ona pis adam olduğunu başa salıram. İlyas əmim oğlu olsa da, onun haqqında cəsarətlə bir söz deyə bilmərəm. Əminə xanım isə xislətən ona edilən nankorluğa, kobud rəftara, pisliyə yaxşılıq etməklə cavab verən insandır. Mən onun xislətində anamı görürəm. Daima susmağı bacaran biri. Susmaq böyüklükdü, susmaq alicənablıqdı, özünə dəyərdi. Mən onu yüksək qiymətləndirirəm, amma gərək bu insanlıqdan sui-istifadə olunmaya, yaxşı insanların əməyi istismar olmaya. Hərdən düşünməyə məcbur qalıram: Niyə taleyin bu amansız yazısı, məhz yaxşı insanların payına daha çox düşür. Xeyirxah, kövrək, səxavətli, hamının dərdini öz dərdi bilən, sınıq qəlblərə məlhəm olan insanların sınağı bitmir, tükənmir. Hətta, bala acısıyla da imtahan edilir. Niyə, axı niyə!?.... Allah niyə sualını sevmir.

Bəndə isə Məhəmməd peyğəmbərin qızı Fatimə deyil axı... Yorulur, usanır, tükənir...

Yazının bu məqamında qızım Ləmanın bir aforizmini xatırladım:

Yer üzündə ən böyük bədbəxtlik valideynlərinin övladını itirməsidir. Ən böyük günah, sağalmaz yara isə doğmalarının, güvəndiklərinin səni anlamaması, ürəyini yaralamasıdır.

**Yolu, səmti itirmişəm,**
**Hər adımda min günah var.**
**Bircə onu bilirəm ki,**
**Başımın üstə Allah var.**

***

Əminə xanım gecə-gündüz əl açıb Allaha yalvararaq deyir ki, İlahi, nə olar bu yaşadıqlarım bir yuxu olsun. Sən her şeyə qadirsən, mərhəmətlisən. “Ol” desən olar. Yalvarıram sənə, Allahım, bir möcüzə yarat, Şəmim gəlsin. Daha dözümüm yox, taqətim yox. Artıq dözə bilmirəm, gücüm tükənib Düz 6 aydır ki, balamın yolunu gözləyirəm. Ağlamaqdan gözlərim kor olub. Səsi gəlir qulağıma, məni çağırır. Axı o da mənsiz darıxır. Onun da ana qayğısına, sevgisinə ehtiyacı var. Bizi görüşdür, İlahi. Ya onu ver mənə, ya məni apar onun yanına.

İnsan dərd burulğanında boğulanda, çarəsiz qalanda, anasına, balasına ehtiyacı olur. Bu gün balamın, Şəmimin quruca nəfəsinə ehtiyacım var. Balam yanımda olsaydı, məni dərdimlə baş-başa qoyub, onunla qol-boyun olub qucaqlaşmağa, üz-üzə, göz-gözə dayanıb qoşa addımlamağa imkan verməzdi. Məni öz arxasında gizlədib sinəsini dərdin qabağına sipər edərdi. Öz ahı ilə dərdi-ələmi əridib., isti nəfəsi ilə mənə ümid verərdi, həyat verərdi, yaşamaq eşqi verərdi. İçimdə vulkan tək püskürən odu-alovu, ürək yanğımı ancaq o söndürə bilərdi. Bala böyük qüvvədir.

**Bəxtim mənə hay vermədi,**
**Bir balamı pay vermədi,**

**Tale mənə boy vermədi,**
**Fələk ölçüb-biçməz oldu.**

***

Bir gün Şəmistanın atası İlyas müəllim oturub şeir yazırmış. Şər yenicə qarışmış, göy üzü topa-topa buludlarla dolu imiş. O, pəncərədən göyün üzünə baxaraq düşünürmüş: “Görəsən, Şəmistan necədir? O, bizim halımızı görürmü?”

O gün göy üzü də qara geyinmişdi. Sanki tükənməz arzuların qanadında ömrün 26-nı yenicə addamış bir gəncin yoxluğunun xiffətini, ananın, atanın dolmuş gözlərinin nisgilini çəkirdi.

Şəmistan yox idi. Aşıb-daşan, aşıb-daşdıqca da tükənmək bilməyən arzuları ilə qol–boyun olub mələklərin cərgəsində ulu Tanrının çağrışına getmişdi.

Elə bu an atanın qulağına oğlunun səsi gəlir. Ata əlində tutduğu qələm və kağızla birgə: “Gəldim Şəmi!”- deyərək tələsə-tələsə darvazaya doğru gedir. Darvazaya çatar-çatmaz, ayağı çuxura düşür,yıxılır və qələm tutan qolu sınır. Ata hönkürərək ağlayır. Niyə axı, niyə!...

Balamın ömrü, arzuları yarımçıq qalan kimi, şeirləridə yarımçıq qalmalı idi. Niyə axı!...

**Küsmüşəm həyatdan, taledən yaman,**
**Ah-vayla ötüşür günlərim mənim.**
**Nə qədər ağırdır, yüküm ay aman,**
**Bir addım atmağa yoxdu təpərim”.**

***

Şəmistan leysan yağan yağışı xoşlamazdı. O da nakam Ləmanım kimi leysan yağan yağışı vaxtsız övlad itirmiş anala-rın dayanmadan axan göz yaşlarına bənzədərdi. Ona elə gələrdi ki, göy də qəlbindən yaralanıb və bir daha o yara qaysaq bağla-

mayacaq, o yağış kəsməyəcək. O özü görməsə belə anasının, atasının dilindən böyüyüb, boya-başa çatdığı ailənin içərisindən 25 yaşlı gənc bibisi Rəhilə xanımın çarəsiz xəstəlikdən əziyyət çəkərək dünyasını dəyişdiyini eşitmişdi və nənəsinin, babasının necə əzab, məşəqqət çəkdiklərini görürdü. Rəhilənin vaxtsız ölümündən sonra, o ailənin nizamı, rahatlığı pozuldu və valideynlər demək olar ki, ömürlərinin axırlarına kimi toparlana bilmədilər.

Rəhilənin anası, Şəmistanın nənəsi Şura bibi də bala dərdinə, ayrılığına tab gətirə bilməyərək çox keçmədən yatağa düşdü.

Şəmistanın böyük bibisi Ofelya xanımın söylədiklərindən: Bacım Rəhilənin və gəlinimiz Qərənfilin vaxtsız ölümündən sonra, anam dözməyərək yatağa düşdü. Deyirdi ki, mən yetimlərin o, anasız uşaqların, Müşfiqin, Cavidin, Ayselin üzünə baxa bilmirəm, hər gün 100 dəfə ölüb dirilirəm. Nə idi onların günahı bu yaşda anasız qaldılar? Onların körpə ürəklərinə ana dağı, mənim ürəyimə isə bala dağı çəkildi. Allah heç bir valideyni övlad, heç bir övladı da vaxtsız valideyn itkisi ilə imtahan etməsin. Gecə-gündüz ağlayır, sızlayırdı. Bu gen dünyada, bu geniş həyət-baca da yer tapmırdı özünə. Havası çatmırdı. Tez-tez küçəyə çıxırdı. Küçədə də havası çatmayıb qonşulara keçirdi. Hər yerdə o qızı Rəhiləni, gəlini Qərənfili axtarırdı. Dava-dərman da anama kömək etmirdi. Bir-birinin ardınca olan itkilərlə barışa bilmirdi. Allah Əminəni anamın dərdinə dərman olaraq gətirib çıxardı o ocağa. O anamın yanan ürəyinə su səpdi. Sönmüş ocağını yandırdı, onları həyata qaytardı. Hərdən ona baxıb düşünürdüm: Görəsən bu insandı, ya mələk. Mən qızı ol-

sam belə, anamı ovuda, sakitləşdirə bilmirdim. Əminə yatağa düşən anama can verdi. Onun ömrünü tükənməyə qoymadı, ömrünü uzatdı. Anam həmişə deyirdi ki, hər evə bir Əminə lazımdır. Allah onu heç vaxt darda qoymasın. Təəssüf! Anam nə bilərdi ki, o böyük ürəyə sahib olan Əminənin də gün gələcək sinəsinə övlad dağı çəkiləcək.

Bu dərd - Şəmistan kimi bir oğulun, balanın itkisi hər cür xoşbəxtliyə layiq bacı, ana, gəlin, insan olan Əminə xanıma kaş qismət olmayaydı. Valideyn üçün övladın naxələfi olar, pisi olmaz. Balanın acısı da şirin olur. Amma Şəmistan əvəzsiz oğul, ideal övlad idi. Heyif! Çox heyif!

***

Atalar yaxşı deyib: "Ağıl yaşda deyil, başdadır". O gənc də olsa, onu dinləməyə nədənsə həmişə özündən yaşca böyüklər də ehtiyac duyurdular. Onu dinləyib onunla razılaşmamaq, sakitləşməmək mümkün deyildi. O, öz mehribanlığı, qayğıkeşliyi, canıyananlığı ilə hər kəsə dərdlərini, problemlərini unutdura biləcək və üzləşdikləri ağır məqamlarda dəstək olacaq canıyanan insan idi. O, hər kəsə psixoloji problemlərdəköməklik edə bilirdi. Elə bil, peşəkar psixoloq idi: Onu yaşıdları ilə müqayisə etmək mümkün deyil. Hətta istəsələr belə, onu əvəz etmək, ona bənzəmək mümkün deyildir. Çünki hərə özü olaraq doğulur, öz düşüncə tərzinə, təbiətinə uyğun yaşayır və münasibət göstərir. Talantı öz yerində, çox böyük ürəyi var idi, bizim igid Şəmistanımızın. Onun ürəyinin istisinə yüzlərlə insan qızınırdı. O, heç kimdən son gününə qədər məhəbbətini, şirin sözünü, köməkliyini əsirgəmədi. Özü isə ancaq Allaha sığındı, Allahdan kömək istədi. Allah isə belə məsləhət bildi.

***

Kindən-küdurətdən, yalandan-böhtandan, gileydən-güzardan, ən əsası paxıllıqdan uzaq olan Şəmim! Səninlə həmişə öyündüm, fəxr elədim. Qurur duydum, amma qəlbimdə. Sevgimi, hisslərimi dilə gətirmədim. Ehtiyat etdim ki, səndə özünə arxayınlıq yaranar. Bu gün isə səhvə yol verdiyimi anlayıram. Niyə sənə demədim ki, balam, sən bir dağsan, sən bir ümmansan, sən özün boyda bir dünyamsan. Bağışla məni, Şəmim, bağışla. Axı sən geniş ürəklisən, güzəştə getməyi, bağışlamağı bacaransan. Bağışla, qəlbi yanan atanı-ananı. Kimlərisə incitməmək üçün səni incitdik, səni danladıq, sənə ərk elədik.

Dedik ki, Şəmi balamızdır, anlayar, keçər. Dağım mənim, arxam mənim! Sən öz gəlişinlə günəş tək şəfəqlərini həyatımıza, dünyamıza, ailəmizin üstünə səpdin. Dan ulduzutək başımızın üstündə parladın. Bizə həyat verdin, bizə nəfəs verdin. İndi isə bizi 40 arşın quyunun dibindən öz əllərinlə çıxart. Buna ancaq sənin gücün çatar. Günəşdən isti, sudan saf, baldan şirin balam!

Biri var idi, biri yox idi. Bir cəsur Şəmistan var idi... İlahi! Mən nə danışıram. Şəmim var, balam var. Həmişə də olacaq. O mənim yanımdadır. Bax, əllərini qoyub çiynimə, ağlama ana, yanındayam, deyir. Mən səni tək qoymaram. Bilirəm balam, bilirəm. Sən elə oğul deyilsən. Sən ata, ananı darda qoymazsan. Əyər sən yoxsansa, onda mən neçə varam?! Bağışla, canım-ciyərim! Bağışla, mənim bircədənəm! Yenə qəlbimə toxundum.

**Necə dilim gələr sən yoxsan deyəm,**
**Yoxsansa, bəs onda biz necə varıq.**

**Səni görməyənə kor deyirəm mən,**
**Səni görməyənə nə deyim görən?**

***

Uca Allah onu əlimizdən aldı, ürəyimizi parça-parça etdi. Deyərdim ki, əsl insan ölümündən sonra doğulur. Şəmistan öz ayrılığı ilə necə dəyərli, unudulmaz bir insan, övlad, dost olduğunu sübut etdi. Əgər yaşasaydı, cəmiyyət üçün layiqli bir şəxsiyyət ola bilərdi.

Hərdən adama elə gəlir ki, cəmiyyət üçün doğulub yaşayanların həyat prinsipləri onların zəkaları və ürəkləri qədər böyük olur. Şəmistan da belə böyük ürək sahibi idi. İndi onu tanıyanların gözü hər yerdə onu axtarır, hər yerdə onun yeri görünür.

**Üzün qara olsun əzrayıl sənin,**
**Daha kim qaldı ki, alıb apardın.**
**Neçə oğulları, neçə qızları,**
**Kəhər atlarından salıb apardın.**

**Zülmətə döndərdin bağçanı, bağı,**
**Söndürdün, ay namərd, isti ocağı,**
**Ananın qəlbinə sən çəkib dağı,**
**Əlindən balasın alıb apardın.**

***

Şəmistan düşünürdü ki, doğmaları canıyanan olmuş olsa belə, insanın harayına yaxın və yaxşı qonşu çatır. Hesab edirdi

ki, qonşularla şirin ünsiyyət hər kəsin sabahına açılan işıqlı bir pəncərədir.

Sən tamamilə düz düşünmüsən, mənim igid balam. Sizin qonşularınız Zərinə xanım, Gülşən xanım, Yəmən müəllimə, Sona müəllimə, Yaqut xanım, Lalə xanım, Nərgiz xanım, Ruhəngiz xanım, Marina xanım heç vaxt ananı tək qoymurlar. Hətta ananın xəbəri olmadan belə səni, şəhidlərimizi, ziyarətə gedirlər. Sənin dostların Seyran, Yolçu, Ceyhun, Elməddin, Raqub, İsmayıl, Ramil anana dəstəkdirlər. Onlar səni tez-tez yad edir, xatirələrinlə təskinlik tapırlar. Yaxın dostların, qardaşların sənə olan sevgilərini sənsiz belə sübut etdilər. Əminə xanım deyir ki, Allah bütün qonşulardan razı olsun. İnqilabın qızı Ayşən mənim sağ əlimdir. Allah onu xoşbəxt eləsin. Gülşənin qızı Cəvahirat, Sabir əminin qızı Könül xanım Bakıdan birbaşa gəlib balamı ziyarət edirlər. Əmi gəlini Səbirə xanım Bakıda yaşayır. O, Şəmistana olan sevgisini Şəmistanın rəsmini xalça üzərində toxutdurmaqla bəyan edib. Səbirə xanım Birinci Qarabağ şəhidlərimiz olan Səbuhi Abdullayevin, Zülfüqar Zülfüqarovun, Raqubun, Arazın, İkinci Qarabağ müharibəsinin şəhidi Səməd Abdullayevin də rəsmini bir yerdə xalça üzərinə toxutdurub. "Unutmayaq ki, unudulmayaq" başlığı alnında onların təhsil aldığı orta məktəbdə bir guşə yaradılıb.

Unutmayaq ki, Qaraxıdır kəndi İkinci Qarabağ müharibəsində üç şəhid verib. Şəhidimizin 1-də Rəhim Ehtiram oğlu Həmidovdur. Rəhim Mırtı kəndində şəhidlər xiyabanında dəfn olunub. Mən onların – istər Birinci Qarabağ müharibəsinin şəhidləri və qaziləri, istərsə də İkinci Qarabağ müharibəsinin şəhidləri və qaziləri haqqında "Göyçayın Qarabağ sevdalıları" ki-

tabımda ətraflı məlumatlar vermişəm. İnşallah, yaxın zamanlarda həmin kitabı da çap etdirib ictimaiyyətə təqdim edəcəyəm.

Eşitdiyimə görə, tezliklə şəhidlərimizin təhsil aldığı Zülfüqar Zülfüqarov adına tam orta məktəbin qarşısında şəhidlərimizin xatirəsini əbədiləşdirən bir abidə ucaldılacaq və bir də şəhidlər bulağı açılacaq. Bəri başdan şəhidlərimizə abidə ucaldıb bulaq açacaq səlahiyyətli, imkanlı və xeyirxah insanlara və Qaraxıdır kənd sakinlərinə dərin təşəkkürümü bildirirəm. Allah sizdən razı olsun.

***

Şəmistan Qaraxıdır kəndinin İbrıxlı adı ilə tanınan məhəlləsində doğulub boya çatdı, amma başa çatmadı. Qəlbində bəslədiyi sonsuz arzular yarımçıq qaldı. Amansız əcəl onu arzularına çatmağa qoymadı.

İbrıxlı məhəlləsi babamız İbrahim kişi tərəfindən binə edilib. Orda yaşayanlar ulu babamız İbrahimin övladları, nəvələri, nəticələridir. İbrahimovlar insanlıqları, xeyirxahlıqları, zəhmətsevər, vətənsevər olmaqlarıyla, xeyrə-şərə yaramaqlarıyla seçilən, sayılan bir nəsil, bir kök olublar. Yaxından, yaddan kiminsə başına bir hadisə gələrsə, çıxılmaz vəziyyətə düşərsə, onu neyləyim, ne edim sualı qarşısında qoymazlar. Hər kəs əlindən gələn köməkliyi anında, məqamında edər, özü də təmannasız. Yəni bu yardımı, buköməyi özlərinə müqəddəs borc bilərlər. Kəndin, xüsusilə İbrıxlı məhəlləsinin bu adət-ənənəsini qonşu kəndlər də yaxşı bilir. Qaraxıdır kəndindən və İbrıxlı məhəlləsindən tanınmış xeyriyəçilər var. Yetimlərə əl tutan, yardım edənlərdən üzdə olanlardan bir neçəsinin adını sadalamaq yeri-

nə düşər. Onlara dar ayağın adamı deyirlər. Sabir, Xalid, İlqar və İlham İbrahimov qardaşlarını, Ziya İbrahimovu, Şahin, Elxan, Ədalət Yaqubov qardaşlarını, Coşqun, Famil, Ətraf Həbullahovları misal gətirmək olar. Çox arzu edərdim ki, bu xeyirxahlıq, bu ənənə davam etsin və gələcək nəsillərə də ötürülsün.

Burda onu da vurğulamaq istəyirəm ki, dərd-ələm də, bala itkisi də o nəslin üzərindən, ailələrindən yan keçməyib. Anam da, bacım Səlminaz da körpə balalarını itirib. Allah onları bala dağı ilə imtahana çəkib. Düşünürəm ki, nə dünyadan köçən valideynin, nə də övladın yaşı olmaz. İstər valideyn 100 yaşında dünyasını dəyişsin, istərsə də övlad bir aylıq olsun. İtki itki, dərd dərddir. Övlad itkiləri bizim nəslin payına düşən çəkilməz dərdlərdən biridir. Neçə illər bundan əvvəl Ənvər əmimin 12 yaşında olan oğlu Fəxrəddin, Xəlil əminin 25 yaşlı qızı Rəhilə və 25 yaşlı gəlini Qərənfil, Məhəmmədəli əminin 19 yaşlı qızı Şahnabat, Xeyrəddin əminin 26 yaşlı oğlu Sənan, 14 yaşlı nəvəsi Xumar, Bayram əminin 23 yaşlı oğlu, 1-ci Qarabağ müharibəsinin şəhidi Səbuhi Abdullayev, çox cavankən dünyasını dəyişən Əfqan, Xələf əmimin oğlu Faiq, Behbud əminin nəvəsi 13 yaşlı Şəfa, mənim atam Məhəmmədin nəvələri 18 yaşlı qızım Ləman, 16 yaşlı Səmayə, 14 yaşlı Aytac, anasının gözünün ağı-qarası olan Ziyad əminin oğlu Yaşar, Elşad, Yaqub əminin nəvəsi 21 yaşlı Zaur, oğlu Vaqif, bircə Şəmistan..... Bu ağır övlad itkilərinin qarşısında bu nəsil, bu ocaq ancaq və ancaq bir-birlərinə maddi və mənəvi dəstək olmaqla duruş gətirməyi bacarıblar. Mənə elə gəlir ki, mənəvi tərəfləri güclü olan insanlar digərlərindən qat-qat daha güclü faciələrə məruz qalırlar. Həyat onlara ən güclü silahlarla hücum edir.

***

Dayım gəlini Zərinə xanımla söhbət zamanı Əminəgilin necə ailə olmağı ilə maraqlandım. O dedi: “Çox mehriban, bir-birlərinə həyan duran, dəstək olan bacı qardaşlardır. Əminə kənddə sayılıb-seçilən insanlardan olan qardaşı Rasimin adını hələ bir dəfə olsun belə dilə gətirməyib. Hər zaman ona “qağam”,- deyə müraciət edib. “Qağam canı”, - deyə and içib. Ailədə böyük-kiçiyin yeri elə buradan görünür. Bu günə kimi istər bacıları, istər qardaşları, istərsə də bacı və qardaşı uşaqları, demək olar ki, onunla birgə, onun yanındadırlar. Onu körpə uşaq kimi əzizləyir, başına dolanırlar.

Doğrudur, heç kəs övladı əvəz edə, onun yerini verə bilməz, ancaq Əminənin əqrəbaları, doğmaları ona dəstək omaqla onu ruhən məhv olmağa qoymur, az da olsa bala dərdini unutdurmağa çalışırlar.

Biz qonşular da Əminə xanıma həyan olmağı özümüzə müqəddəs borc bilir, onu – Şəmistan kimi igid bir övladın anasını tək qoymamağa çalışırıq.

Bəli, insanı şirin sözlə yaşatmaq da olar, acı sözlə qırıb sındırmaq da!

Bir gün bir qonşumuzla üz-üzə gəldim. Yaşı 70-dən yuxarı olan bir xanım idi. Salamlaşıb hal-əhval tutduq. Qızım Ləman da yanımda idi. Sağollaşıb ayrılanda mənə dedi: “Mamıçka (o, rustəhsilli olduğu üçün mənə belə müraciət edirdi), nənə ilə görüşəndə nəyə görə öpüşmədin?”. Dedim: “Qonşudur, niyə öpüşməliyəm ki?” Soruşdu ki, bir-birinizi neçə müddət olar ki, görmürsünüz? Fikirləşib dedim ki, 3-4 ay olar. Bir az düşünən Ləman dedi: “Sən onu qucaqlayıb öpsəydin, nə olardı ki? Yaşlı

nənədir, ürəyi açılar, şad olardı. Mama, əliaçıqsan, səxavətlisən, qonaqpərvərsən, bunlar yaxşı xüsusiyyətlərdir. Amma unutma ki, sədəqə vermək, əl tutmaq əsas deyil. Şirin söz, şirin münasibət özü də bir sədəqədir. İnsanların ona daha çox ehtiyacı var. Ana demiş (nəvələri anama bu adla müraciət edərdilər): "Can deməklə candan can əskik olmaz".

O zaman Ləmanın 14 yaşı vardı. Hər kəs cənnətini də, cəhənnəmini də bu dünyada qazanır. Əməli, münasibəti , dürüstlüyü, ədaləti  və şirin dili ilə. Mən düz sözün, haqqın qarşısında susmağı bacardığım üçün, sən düz fikirləşirsən, qızım, deyə bildim.

***

Həyatda hər dərdin öz çəkisi, öz qurtuluşu var.... Fəqət bala itkisinin nə çəkisi var, nə də qurtuluşu... Allah dözüm verməsə, dözmək olmaz bu dərdə.

Belə ağır yükü olan valideynlərə doğmalarının dəstəyi, birlik, sevgi su və hava kimi gərəkdir. Hətta, dərdli valideynlər heç kimi görmək istəməsə belə, yenə onlarla razılaşıb  geri çəkilmək ən azı insafsızlıqdır. Onlar çevrəsindən nəvaziş, diqqət görərsə, dərdini unuda bilməsə də, toparlanıb ayaq üstə durmağı bacarar. Bu da Allah qatında savab bir iş olar.

Düşünürəm ki, vəzifəsindən, harada çalışmasından asılı olmayaraq, insanı başqalarının gözündə ucaldan, eyni zamanda onu Allah-taala yanında yüksək, şərəfli edən keyfiyyətlərdən, bəlkə də başlıcası şəxsin xoş niyyəti və əməlindəki xeyirxahlığı, ətrafdakı insanlara qayğısıdır.

Yıxılanın qolundan tutmaq, çətinliyə, dərdə düşənə dayaq durmaq, yardım etmək kimi mənəvi-əxlaqi sifətlər isə insanın nə vəzifəsi ilə ölçülür, nə də ki elmi və dini titulları ilə... Bu xarakter, bu əməl insanın daxilindən gəlməlidir. Hər kəs sol yumruğu boyda bir ürəyə sahib olsa da, xeyirxah, nəcib mərhəmətli insanlar elə özləri boyda ürəkdirlər...

Dərd insanı böyüdər, dərd insanı bir-birinə yaxınlaşdırar. Dərd insanı dərinə çəkər. Bəli, bu, həqiqətən də belədir. Allah heç bir valideyinə övlad itkisi göstərməsin. Övlad acısı yaşayanlara səbir versin. Nə yaxşı ki, dünya, cəmiyyət yaxşılardan xalı deyil.

***

Şəmistan qış fəslində dünyaya gəlmişdi. O qışda anadan olmasına baxmayaraq, yaz fəslini çox sevirdi. Baharın gəlişi onunçun toy-büsat idi. O, həyatsevər və şair təbiətli olduğu üçün yaşıl çəməndən, güldən çiçəklərdən, təzəcə tumurcuqlayan ağaclardan, quşların qəribə səsindən xüsusi zövq alırdı. Bu gözəlliklərdən ilhama gəlir, yazır, yaradırdı. Baharın gözəlliyinin rəsmlərini də çəkirdi. Bahar fəsli Şəmistanın arzularının fəsli idi.

Nikbin xarakterli olan Şəmistan bahar gələndə özünü enerjili, daha güclü hiss edərdi. Deyərdi ki, mən oyanan torpaqdan, çiçəkləyən ağaclardan, bağın-bağçanın ətrindən güc-qüvvət alıram. Ümumiyyətlə, o gözəllikdən zövq almağı bacarırdı. Ayağının altında qalan saralmış otda da bir gözəllik görürdü, axtarırdı.

O, bahar fəslini təpədən-dırnağacan olan bir sevgi adlandırırdı. Düşünürdü ki, bahar ruhun gözəlliyidir. Bahar ölümsüzlük deməkdir. Bahar gəncliyin ilk duyğusudur. Bahar həyatın zənginliyidir.

Baharı çox sevən Şəmistan balamız! Sən sevdiyin bahar gəldi, amma sən gəlmədin. Ağaclar yarpaqladı, çiçəklər açdı, həyət başdan-başa yaşıl çəmənlə örtüldü, amma onlara sənin sevgini verən, əzizləyən, nəvazış göstərən olmadı. Anan dəli-divanə olub. O güllərin içərisində ancaq səni, Şəmistanını axtarır.

Gözünə görünürsən. Elə bilir Şəmistanı güllərə su səpir. Gedir görür ki, yoxsan. Öz-özünə: "Sən bu qədər insafsız ola bilməzsən axı, balam. Bəs niyə gəlmirsən? Gəl, sevdiyin Bahar fəsli gəldi, sən də gəl",-deyir.

**Qayit ötən çağım, gəl,**
**Quruyan bulağım, gəl.**
**Gəl, gözlərim qaraldı,**
**Ey nurlu çırağm, gəl!**

Yenə mart gəldi. Novruz gəldi... 2021-ci ilin üzümüzə ağrılı-acılı gələn Novruz bayramı....

**Boşalıb doldum, fələk,**
**Yorulub, bitdim, fələk.**
**Onu niyə vermişdin,**
**Niyə də aldın, fələk?!-**

deyərək qəlbindən yaralanmış ana çırpınır, gözlərindən yaş əvəzinə qan damcılayır... İndi gəl qarşıla bu bayramı, görüm necə qarşılayırsan!... Hamı yığılıb İlyasın ocağının başına, amma Şəmistan gəlmir, Şəmistan yoxdur... Yer, göy titrəyir Əminə ananın naləsindən, İlyas atanın yanıqlı iniltisindən... Nə təsəlli yeridir, nə də səbir... Hamı lal-dinməz oturub. Mənə elə gəlirdi ki, bu dəqiqə ananın, atanın ürəyi partlayacaq.

Nə ölə bilirik, nə də yaşaya.. Budağından qopmuş yarpaq kimiyik... Küləkli havada o divara, bu divara çırpılan saralmış yarpaq kimi... Mənzilimiz haradır, bilinməz... Qızım Ləmanın 17 yaşında ikən yazdığı miniatürlərdən birini xatırladım.

**İnam!**
**Dar ağacına qədər**
**Aparır insan oğlunu.**
**Ordan o yana**
**Artıq insan yoxdu.**
**Dar ağacından yellənən**
**Qanlı bayraq var!**

Axrıncı çərşənbədən Novruz bayramı gününə qədər Əminə xanımgilə ziyarətə gələnlərin-gedənlərin sayı-hesabı yox idi... Amma deyiləcək bir söz də yox ... Hər kəsin gücü göz yaşlarına çatırdı... İyirmi bir mart ürəyimin yarasını qanadan ağrılı səhnələrdən biri oldu.

***

Biz mart ayının 19-da birbaşa Bakıdan Qaraxıdır kəndinə şəhidlərimizin, balalarımızın ziyarətinə gəldik. Düşünürdük ki, bu gün ziyarətə gələn olmaz. Amma darvazadan içəri girəndə insan toplusunun şəhidlərimizi ziyarət etdiyini gördüm və anladım ki, artıq burda bir şəhidlər ziyarətgahı yaranıb. Biz də onlara qoşulduq, Çarəsiz-çarəsiz şəhidlərimizin qarşısında diz çökərək onları öpməkdən başqa gücümüz heç nəyə çatmadı.

***

Bizim qəhrəman Şəmistanımızın insan və insanlıq haqqında özünəməxsus fikirləri, düşüncələri var idi. Deyirdi ki, insanlar arasında bir-birinə doğmalıq, şirinlik, canıyananlıq nə sənədlədir, nə də məsafə ilə. Onlar qeyrətdən, vicdandan, insanlıqdan irəli gəlir.

Bəlkə də yad kimsə sənə biganə olsa, pislik etsə, saymasa 3-5 günə unudarsan, fikirləşərsən ki, yaddır da... Bəs doğma dediklərin? Bax, bu dəhşətdir. Allah adamı elə dırnaqarası doğmalardan saxlasın!...

Olum və ölüm Allahın əlindədir. Heç də ölümdən qorxmaq və qaçmaq lazım deyil. Bizi başa düşməyən, düşmək istəməyən kal və nankorlardan qaçmaq və qorxmaq lazımdır. Allah özü bizi o adamlardan hifz etsin!

Şəmistanın həyatda ən çox qorxduğu şey qəlb qırmaq olub. Düşünüb ki, ən böyük günah günahsızların qəlbini qırıb, göz yaşlarını axıtmaqdır. Mənim rəhmətlik anam da həmişə deyərdi ki, bir qəlbi qırmaq bir insanı öldürüb əlini qana bulamaqdır.

Şəmistan öz fərqliliyi ilə, dünyagörüşü, davranışı, mədəniyyəti, sözü bütövlülüyü ilə seçilirdi. Onun hər kəsin qəlbində qazandığı bir isti güşə vardı. Şəmistan həyatın gerçək üzünü sevən, haqsızlığa göz yummağı bacarmayan, borcunu və hüququnu bilən bir insan idi. O özünə hörmət qoymağı, insanlarla ünsiyyət qurmağı bacarırdı. Ləyaqətinə və yüksək insanı keyfiyyətlərə görə onun sevdiklərinin yanında xüsusi yeri var idi. Məhz buna görə də o unudula bilməz.

***

Şəmistanın həyat haqqında da öz fəlsəfəsi var idi. O düşünürdü ki, həyat xoşbəxt yaşamaqdır. Həyat gözəllikdən zövq almaqdır.

Həyat ölümə hazır olmaqdır. Həyat su kimi axmaqdır. Həyat qısa bir xətdir, ya da yanıq bir melodiyadır. Həyat insanları çox sevməkdir. Həyat məsuliyyətdir! Həyat ölərkən günahsız ölməkdir. Həyat ölümünü bilməkdir, ölümə gülümsəməkdir. Həyat bizə verilən məhdud bir zamandır!

***

Şəmistan müəllimlərinin hər birini çox istəyirdi, onlara çox hörmətlə yanaşırdı. Amma ən çox sevdiyi ibtidai sinif müəllimi Səkinə xanım idi. Ağlı kəsəndən sonra fikirlərini, düşüncələrini belə izah edirmiş: "Müəllimlərimin hər biri mənə əzizdir. Amma ən çox əziyyətimi çəkən, əlimdən tutaraq mənə ana sözünü, vətən sözünü yazdıran və mənə onları sevdirən sinif müəllimim Səkinə xanıma ömrüm boyu özümü borclu sayıram".

***

Şəmistan Qaraxıdır kəndində 1-ci və 2-ci Qarabağ savaşlarının şəhidləri olan Zülfüqar, Səbuhi, Raqub, Araz və Səmədlə eyni məkanda, eyni torpağın qoynunda uyuyur. Onların hər biri öz qəhrəmanlıqları ilə tarix yazan, ölümüylə ölümsüzlük qazanan, əbədiləşən, qəlblərdə məskən salan əfsanəvi igidlərimiz – Babəkimiz, Nəbimiz, Koroğlumuzdurlar. Kəndimizin bir şəhidi Rəhim Həmidov isə Göyçayın Mırtı kəndində şəhidlər xiyabanında dəfn olunub. Hər birinizin ruhu qarşısında baş əyirik. Haqqınızı bizə halal edin. Allah sizə rəhmət eləsin!

Qaraxıdır kənd orta məktəb 1-ci Qarabağ müharibəsi şəhidi Zülfüqar Zülfüqarovun adını daşıyır. Siz bizim qürur və and yerimizsiniz. Biz sizinlə fəxr edirik. Hər zaman qəlbimizdə yaşayacaqsınız.

***

Mənim uşaqlıq dostum və sinif yoldaşım olan bir rəfiqəm var. Onun gözünün ağı-qarası oğlu Fərid də 26 yaşında şəhid oldu. Fərid nişanlı idi. Sentyabrın 3-ü ad günü toyu olacaqdı. Kəşfiyatçı olan Fərid vəzifə borcunu yerinə yetirərkən yağı düşmənin gülləsinə tuş gələrək əbədiyyətə qovuşdu. Əslən göyçaylı olan Fərid Gəncə sakini olduğu üçün orda Şəhidlər xiyabanın da dəfn olundu. Fəridin anası Qətibə xanım Şəmistanın şəhid olması xəbərini eşidib mənimlə birgə yas mərasiminə gəldi. Əminə xanıma sarılıb: "Yiyə durma bu dərdə, bacı, gücün çatmaz" , - dedi, ağladı, çırpındı.

Dedi ki, o ananın nələr çəkdiyini mənim qədər bilən olmaz. Balalarımızın taleyi eynidi. Onun da bir balası 26 yaşında nişanlıykən getdi, mənim də balam 26 yaşında nişanlı getdi. Biz

balalarımızı bəy kürsüsündə oturtmağı bacarmadıq. Mart ayı idi. Bayram ərəfəsi mənə zəng edib dedi ki, mümkünsə görüşək, bu günlər özümü çox pis hiss edirəm. Biz görüşdük və bir yerdə olduğumuz müddətdə ancaq balalarımızdan: Ləmandan, Səmayədən, Aytacdan, Şəfadan, Şəmistandan, Fəriddən danışdıq. O məndən soruşdu: "Əminə xanım bu ağır dərdi daşıya bilirmi? Yəqin ki, bütün qohum-əqrəba başına yığılır, ona təsəlli verir. Təsəlli vermək asandır, amma bu taleyi yaşamaq çox çətindir, çox çətin!...

Mən onu da bilirəm ki, Şəmistanın anası yaşamır, sadəcə gözə görünür bir varlıq kimi... Təranə, hər zaman Əminəni, səni, özümü düşünəndə, götür-qoy edəndə sənin bir bayatın yadıma düşür:

**Balamı tərlan aldı,**
**Dağımı nişan aldı.**
**Fələk yayını çəkib,**
**Sinəmi nişan aldı.**

Sinəsindən bala dağıyla oxlanan analar yaşaya bilərmi?!"

Şəmistanın yoxluğuyla barışmayanlar, itkisinə təəssüflənənlər çoxdur... Ailəyə yaxın olan qohum-qardaş, dost-tanış, qonşular hamısı yas içindədir. Onun yeri bütün doğmalarının evində boş qalıb. Bəli, danılmaz həqiqətdir, bütün doğmaları bu boşluğu hiss edir.

Lakin bu da həyatın qanunudur ki, zaman keçdikcə hər bir kəs öz sakit həyatına qayıdacaq, isti ocağında qızınacaq. Fəqət bu acını, bu amansız ayrılığı daim yaşayan, hiss edən, unut-

mayan ancaq və ancaq Şəmistanın övlad həsrətiylə alışıb-yanan, onların öz oduna kül olan valideynləri olacaq. Ata-ananın qəlbinə vurulan yaraya nə zamanın, nə də mühitin gücü çatmayacaq.

**Ağrılı, həsrətli günlər içində,**
**Bir ömür gör necə gümansız qaldı.**
**Get-gedə sovrulan son damlalarda,**
**Gözləri qurudu ümmansız qaldı.**

**Ağrılar içində o necə ağrı,**
**O necə düşməndi, o necə yağı?**
**Yan ala bilmədi sahilə doğru,**
**Tale gəmiləri limansız qaldı...**

**O igid oğlandan qalmadı iz də...**
**Qeyb oldu dəryada , yox oldu üzdə,**
**Bir tale gəmisi batdı dənizdə,**
**Bir ana qucağı övladsız qaldı.**

***

İnsan var tanıyıb peşman olursan, insan var tanıdıqdan sonra ona vurulursan. O sənin üçün bir örnək olur. Etiraf edirəm ki, Əminə xanımı, əmim oğlu Şahin müəllimi, dayım gəlini Zərinə xanımı, xalamın nəvəsi Seyran Beydullayevi, şəhid Səmədin atası Sədiyar  Abdullayevi yaxından tanımamışam.

Bu ağır yazıya başlayarkən düşündüm ki, ürəyi yaralı valideynlərdən necə kömək istəyim,  onlara hansı suallar verim? Düşündüm ki,  yorulacaq, bezəcəklər. Amma belə olmadı. Ka-

rantin rejimiylə bağlı rayona, kəndə getmək imkanım olmadığı üçün bütün məlumatları telfon vasitəsi ilə öyrənməyə məcbur qaldım. Əminə xanım, Şahin müəllim, Zərinə xanım, Sədyar, Seyrana usanmadan, yorulmadan mənim suallarımı cavablandıraraq bu işin ərsəyə çıxmasında dəstək oldular. Şəhidlərlə bağlı kitabı yaza-yaza bir gündə neçə dəfə Şahin müəllimə zəng edir, səs atırdım. Şahin müəllimin ciddi iş sahibi olduğunu, demək olar ki, vaxtı olmadığını onu yaxından tanıyanlar bilir. Eyni zamanda Zərinə xanım, Sədyar və Seyran balamın da zəhmətini xüsusi qeyd etməyi lazım bilirəm

Onlara verdiyim sualların qarşılığında ancaq bir cavab eşidirdim: "Baş üstə, müqəddəs borcumuzdur", - deyirdilər. Tək bir dəfə Şahin mənə dedi ki, əmi qızı, bəlkə, imkan edib gələsən kəndə, o qaziləri, şəhid analarını bir yerə yığmaq məndən. Bir həftə qal, onlarla üzbəsurət otur, danışdır, qeydlərini götür, sonra get yaz. Sən şəhid analarını görmədən, danışdırmadan necə yaza bilərsən onların yaşadıqlarını? Bir an tutuldum. Sonra da dedim ki, narahat olma, qardaş. Mən o yanğını 10 ildən artıqdır yaşayıram. Bir də şəhidlər bizim hər birimizin balasıdır.

Mənə Göyçayın şəhidlərilə və Şəmistanla bağlı məlumat toplamaqda yaxından köməklik etdiklərinə görə Əminə xanıma, Zərinə xanıma, Şahin müəllimə, Sədyar Abdullayevə, Seyran Beydullayevə və digər çəxslərə dərin təşəkkürümü bildirirəm. Var olasınız!

***

Bir gün Şəmistan yuxuma girmişdi. Gülümsüyərək üzümə baxırdı. Diksindim. Dedim: "Hardasan, Şəmistan?". Dedi:

"Şəhid qardaşlarımla bir yerdəyəm. Bura elə gözəl yerdir ki.. Səmədlə qonşuyuq. Onun da yaraşıqlı, işıqlı evi var. Tez-tez görüşürük.

Bir narahatlığım valideynlərimdəndir. Xahiş edirəm, onlara de ki, çox ağlamasınlar. Mən hər gün onların yanındayam, onları görürəm. Onlar bikef gəzəndə, ağlayanda mən də üzülürəm. Vallah, biz xoşbəxtik".

Şəmistana əyan olmuşdu ki, mən onunla anası arasında vasitəçiyəm. Şəmistanın istəyini ancaq mən onlara çatdıra bilərəm. Bizim də təsəllimiz odur ki, siz cənnətməkansız, şəhid balam. Nur içində yatasınız! Allah biz valideynlərə nəsib etsin ki, cənnətdə sizinlə görüşək. Amin!

Allah analara səbir versin. Özü onların yanan ürəyinin üstünə su çiləsin.

***

Bibim oğlu Vidadi müəllim deyir ki, mən 8 ildən artıq Füzuli rayonunda hərbi xidmətdə olduğuma və daha sonra orada bölük komandiri kimi çalışdığıma görə, o rayonu, oradakı hərbi hissələri və komandirlərini tanıyırdım.

Şəmistan həqiqi hərbi xidmət zamanı Füzuliyə düşmüşdü. Bir gün Şəmistanın atası və mən hərbi hissəyə, onun yanına getdik. O zaman hələ atəşkəs idi. Lakin buna baxmayaraq, ermənilər bir neçə dəfə atəşkəsi pozmuşdular. Bizimkilər onları cavab atəşilə susdurmuşdular. O döyüşlərin birində Şəmistan yaralanmışdı. Şəmistan fiziki cəhətdən çəlimsiz olduğu üçün mən komandirinə yaxınlaşıb onu tapşırmaq istədim. Komandir güldü. Dedi ki, sən mənə elə adamı tapşırırsan ki, mən bir yerə

gedəndə əsgərləri ona tapşırıb gedirəm. Qardaş, Şəmistanı saxlamaq mümkün deyil. O bir cəngavərdi, şirdi, pələngdi. Yəqin onun fiziki görkəmi sizi narahat edir. O, ürəyi özündən 3 dəfə böyük insandı, cəbhəçidi, əsgərdi. Biz onunla qurur duyuruq.

Vidadi mənə belə bir sual verdi: "Xəlil Rza Ulu Türkün oğlu Təbriz cəbhədə şəhid olarkən atası dedi ki, oğlum mənim tərbiyəmin qurbanı oldu. Bəs Şəmistanda bu qədər vətənpərvərlik hardan yarandı? O, ananın tək övladı olduğu üçün cəbhəyə getməyə bilərdi. Lakin onu saxlamaq mümkün olmadı. Gedib könüllü olaraq yazıldı və gülə-gülə cəbhəyə yollandı".

Dedim: "Qardaş, o da ata-babadan, sənin kimi, Səbuhi kimi, Namiq kimi igid əmilərdən qaynaqlanıb. Sizin 1-ci Qarabağ müharibəsində göstərdiyiniz şücaət ona bir örnək oldu. Gözünü açandan sizi gördü, sizdən eşitdi və Qarabağı azad etmək amalı ilə yaşa doldu. Zaman yetişdi, o gün gəldi, o da sizin yolunuzu davam etdirməyi, ermənilərdən qisas almağı özünə müqəddəs borc bildi.

Mən bu yazıya heç kimdən, heç nədən xəbərim olmadan Şəmistanla başladım. Araşdırmalar apararkən şahidi oldum ki, Qaraxıdır kəndi igidlər diyarıdır. O kəndin anaları sizin kimi aslanlar doğub. Əmin oldum ki, bizim doğma kəndimiz igidlərimizin sayəsində bir alınmaz qaladır. Quş quşluğuyla o kəndin üstündən uçmağa cəsarət etməz. Halal olsun sizə mənim igid qardaşlarım: Şəmistanlarım, Səmədlərim, Rəhimlərim, Səbihilərim, Zülfüqarlarım, Raqublarım, Arazlarım. Siz bizim qürur yerimiz, gənclərin and yerisiniz".

Dayım qızı Müsabə xanımla danışarkən, nə var, nə yox edərkən (o, Şəmistangilin qonşusudur) mənə dedi ki, Əminə Şə-

mistansız günlərini çox ağır keçirir. Şəminin dərdi onu dəli-divanə edib.

Bir müddət bundan əvvəl İlyas oturub Şəmistana şeir yazırmış, birdən qulağına Şəmistanın səsi gəlir. O, əlində qələm, dəftər qapıya tərəf tələsə-tələsə: "Gəldim, Şəmi!"- deyib gedərkən ayağı burxulub yıxılır və qolu sınır. Biz bu xəbəri eşidib ona dəyməyə getdik. Bizi görüb kövrələ-kövrələ, gözlərindən yaş süzülə-süzülə: "Yıxılıb qolumun sınmağına pis olmuram. Balamın səsinə səs verə bilmədiyimə, ona həsr etdiyim şeirin də ömrü öz ömrü kimi yarımçıq qaldığına yanıram, göynəyirəm. Nə ağır imiş bala dərdi, dözə bilmirik yaşaya bilmirik. Dərmansız dərdə düşmüşük", - dedi.

***

## ƏMİNƏ XANIMIN TƏŞƏKKÜRÜ

Mən Şəmistanımı sevənlərə, bizim ağır itkimizə qəlbən yananlara, bu sağalmaz dərdimizə yaxından şərik olanlara, bu günə qədər bizimlə yorulmadan, usanmadan çiyin-çiyinə addımlayanlara, Şəmistanı mənə əvəz etməyə çalışan doğmalarıma, müəllim kollektivinə, sadıq dostlarına, qonşulara, uzaq yolu yaxın hesab edib balamızın ziyarətinə gələn bütün insanlara, gedəcəyimiz bu ağır yolda bizə mənəvi dəstək göstərən, dayaq olan əzizlərimizə dərin təşəkkürümü bildirirəm.

Allah hamınızdan razı olsun**!**

***

## ƏMİNƏ XANIMA DEYƏCƏKLƏRİM

Bacım, ən amansız xəstəliyin qarşısında belə həyatdan əl üzmək, ölümə acızanə əl verib, əllərini qaldırıb ölümə tabe olmaq olmaz! Həyatın ən ağır zülmü qarşısında gərək möhkəm dayanasan!... İnsan dərdin, xəstəliyin qarşısında bir balaca zəif olanda həyat onu bir əjdaha kimi udur. Nə olursa-olsun, gərək ayaq üstə dura biləsən. Həyatın əzabına qatlaşaraq istər sıxıntı olsun, istər problemlər, istərsə də dərd – möhkəm olmağı bacarmaq lazımdır. Düşünürəm ki, insan qəmə, kədərə, dərdə nə qədər yaxın getsə, dərd də ona daha çox yaxın olur. İnsan təkliyə, özünə qapanmaqla böyük dərdin qarşısında dura bilməz.

Əksinə, gərək dərddən qaçasan, cəmiyyət içərisində olasan! Unutma ki, dərdə gülsəniz, ona qalıb gələcəksiniz. Taleyin hökmdarı olacaqsınız.

Əzizim Əminə, İlyas! Gəlin dərdin-kədərin əlindən əyilməyək, qəddimiz sınmasın. Düşmənə bac verməyək...

Siz də bu amansız taleyə, yazıya, itkiyə rəğmən ayaqda durmağı bacaran ata, ana olun. Allaha olan sevgidən böyük sevgimiz olmasın! Allahını unutmayanı Allah da unutmaz!...

**Başını dik saxla, şəhid anası,**
**Şəhidin şərəflə, şanla can verib.**
**Şəhidlər ölümsüz, şəhidin qanı**
**İsa nəfəsitək yurda can verib.**

**Oğul itkisindən olsan da yorğun,**
**Nə çarəsiz görün, nə durma dalğın,**
**Könüllü cəbhəyə yollanan oğlun,**
**Canını yurduna ərməğan verib.**

**Sıxmasın qəlbini ələm, kədər, dərd,**
**Minlərlərin içindən seçilər bir fərd.**
**Düşün ki, Şəmistan, bu ərən, bu mərd,**
**Nəslinə, soyuna şərəf-şan verib.**

***

## SEVDİKLƏRİNİZƏ VAXTINDA DƏYƏR VERİN

Sadəcə üç günlük ömrü olan kəpənək çobanyastığına aşiq olur. Ancaq öləcəyinə saatlar qalanda "Səni sevirəm" deyir. Çobanyastığı ancaq " mən də" deyə bilir və kəpənək ölür... Onu sevdiyini niyə vaxtında deyə bilmədim deyə çobanyastığı üzüntüsündən xəstə olur. Ləçəklərini tökməyə başlayır. Tökdüyü hər ləçəkdə "Səni sevirəm" deyir və sonra ölür. Elə o gündən bəri sevdiyinə sevgisini söyləyə bilməyən hər kəs çobanyastığından soruşur: "Sevir, yoxsa sevmir?".

Mən çox arzu edərdim ki, hər kəs sevgisini zamanında, məqamında əzizlərinə, valideynlərinə, övladlarına, çevrəsinə deməyi, yaşamağı, yaşatmağı, bölüşməyi bacarsın.

*******

## HƏR ZAMAN ALLAHA GÜVƏN

Bir gün Hz.Mövlana evə gəlir və oğlunu üzgün görür. Oğlundan bunun səbəbini soruşduqda oğlu heç bir şey olmadığını deyir. Bu cavabdan sonra Hz.Mövlana evdən çölə çıxır, qapıdan asılmış canavar kürkünü əyninə geyinir və əllərini havaya açıb ulamağa başlayır. Oğlu atasının bu hərəkətini görərək qəhqəhə çəkib gülür. Bu zaman Hz.Mövlana oğluna deyir: "Dünya dərdləri də belədir. Canavar əslində qorxulu bir heyvandır. Ancaq sən o kürkün arxasında atanın olduğunu bildiyin üçün qorxmadın və güldün. Beləliklə, bütün dərdlərin arxasında da Rəbbimin olduğunu bil. Ona güvən və üzgün olma!"

***

## VAR OLAN ANCAQ SƏNSƏN, ALLAHIM!

Biz ney kimiyik. Bizdəki səs Səndəndir. Biz dağ kimiyik. Bizdəki yanğı səndəndir. Biz udub-uduzmaqda şahmat kimiyik. Ey bizim canımıza can olan Rəbbim! Biz kimik ki, sənə qarşı "biz" deyə ortaya çıxaq? Əslində, biz də, bizim varlığımız da bir "yox" dan ibarətdir. Allahım, fani olanı var kimi göstərən "həqiqi varlıq" Sənsən.

Görünüşdə biz hamınız aslanlarıq. Lakin bayraq üstündə çəkilmiş aslanlar. Onların zaman-zaman hərəkət və hücum etmələri küləyin təsiri ilədir.

Bayraqların üzərindəki aslanların hərəkət etmələri görünür, lakin onları hərəkət etdirən külək görünməz . O görünməyən əskik olmasın, heç bir zaman bizdən uzaq olmasın!

Allahım! Bizi hərəkət etdirən güc də, bizim var olmağımız da sənin lütfün, sənin ehsanındır. Varlığımızın hamısı səndədir. Sənin əsərindir, sənin icadındır.

Yox olan bizlərə varlıq ləzzətini sən daddırdın. Sonra var kimi görünən bizləri özünə aşiq etdin. Bizə verdiyin mənəvi varlıq ləzzətini, lütf etdiyin neməti geri alma! Ehsan etdiyin məna eşqinin qədəhini bizdən əsirgəmə!

Əgər o mənəvi ləzzəti, o feyzi əsirgəsən, onları səndən kim ala bilər? Necə ola bilər ki, rəsm "sən məni belə etdin" deyə mənasına qarşı sıxsın?

Allahım! Nə biz vardıq, nə də bizim diləyimiz vardı. Sənin lütfün bizim söylənməmiş sözlərimizi duyur, eşidir, bizi varlığa çağırır.

***Mövlana Cəlaləddin Rumi***

***

**ALLAHIM...**Bizim günahlarımızı bağışla, biz valideynlərə səbr, dözüm, iman ver. Torpağımızı, torpağımızın hər qarışını qoruyan əsgərlərimizi qoru. Şəhidlərimizə rəhmət, qazilərimizə şəfa ver. Amin!

**ALLAHIM!**

Azan ilə oyanan,
Səcdə ilə sənə yönələn,
Namaz ilə azadlığa çatan,
Dua ilə huzuruna gələn,
İmanı ilə cənnəti qazanan,
Qullarından eylə bizi!

Amin!

***SON***




**Əminə Qasım qızı Abdullayeva**

## GƏL.. SƏNİ BİR ÖMÜR BOYU GÖZLƏYƏCƏYİK (Anası Əminənin dilindən)

Sən gedəli günüm ay oldu, ayım il oldu. Sən gedəli aylar da, fəsillər də elə tez gəlib keçir ki.... Get-gedə hər şey dəyişir..

Gedən gəlir, gələn gedir... bircə sən gəlib çıxmırsan...Gedişinlə heç vaxt barışmadığım kimi, bir daha qayıtmayacağına da inanmağım gəlmir... İnsan qəribə məxluqdur: itirdiklərinin vurduğu yara həmişə təzəymiş kimi uzun illər bu itkiləri qəbul etmir. Allahın ona verdiyi ömür boyu nəyəsə ümid edir, gözləyir...Həmişə də ümid edir ki, günlərin bir günü itirdiyini mütləq tapacaq, uzun ayrılıqdan sonra göz görə-görə öz əliləriylə yola saldığı ciyərparası bir möcüzəymiş kimi qəfil qarşısına çıxacaq, gülə-gülə göz yaşına boğulan doğmalarına sarılaraq bu müddət ərzində harda olduğuna aydınlıq gətirəcək, onların gözlərini yolda qoymasına, yaşamaq əzabına, məşəqqətli günlərinə axır ki, son qoyacaq... Qayıdacaq... Mütləq qayıdacaq..

Axı sən bu qədər insafsız ola bilməzsən, oğlum, gedişin nə uzun çəkdi, de, niyə qayıtmırsan? Sənin bu qədər dönüklüyünə inanmaq olmur, Şəmistan...

Bax, sən gedəli hər şey dəyişib: vaxt, zaman da həminki deyil... Yaz gəlir, elə bil ağaclar tumurcuqlamır. Doğmalarının, əzizlərinin həsrətli gözləri hər yerdə səni arayır.

Payız gəlir... Sanki ağaclar da ürəyimiz ayağımızın altına düşürmüş kimi tökür yarpaqlarını... Yelkənsiz gəmi, susuz balıq, qanadsız quş necədirsə, biz də sənsiz eləyik, Şəmistan!...

Gəl, ananın gözlərini yollardan yığ, atanın ağrıyan ürəyinə bir əlac elə... Gəl, yanan ürəyimizin üstünə öz mübarək əllərinlə bir az su çilə... Gəl ki, gəlişinlə o sənli xoşbəxt çağlarımıza birgə qayıdaq... Gəl ki, yoxluğunu heç nəylə doldura bilməyəcəyimiz boşluğu doldur... Gəl... Səni bir ömür gözləyəcəyik... Gəl, sənə çox ehtiyacım var...

**İgidim, yolumu gözlə hər zaman,**
**Gözlə balam, qurban olmağa gəlləm.**
**Məzarın üstündə şimşəktək çaxıb,**
**Buludtək boşalıb dolmağa gəlləm.**

**Əminənin bəxti gülən olmadı,**
**Dərdinin dərmanın bilən olmadı,**
**Demə həsrətindən ölən olmadı,**
**Tezliklə yanında qalmağa gəlləm.**



***İlyas Xəlil oğlu Əzizov***

# *Süzülür gözümdən həsrət damcısı*

**(İlyas Əzizovun oğluna həsr etdiyi şeirlər)**

## BORCLUYUQ

Yurdun ana görən balam,
Yolunda can verən balam,
Uğrumuzda ölən balam,
Biz sənə bir can borcluyuq.

Verəmmədim səsinə hay,
Sarayımdam uçdu saray,
Söndü günəş, qaraldı ay,
Biz sənə bir can borcluyuq.

Dünya başıma dar oldu,
Ömür gülşənim saraldı,
Səsləməkdən dil yoruldu,
Biz sənə bir can borcluyuq.

Ahım göyləri yandırır,
Naləm xalqı usandırır,
Ölüm də məndən yan durur,
Biz sənə bir can borcluyuq.

## ŞƏHİD OLDUM
***(Şəmistanın dilindən)***

Vətənimçün, sizin üçün şəhid oldum,
Mən öldüm ki, mənə görə fəxr eləyin.
Yada salın, daim məni yad eləyin,
Amma bilin, kişi kimi şəhid oldum.

Mən ömrümü sizə verdim, siz yaşayın,
Məğrur durun, mənə görə ağlamayın.
Ana, sizi tənha qoydum, bağışlayın,
Amma bilin, kişi kimi şəhid oldum.

Çox çətindir bu ayrılıq, mən bilirəm,
Mən də sizsiz sızlayıram, kövrəlirəm.
Mən görünə bilməsəm də gözünüzə,
Amma bilin, kişi kimi şəhid oldum.

## VƏTƏN SİZƏ ƏMANƏTDİR...

Məzarından əl eləyir,
Atam, anam, siz sağ olun!
Mədən nigaran qalmayın:
Cismim vətən torpağında,
Ruhum vətən göylərində,
Mən igidlər məclisində,
Ərənlərin yanındayam.
Mən Mehdinin, mən Həzinin,
Mən Fəridin, Mübarizin yanındayam.
Minlərlə cənnət sakini,
Canın xalqa fəda etmiş
Şəhidlərin yanındayam.

Siz sağ olun, atam, anam!
Başı uşa, məğrur durun,
Qəddinizi qəm əyməsin.
Allaha asi olamayın,
Dilinizdə qəm göyərməsin.

Siz sağ olun, atam, anam!
Şəhadət şərbətin içmək,
Ölümsüz bir səadətdir.
Biz vətənin qurbanları:
Vətən sizə əmanətdir!

## YUXUMA GİRİRSƏN

Arabir yuxuma gəlirsən, balam,
Gendən əl eləyib qaçırsan məndən.
Elə istəyirəm bağrıma basam,
Məndən arxayın ol, deyirsən gendən.

Qaçıb uzaqlaşma, boyun qurbanı,
Bircə yol yaxın gəl, dərdimi dinlə.
Sənsizlik sinəmdə sağalmaz yara,
Söylə, bəs dərdimi bölüm kiminlə?

Halıma bircə yol duy, nə olar ki?
Yaxın gəl, insaf et, gəl qaçma məndən.
Əlini əlimə ver, ciyərparam,
Ağrılar yox ola, bəlkə, sinəmdən.

Gəl oğlum, gəl öpüm, bircə dəfə gəl,
Gəl basım bağrıma, oxşayım səni.
Mənim gəlməyimi istərsən əgər,
Onda ölüm gəlim, mən görüm səni.

## İNDİ

Əlim-qolum işə yatmır,
Suyu qurumuş çayam indi.
Xöşbəxt ömrüm talan oldu,
Bədbəxtlərə tayam indi.

Zalım məzlum haqqın yeyir,
Haqlı baxıb gözün döyür,
Haqsız haqlıya çor deyir,
Haqsızlara tayam indi.

Rəbbim, nədən mənə qızdın,
Nədən növraqımı pozdun?
Nədən bəxtim qara yazdın?
Bəxtsizlərə tayam indi.

## GƏLDİ

Bağlanıbdır əlim-qolum,
Tarmardır ömür yolum,
Ya Rəb, mənə sən səbr ver,
İnsan kimi insan olum.

Dərd içində yaşayıram,
İçimdə qəm daşıyıram,
Ya Rəb, mənə sən səbr ver,
İnsan kimi insan olum.

Nə idi ki, günahımız,
Canlı gedən cansız gəldi.
Eşitmədik vəsiyyətin,
Onnan gedən onsuz gəldi.

Gözümüzdə hey acı yaş,
Köksümüzdə dölünməz daş,
Uzaqlaşdı bacı-qardaş,
Canlı balam cansız gəldi.

## DÖZƏMMİRƏM

Boynu bükük gəzirəm mən,
Narazıyam qismətimdən,
Asılı deyil bu özümdən,
Bu həsrətə dözəmmirəm.

Bitib səbrim, bitib tabım,
Bağlanıb səbr kitabım,
Yol ver, ya Rəb, səbr tapım,
Bu həsrətə dözəmmirəm.

Sevinclərim itib, batıb,
Dərd ömrümə zəhər qatıb,
Arzularım sona çatıb,
Bu həsrətə dözəmmirəm.

Daş dəyməyən yara bilməz,
Bala dağın bilə bilməz,
Nə sevinib gülə bilməz,
Bu həsrətə dözəmmirəm.

## QIŞA DÖNDÜN

Gözlərimdə yaşa döndün,
İnsan idin, daşa döndün.
Danışmıram, lal baxırsan,
Baharımdın, qışa döndün.

Sən məni yad etməliydin,
Baş daşımı öpməliydin,
Sən mənim yox, əziz balam,
Mən çiynində getməliydim.

Ürəyimdə sözüm qaldı,
Yandım, yandım, közüm qaldı.
Həsrət məni dərdə saldı,
Bağım, bağçam, gülüm soldu.

## DARIXMIŞIQ

Əllərinin ətri qalıb əllərimdə,
Ayağının izi qalıb çöllərimdə,
Səsin qalıb, ətrin qalıb ev-eşikdə,
Səndən ötrü göynəyirik, darıxırıq.

Sən hərdən gəl oxşa bizi,
Gəl şad elə qəlbimizi,
Açaq sənə ürəyimizi,
Səndən ötrü darıxmışıq.

Rəbbimizə yalvarırıq,
Ya Rəb, bizə  sən səbr ver.
Şükür sənə, minnətdarıq,
Balamızçün darıxmışq.

Həm yaratdın, həm də aldın,
Həm güldürdün, həm ağlatdın,
Gözümdə yaş çağlatdın,
Şəmistançün darıxmışıq.

## DİLƏ MƏNDƏN

Bir deyərdik qayıdıb gəl,
Ata-bala qucaqlaşaq.
Ürəyimə gəlsin təpər,
Yenə qayıt vidalaşaq.

Deyəcəyim çoxdu sənə,
Sənsiz yuvan boşdu yenə.
Əllərini uzat mənə,
Ata-oğul salamlaşaq.

Gecələri yatammıram,
Yuxum qaçır gözlərimdən.
Həsrətindən göynəyirəm,
Yaş süzülür hey üzümdən.

Görün balam, görüm səni,
Gələndə də baxma gendən.
Qoy bağrıma basım səni,
Nə istəsən dilə məndən.

## UÇUB GETDİ

Gələcəyim, güvənc yerim,
Söykəndiyim uca dağım,
Qədir bilən şiraslanım,
Birdən-birə qaçıb getdi.

Son beşiyim, canım, gözüm,
Həm dayağım, həm də özüm,
Şimşək gözlü o qartalım,
Birdən- birə uçub getdi.

Gözüm qalb səmalarda,
Gözüm qalıb uzaqlarda.
Gözləyirəm bəlkə bir gün,
Uçar gələr o qartalım.

Yaşamağa yox gümanım,
Sənsizliyə yoxdu tabım,
Qartal kimi Şəmistanım,
Haqq qapısın açıb getdi.

# DİL AÇAN XATİRƏLƏR

*Xatirələr görüşlərin arasında çay,*
*Adlayırıq körpüsündən o yan, bu yana.*
*Xatirələr xətri ucuz insandan qaçar,*
*Xatirələr insanlıqda dönər insana.*

**Məmməd Araz**





## NECƏ DİLİM GƏLƏR SƏN YOXSAN DEYİM

Şəmistan əsilli-köklü, seçılıb sayılan bir nəslin nümayəndəsidir. Ata-babaları, əmiləri haqq yolunda, vətən uğrunda canından keçən, qorxmaz, cəsarətli, döyüşkən insanlar olublar. Tayfamızın qürurverici nümayəndələrindən olan Şəmistana babalarından miras qalan vətən, yurd sevgisi, kişilik, qeyrət onu şəhidlik zirvəsinə qədər aparıb çıxartdı.

İlyas mənim doğma əmim oğlu, Şəmistan isə əmim nəvəsi, doğmalarım, əzizlərimdir. 2020-ci ilin oktyabr ayının 15-də eşitdiyim o qəfil, müdhiş xəbərin təsirindən bu gün də qurtula bilməmişəm. Şəmistanın nurlu, bir qədər də utancaq siması hər dəfə gözlərimin önündə canlanada xəyal məni qanadlarına alaraq uzaq illərə aparır, İlyasın gənclik, Şəmistanın uşqlıq illəri yadıma düşür. “Axı niyə belə oldu? Şəmistan və onun kimi minlərlə cavanlar niyə dünyadan kam almadı?” sualları qulaqlarımı dəlır, zehniyyətimi məşğul edərək mənə rahatlıq vermir. Suallara cavab tapmaqda çətinlik çəkir, müharibəyə, müharibəni törədənlərə, torpaqlarımıza göz dikən düşmənlərimizə və onların havadarlarına nifrət etməkdən başqa çarəm qalmır.

İlyasgilin ailəsi çox sadə, zəhmətsevər, vətənpərvər, qohumcanlı, qonum-qonşu yanında xətir-izzət sahibi, xeyirə-şərə yarayan nümunəvi və halal bir ailədir. Belə bir ailədə dünyaya göz açan, evdə səmimiyyət, qarşılıqlı hörmət görüb alın təri ilə

qazanılan halal şörəklə böyüyüb ərsəyə gələn Şəmistanda ən çox sevdiyim və dəyərləndirdiyim cəhətlər onun böyük-kiçik yeri bilməsi, özündən böyüklərin haqq sözünə itaəti, özündən kiçiklərə şəfqəti, qohum-əqrəbaya, valideynlərinə hörməti, vətəninə, torpağına, bayrağına sonsuz sevgisi və məhəbbəti idi.

Doğru danışmaq, hərəkətlərində əndazə gözləmək, əsəbiləşəndə belə hisslərini cilovlayıb təmkinli olmaq, lakin sözü kişi kimi, mərd-mərdanə üzə demək Şəmistana qanla, genlə ötürülmüş ali keyfiyyətlərdən idi. Uşaqlığı Birinci Qarabağ müharibəsi və atəşkəs dövrünə düşən, nəslimizdən bu savaşda şəhid və qazi olanlar barədə eşitdikləri, anası Əminə bacının orta ixtisas təhsili aldığı Şuşa şəhəri haqqında söylədikləri onun beynində silinməz izlər buraxmış, onu bir Qarabağ sevdalısı etmişdi. Təsadüf elə gətirmişdi ki, o, həqiqi hərbi xidmətini də Qarabağın dilbər guşələrindən biri olan Füzuli rayonunda keçirmiş, mənfur düşmənin murdar sifəti, insanlığa yaraşmayan fitnəkar əməlləri ilə də burada tanış olmuşdu.

İkinci Qarabağ savaşı başlananda məhz sadaladığım bu cəhətlər onu vətən uğrunda gedən müharibədə iştirak etməyə, torpaqlarımızı yağı düşmən tapdağından azad etməyə sövq etdi. Şəmistan qeyrətli oğul idi. Vətənpərvər bir gənc kimi böyüdü, vətən yolunda qəhrəmancasına şəhid oldu. Biz, təbii ki, onunla fəxr edir, qürur duyuruq.

Şəmistan həm ailədən, doğmalardan, həm də nəsildən gedən ağır bir itki oldu. Bu itki ilə barışmaq doğmaları, xüsusilə valideynləri üçün ağırdır, qəbulolunmazdır, məşəqqətdir. Sadəcə, bir təsəllimiz var: "Vətən uğrunda şəhid olmaq əbədi yaşamaqdır".

Şəmistan şəhadət şərbətini nuş edərək canından artıq sevdiyi vətən uğrunda şəhid oldu, şəhidlik zirvəsinə, ali məqama yüksəldi, cismi doğulduğu torpağa, ruhu cənnət şəhidlərinin ruhuna qovuşdu.

Bir əmi olaraq valideynlərinə, doğmalarına Allahdan səbir diləyirəm. Balamıza: "Məkanının cənnət olsun",- deyirəm. Boynumuza böyük bir haqq qoyub getdin, bala. Haqqını bizə halal elə. Səni hər zaman xatırlayacaq və heç zaman unutmayacağıq.

**Necə dilim gələr ?**

**Elə bil harasa çıxıb getmisən,**
**Hardansa indicə qayıdacaqsan.**
**Sən qarın üstündə gül tək bitmisən,**
**İndicə baharı oyadacaqsan.**

**Həmişə yerin var, toyda, mağarda,**
**Xəyalın hər yerdə gerçəkdir mənə.**
**Harda gözəllik var, sən varsan orda,**
**Şəmistan, bu yoxluq yaraşmır sənə.**

**Necə dilim gələr sən yoxsan deyəm,**
**Yoxsansa, bəs onda biz necə varıq?**
**Səni görməyənə kor deyərəm mən,**
**Səni duymayana nə deyim ki, mən ?!**

**Çoxları köç etdi fani dünyadan,**
**Her şey yalan oldu ölümdən başqa.**
**Saralıb-soldurdu hər şeyi dövran,**
**Bir sənin yoxluğun yalandı, yalan.**

**Elə bil harasa çıxıb getmisən,**
**Hardansa indicə qayıdacaqsan.**
**Sən qarın üstündə gül tək bitmisən,**
**İndicə baharı oyadacaqsan.**

***Sabir İbrahimov***
*əmisi*



## ARZUSU ÜRƏYİNDƏ QALAN ŞƏHİD

Onun uşaqlıq arzusu hərbçi olmaq idi. Onu da vurğulayım ki, istədiyi qız var idi. Nişanlamağa hazırlaşırdıq. Amma o arzusu ürəyində qaldı, vətəni üçün hər şeydən keçdi. Hətta sevgisindən də. Bunları demək bizə ağırdı. Allah hər bir şəhidimizə rəhmət eləsin. Şəmistan şox ağır təbiətli, vətənpərvər uşaq idi. Həmişə ad günləri olanda deyərdi, xala, mənə silah al, gedib torpaqlarımızı ermənilərdən alacağam. O Tərtəri, Ağdamı, Laçını və digər işğal altında olan torpaqlarımızı görməsə də, onları azad etmək, oralarda olmaq arzusi ilə aşlışıb-yanırdı. Ona çağırış gələn gün sevincinin həddi-hüdudu yox idi. Yola çıxıb hamıya deyirdi ki, mənə çağırış gəlib. Torpaqlarımızı azad etməyə gedirəm. Gedəndə də gülürdü. Döyüşə getdiyini bilə-bilə deyirdi ki, mən şəhid olmağa gedirəm. Anasına dedi ki, ana bilirəm, sənin üçün çətin olacaq, mən tək oğlunam. Amma bil ki, bütün Azərbaycan oğulları sənin balan, sənin oğlundur.

Şəmistan getdi. Döyüşlərdən də yaxşı sorağı gəlirdi. Nə etmək, qisməti belə imiş. Vətən uğrunda şəhidlik zirvəsinə ucalaraq başımızı uca elədi. Amma heyif ki, torpaqlarımızın mənfur düşməndən azad olmasını görmək ona qismət olmadı.

Bütün şəhid analarının qarşısında baş əyirəm. Allah Şəmistana da, bütün şəhidlərimizə də qəni-qəni rəhmət eəsin.

***Elmira Veysəlova***
***xalası***



## O, VƏTƏNPƏRVƏR BİR GƏNC İDİ..

Şəmistan İlyas oğlu Əzizov oxuduğu illər ərzində nizam-intizamlı şagird kimi başqalarından fərqlənirdi. Sakit təbiətli olsa da, ictimai işlərə böyük həvəsi vardı. Yaradıcılıq qabiliyyətinin olması, məktəb və rayon tədbirlərində fəal iştirakı onu həm məktəbimizin sevimlisi etmiş, həm də qonşu məktəblərdə də tanıtmışdı. Vətənpərvər şagird idi. Kəndimizin şəhidlərilə bağlı tədbirlərində, anım günlərində öndə gedən şagirdlərdən biri idi. Təəssüf ki, onu tez itirdik. Qəlbi gür şəlaləyə, ümmana bənzəyən Şəmistanın istedadını kəndimiz ölümündən sonra bildi. Yaşasaydı çox işlər görərdi. Qəlbinə sığmayan arzuları ilə bir yerdə ana yurdu Qaraxıdırda dəfn olundu. Allah ailəsinə səbir versin. Qəbri nurla dolsun.

***Solmaz Hacağa qızı Hacıyeva***
***Qaraxıdır kənd ümumi orta məktəbinin direktoru***



## ONUNLA QÜRUR DUYURAM

2000-ci ilin sentyabrında Z.Zülfüqarov adına Qaraxıdır kənd tam orta məktəbinin birinci sinfinə 36 nəfər şagird qəbul olundu. Onlar ayrı-ayrı ailələrdən gəlsələr də, sanki biri-birilərindən seçilmir, az qala eyni boybuxunda idilər. Hamısı şən, kövrək uşaqlar idi və oxumaq, öyrənmək arzusu ilə məktəbə qədəm qoymuşdular. Bu uşaqlar valideynlərinin ümid işığı, bizim isə gələcəyimiz idilər.

Onlardan biri də çəlimsiz, arıqvəz Şəmistan, anasının dili ilə desək "Şəmi" idi. Balaca Şəminin böyük ürəyi vardı. Çox istiqanlı, yaşıdları ilə mehriban, diqqətli, yaradıcı bir uşaq idi. Vətən haqqında, vətənpərvərlik və ana mövzusunda şeirlər söyləməyi çox sevərdi. Məktəbin bayram tədbirlərində, sinifdənxaric işlərdə də fəal iştirak edirdi.

Onun vətənpərvər olmağı uşaq yaşlarından qabarıq şəkildə hiss olunurdu. İbtidai siniflərdə "Qarabağ haqqında dosta məktub" mövzusunda inşa yazısında Qarabağın gözəlliyini, torpağımızın tezliklə azad olacağını xüsusi vurğulayırdı.

Qəhrəmanlar anadan qəhrəman doğulmur. Onları vətən sevgisi, ana-bacı qeyrəti, düşmənə nifrət hissi qəhrəman edir.

Məktəb illərində bizim üçün adi görünən bir şagird, sən demə, vətənimizin bütövlüyü uğrunda döyüşə atılan könüllülər-

dən biri olacaq, şəhidlik zirvəsinə yüksəlib canından çox seçdiyi vətən torpağına qarışacaqmış.

Şəmistan və Şəmistan kimi şəhid olmuş igidlərimiz daima bizim qəlbimizdə yaşayacaq.

Bütün şəhid analarının qarşısında baş əyirəm. Onun ilk müəllimi olduğum üçün qurur hissi keçirirəm.

***Səkinə Nəsirova***
***ilk sinif müəllimi***



## XÜSUSİ QABİLİYYƏTƏ MALİK GƏNC

Bəzən insanlar gələcək talelərini öz xarakterləri, davranışları ilə bizə agah edə bilirlər. Amma bizlər bəzən bunu görmür və ya da özümüzü görməməzliyə vururuq. Sosial problemlər, ailə, iş sıxıntıları bizə ətraf aləmi yaxşı dərk etməyə, müəyyən qərar və ya nəticələr çıxarmağa mane olur. Sonralar fikirləşir və əmin olursan ki, həqiqətən, insan öz hərəkətləri ilə sanki bizlərə nəyisə bildirmək, siqnal vermək istəyir. Şəmistan şəhid olandan sonra biz onun bütün hərəkətlərində bu sıqnalları açıq-aydın seçdik.

Şəmistan fiziki cəhətdən cılız oğlan olmasına baxmayaraq, sözün əsl mənasında böyük ürəyə sahib idi.

O, idmanı, hərbi dərsləri çox sevirdi. Tədbirlərdə, bayram şənliklərində fəal iştirak edirdi. Anası Əminə xanım kənd klubunda işlədiyi üçün biz bəzən böyük həcmli tədbirləri, o cümlədən, Xocalı faciəsinin anım tədbirlərini klubda keçirirdik və Əminə xanım da bizə köməklik göstərirdi.

Mən məktəbin təşkilatçısı olduğum üçun belə tədbirləri şəxsən özüm təşkil edirdim. Tədbirləri keçirən zaman Şəmistan xüsusi canfəşanlıqla bizə, anasına köməklik göstərir, video çəkilişlər aparırdı. Fikir verirdim ki, o, kədərlə, dərin hüzünlə bu tədbirləri seyr edir, qeydlər götürürdü. Mən onun yoldaşlarından da eşidirdim ki, Şəmistan ermənilərin Xocalıda törətdikləri vəhşiliklərə, haqsızlıqlara biganə qala bilmir, erməni cəlladlarından hökmən bunun qisasını alacağını söyləyir.

Əvvəldə qeyd etdiyim kimi, idmana xüsusi marağı var idi. 2010-2012-ci illərdə məktəbimizə VIII qrup sülh könüllüsü (Amerika sülh korpusunun) gəldi və 2 il ərzində bizimlə əməkdaşlıq etdi. Fürsətdən istifadə edən Şəmistan ingilis dilini öyrənməklə yanaşı, həm də Amerika mədəniyyətini, adət ənənələrini təbliğ edirdi. O, məktəbin 9,10,11 sinif şagirdlərindən ibarət beysbol komandası təşkil etmişdi və özü də komandanın ən fəal üzvlərindən biri idi. Respublikanın bir neçə şəhərində sülh korpusunun dəstəyi ilə keçirilən yarışlarda iştirak edən kəndimizin komandası həmişə fərqlənmiş və fəxri yerlər tutmuşdu.

Şəmistan xüsusi qabiliyyətə malik gənc idi. Çox təəssüf ki, onun çəkdiyi rəsmlər, yazdığı şeirlər bütöv şəkildə əlimizdə yoxdur. Amma onun kompüter, telefon kimi müasir texnologiyalara xüsusi marağı və bacarığı hamımıza məlum idi. O, çox gözəl video çarxlar hazırlayar, klip şəklində maraqlı şəkillər, montajlar edirdi.

Mən şagirdlərlə söhbət apararkən deyirəm ki, biz müəllimlərin aylarla, illərlə xüsusi tədbirlər, divar qəzetləri, söhbətlər, şeirlər vasitəsilə aşılamağa çalışdığımız vətənpərvərlik, qoçaqlıq, igidlik, vətənə, torpağa sonsuz sevgi hisslərini Şəmistan, Səməd, Rəhim kimi məzunlarımız bir anın içərisində, həyatları hesabına bizlərə öyrətdilər. Öz əməlləri ilə vətənə olan sevgilərini sübut etdilər. Məhz bu əməllər sayəsində 30 illik həsrət bitdi!

Allah rəhmət eləsin, məzarı daima işıqlı olsun!

***Rəxşəndə Kazım qızı Həmidova***
***məktəbin tərbiyə işləri üzrə direktor müavini***

# ÜRƏKLƏRDƏ YAŞAYAN ŞAGİRDİM



Şəmistan İlyas oğlu Əzizov! İndi onu tanıyanların ürəyində əbədi yurd-yuva salan bu adı bir zamanlar sinif jurnalının səhifələrinə yazırdım. 5-ci sinifdən 11-ci sinfi bitirənə kimi Şəmistanın oxuduğu sinifin rəhbəri olmuş, bu illər ərzində onun təvazökar və vətənpərvər bir gənc kimi formalaşmasına sahidlik etmiş, şagirdim olaraq onunla qürur duymuşam. Şəmistan sinifdəki 22 nəfər şagirddən cüssəcə ən çəlimsizi olsa da, dönməz xarakteri, cəsarəti, sözübütövlüyü, çətin durumda olan yoldaşlarına yardım əli uzatması ilə hamıdan seçilirdi. Çox saf, mehriban, ağırtəbiətli, yumşaqqəlbli insan idi. Hamı ilə dil tapmağı, yola getməyi, ünsiyyət qurmağı bacarırdı. Şəmistanın xarakterində yaşına uyğun olmayan bir uzaqgörənlik, özünəməxsusluq var idi və bunlar onu yaşıdlarından fərqləndirirdi. Yadımdadır ki, son zəngə hazırlıq gedən ərəfədə tədbirdə söyləmək üçün şagirdlərə şeir verirdim. Şəmistan mənə yaxınlaşıb dedi: "Müəllim, icazə versəydiniz, tədbirdə deyəcəyim şeiri özüm yazardım". Razılaşdıq. Doğrudan da Şəmistanın həmin tədbirdə söylədiyi şeir hamını heyrətləndirdi. Şerin mətnini unutsam da, məzmunu indiyə kimi yadımdadır. Şeirdə bir gəncin əsgər kimi xidmətindən, vətənə olan borcunu verəcəyindən söz açılırdı.

Düşünürəm ki, vətən sevgisi, vətənə olan bağlılıq, vətəndaş qeyrəti ilə bu borcun dərk edilməsi Şəmistanla bir doğulmuşdu. Bu hiss onun canında, genində, qanında idi.

Vətəninə, torpağına bağlılığın məntiqi nəticəsi idi ki, 27 sentyabr 2020-ci ildə başlayan İkinci Qarabağ müharibəsində Şəmistan gözünü qırpmadan könüllü olaraq müharibə bölgəsinə, döyüşən ordu sıralarına yollandı...

Oktyabrın 15-də kəndimiz ikinci dəfə matəm libası geyindi. Şəmistanın şəhidlik xəbəri bütün kəndi sarsıtdı. Hamı: analar, atalar, bütün Şəmistansevərlər onun üçün acı göz yaşı axıdırdı. Yeganə övladının acısı ilə qovrulan Əminə ana əllərini göyə qaldıraraq: “Ya Rəbbim, belə acını yaşamaq bir daha heç bir anaya qismət olmasın”,- deyirdi.

Şəmistanın döyüş yoldaşlarının dediyinə görə, o, heç bir əmr almadan əsgərlərimizə göz açmağa imkan verməyən düşmən topunu susdurmağa getmiş, bu işi ləyaqətlə yerinə yetirdikdən sonra ağır yaralanmışdır. Ən ağır məqamda özünü yox, yoldaşlarını düşünməsi onu göstərir ki, qəhrəmanlıq Şəmistanın xislətində olmuş, onunla bir doğulmuşdur. Düşünürük ki, belə də olmalı imiş. Çünki o, Əminə ananın südünü əmmiş, köklü-köməcli bir nəslin övladı idi.

44 günlük Qarabağ savaşı müzəffər ordumuzun qələbəsi ilə başa çatdı. 30 illik vətən həsrətinə son qoyuldu. Bu qələbədə Şəmistanın da payı oldu.

Şəmistan sevdiyi vətənin mənfur düşməndən təmizlənməsi yolunda canını, qanını qurban verdi. Ən ali mərtəbəyə, şəhidlik zirvəsinə yüksəldi. İgid balamız adını ürəklərə, qəlblərə əbədi yazdı. Bu gün bütün şəhidlərimiz kimi, Şəmistanın da ru-

hu rahatdır. Çünki canları-qanları bahasına azad olunan vətən torpaqlarında üçrəngli bayrağımız dalğalanır.

Rahat uyu əziz şagirdimiz, əziz balamız, qəhrəman vətən oğlu! Allah sənə rəhmət eləsin! Qəbrin nurla dolsun! Allah atana, anana, səni sevənlərə səbir versin!

***Qərənfil Hacıyeva***
***Qaraxıdır kənd tam orta məktəbin***
***dil-ədəbiyyat müəllimi***



## O, HƏRBÇİ OLMAQ İSTƏYİRDİ

Mənim də Şəmistan haqqında deyəcəklərim var. Şəhid Şəmistan haqqında düşünəndə xəyal məni uzaqlara, ona dərs dediyim 2010-2011-ci illərə aparır. Onlara hərbi hazırlıqdan dərs deyirdim. Yaşıdlarından fərqli olaraq, Şəmistanda hərb sənətinə böyük maraq var idi. Dərs məşğələləri bitəndən sonra, bəzən fasilələrdə də o mənə hərb sənətinə, hərbçi peşəsinə dair suallar verirdi. Orta məktəbdə oxuduğu illərdə hərb elminin sirlərini öyrənməyə çalışır, gələcəkdə hərbçi olacağını planlaşdırırdı.

İlk dəfə ona çağırış vərəqəsi gələndə mənə yaxınlaşıb sevincək halda çağırış vərəqəsini göstərdi. Orda nə edəcəyi, özünü necə aparacağı barədə məsləhət istədi. Səhv etmirəmsə, 2012-ci ilin yanvarında o, hərbi xidmətə yollandı.

Füzuli bölgəsində hərbi xidmətdə olduğu dövrdə düşmən təxribatı nəticəsində baş vermiş döyüşlərdə iştirak edən Şəmistan döyüşlərin birində ağır yaralansa da, yaralandığını hərbi xidməti başa vurub evlərinə qayıdana kimi ata-anasına bildirməmişdi.

O, xarici görüşünə görə çəlimsiz olsa da, çox böyük ürək sahibi idi.

Məlumdur ki, Prezdent cənab İlham Əliyev 2020-ci il sentyabrın 21-də qismən səfərbərliklə bağlı sərəncam imzaladı. Şəmistan çox narahat idi. Düşünürdü ki, birdən ona çağırış vərəqəsi gəlməz. Yanıma gəlib deyirdi: "Müəllim, mən də getmək istəyirəm. Niyə məni çağırmırlar?".

Bəlkə də onun arzularından biri şəhid olmaq idi. O, istəyinə çatdı. Şəhidlik zirvəsinə ucaldı. Hamımız onunla fəxr edirik. Onun əziz xatirəsi həmişə ürəyimizdə yaşayacaq.

Allah bütün şəhidlərimizə rəhmət eləsin. Amin!

***Ömər Şərəfəddin oğlu Hacıyev***
***Göyçay rayonu Qaraxıdır kənd tam orta məktəbin hərbi rəhbəri***



## O, MƏKTƏBİMİZİN SEVİMLİSİ İDİ

Şəhid Şəmistan haqqında mən də öz fikirlərimi bölüşmək istərdim. Şəmistan anasının tək övladı olsa da, vətənin dar günündə torpağımızı yağı düşmənlərdən azad etmək üçün könüllü olaraq döyüşə yollandı.

Məktəbimizin nümunəvi məzunlarından olan Şəmistan haqqında Qaraxıdır kəndində heç kim mənfi fikir söyləyə bilməz. Çünki o, heç kimin qəlbinə toxunmazdı. Allah onun alnına ən yüksək olan şəhidlik zirvəsini yazdı. 27 sentyabrda başlayan döyüşlərdə igid oğullarımız 1990-cı illərdə itirilən torpaqları geri qaytarmaq üçün döyüşə yollandılar. Şəmistan çox qorxmaz, cəsarətli oğul idi. Şəmistan haqqında çox danışmaq olar. O həm mənim, həm də bütün müəllim kollektivinin sevimlisi idi. Onun kimi oğulların sayəsində biz itirilmiş torpaqlarımızı mənfur düşməndən azad edə bildik.

Şəmistan hər zaman Qaraxıdır kənd sakinlərinin qəlbində yaşayacaq.

Şəmistan haqqında nə qədər danışsaq da, ömür və döyüş yolu barədə əsərlər yazılsa da, mən deyərdim ki, azdır.

Düşəncəlirimi Z.Yaqubun şerindən aşağıdakı bəndlərlə tamamlamaq istəyirəm.

**Qocaman palıdlar çox gözəl bilir,**
**Hər şimşək bir dağın faciəsidir.**
**Açılmaz çiçəyi, ballanaz balı,**
**Qırılmaq budağın faciəsidir.**

**Birinin yerində beşi yoxdursa,**
**Gülləyə verməyə döşü yoxdursa,**
**Yolunda ölməyə kişi yoxdursa,**
**Vətənin, torpağın faciəsidir.**

Allah şəhidlərimizin hər birinə rəhmət etsin. Amin! Məkanın cənnət olsun, Şəmistan.

***Hacıbala Quliyev***
***Qaraxıdır kənd tam orta məktəbinin***
***idman müəllimi***



## ŞƏMİSTAN AND YERİMİZDİR

O bizim ən yaxın, əziz qonşularımız olan İlyasın, Əminənin cəsur, imanlı, xeyirxah, sevimli balası idi. Şəmistan çox təmiz, nümunəvi ailədə tərbiyə almış, el-obada ad-san sahibi olan bir nəslin adına layiq xeyirxah, sözübütöv, namuslu bir gənc kimi yetişmişdi. Səmimiyyəti və istiqanlılığı ilə seçilən Şəmistan qohum-əqrəbaya, qonum-qonşuya yarımağa can atan, minnətsiz yaxşılıqlar etməkdən zövq alan, ailəsinə, xüsusilə anasına çox bağlı olan bir övlad idi. Hər bayramda anasının xətrini əziz tutar, ona kiçik də olsa, hədiyyələr alar, sevincinə sevinc qoşmağı özünə mənəvi borc hesab edərdi.

İlk baxışda zəif, çəlimsiz görünən Şəmistan uşaq yaşıdlarından vətənə, torpağa bağlılğı və cəsurluğu ilə seçilər, vətən haqqında şeirlər əzbərləyər, mahnılar oxuyardı. Rəssamlığı vardı və döyüşkənlik ruhu çəkdiyi rəsmlərdən də açıq-aydın görünərdi.

Şəmi və onun yaşıdları Vətənin yaralı, ağır günlərində doğulduqlarından, onlarda Vətən eşqi, torpaqlarımızı azğzın düşməndən geri almaq əzmi çox güclü idi. Hesab edirəm ki, həmin illərin uşaqları gözlərini açandan bu ruhda köklənmiş, vətən məhəbbəti onların ürəklərində əbədi yurd-yuva salmışdı...

2012-ci il. Şəmistan da yaşıdları kimi əsgər getdi. Atəşkəs rejimi olsa da, sərhədlərdə vəziyyət satabil deyildi. Füzulidə, cəbhə bölgəsində xidmət edən Şəmistan düşmənin törətdiyi təxribatın qarşısını almaq üçün döyüşə girmiş və ağır yaralanmışdı. Lakin bu xəbəri anasına, ailə üzvlərinə çatdırmğa qoymamış, onların narahat olmaqlarını istəməmişdi. Nümunəvi əsgər kimi hərbi xidmətdən tərxis olunanda ona gizir kimi qalıb orduda xidmət etmək təklif olunur. Özü bunu istəsə də, anası razı olmadı. Şəmistan da anasının sözündən çıxmadı. Əslində anası da vətənpərvər ziyalı bir qadındır. Ancaq Şəmistan tək övladı olduğundan onu yanından ayırmaq istəmirdi. Nə biləydi ki, bir gün Vətən darda olanda Şəmistan yenidən könüllü olaraq cəbhəyə yollanmağa can atacaq, sevinə-sevinə "Mən yağı düşməndən qisas almağa, lazım gələrsə şəhid olmağa gedirəm", - deyib təzədən əsgər paltarını geyinəcək.

Onun cəbhəyə yola düşəndə necə sevindiyinin canlı şahidyəm. Döyüşən ordu sıralarında qəhrəman balamız, şəhid balamız ölümün gözünə dik baxdı. Şərəflə, şücaətlə döyüşüb canını Vətənə fəda etdi. Həmişə öndə, qabaqda olmağa can atan igid balamız düşmənə sarsıdıcı zərbələr vuraraq şəhidlik zirvəsinə ucaldı.

Yoldaşlarının sözünə görə son sözləri bunlar olmuşdur: "Anama deyin məni bağışlasın. Onu tək qoydum, ağlamasın". Amma ana necə ağlamasın? Ürəyinin özəyi getdi. Tək balası 15 günün içində evinə tabutda qayıtdı. Doğrudur, o şəhidlik zirvəsinə ucaldı. El-oba, qohum, tanış hamı onunla fəxr edir, xatirəsini əziz tutur. Lakin ana üçün balasını əvəz edən heç bir varlıq ola bilməz.

Heç yadımdan çıxmır. O gün, o dəhşətli gün – Şəmistanın şəhid olub gəldiyi gün Ayşəni heç kəs ovuda bilmirdi. Bu qəfil xəbər onu elə sarsıtdı ki, illərlə arzuladığı ali məktəb tələbəsi olmaq, tələbə adını almaq sevincini doya-doya yaşaya, hiss edə bilmədi. Oğlum Elməddin və qızım Ayşən hələ də bu ağır itkinin təsirindədirlər.

Şəmili günlərin şirin xatirəsi indi açı, üzüntülü bir xatirata çevrilib, ürəyimizdə qalıb. Allah igid, cəsur Şəmistana rəhmət etsin, məkanı cənnət olsun. Şəmistanın əziz xatirəsini həmişə yad edəcək, ona rəhmət oxuyacaq əzizləri kimi biz də heç bir zaman onu unutmayacağıq.

Bütün şəhidlərimizə Allahdan rəhmət diləyirik!

***Zərinə xala***
***qonşuları***




## MƏRD VƏ CƏSUR QARDAŞIM

Mənim qaqrdaşım mərd, qardaş dərdinə yanan, qohum-əqrəba qayğısına qalan əsl insan idi. Problemi olanda mənimlə bölüşər, bütün çətinliklərimə ortaq olardı. Ən etibarlı arxam, dayağım o idi. Böyüyə məsləhət etmədən bir iş görməz, ağıllı göstərişləri can-başla yerinə yetirərdi. Böyük sayan, ağsaqqal-ağbirçək məsləhətinə qiymət verən idi. Uşaqlığı gözümün önündədir. Qırmızıyanaq, toppuş, sevimli bir varlıq idi. Kimsə “uşaqdır”, - deyə əlinə yeməli bir şey verəndə, qaçıb yanıma gələr, “al, sən də ye”, - deyə təkid edərdi. Uşaq vaxtı səhər tezdən “həyətə düşüb şehə batar”, -deyə yuxudan durğuzmağa qıymaz, bir də onda görərdik ki, bizim xəbərimiz olmadan həyətə düşüb çəkələklərini – şəpiklərini soyunaraq yalın ayaqlarla bağçaya girib şehli gül-çiçəklə oynayır.

Hərbi səfərbərlik məntəqəsinə onu öz maşınımda apardım. Güzgüdən hey ona baxırdım. Ürəyimə dammışdı ki, ona nəsə olacaq. Avtobusa minəndə yaman tünlük oldu. Gözlərimdən itdi və bir daha onu görmədim. Orduda olanda hər gün danışır, hal-əhval tuturduq.

Bu yay onu maşınla Qəbələyə, gəzməyə aparmışdım. Nə yaxşı getmişik. Yol boyu olanlardan-keçənlərdən, gələcək

arzularımızdan və planlarımızdan xeyli danışdıq, dedik-güldük. Qəbələnin səfalı yerlərini, meşə və dağlarını gəzib Göyçaya qayıdan zaman belə bir arzusunu dilə gətirdi: “Oturmuşuq o isti kənddə. Gəl indidən qərarlaşdıraq ki, hər il yayda bir neçə günlüyə də olsa buralara gələk”. Razılaşdıq. Amma, əfsus ki, bu arzumuz ürəyimizdə qaldı.

Son zamanlarda onda maşın sürməyə həvəs oyanmışdı. Deyirdi ki, mənə maşın sürməyi öyrət. Mən də öyrədir, söz verirdim ki, sürücülük vəsiqəsi alan kimi sənə maşın alacağıq.

Çox dərin və məntiqli söhbətlər edərdi. Savadlı idi, siyasətdən, hərb sənətindən və mədəniyyətdən danışmağı daha çox sevərdi.

Çağırış günü tezdən bizə gəldi. Dedim: “Nə olub, bu tezlikdə niyə gəlibsən?”

Cavab verdi ki, çağırış məntəqəsinə tez getmək üçün gəldim.

Dedim ki, bir az geç getsək nə olar?

Cavab verdi ki, gecikmək istəmirəm, saat 8-də orada olmalıyım.

İstəyinə qarşı çıxmadım. Maşına oturub dediyi vaxtda çağırış məntəqəsinə çatdıq.

***Cavid Əzizov***
***qardaşı***



## İNANA BİLMƏDİYİM ACI HƏQİQƏT

Məndən yaşca kiçik olan qardaşım şəhid Şəmistan haqqında xatirələrim çoxdur. Deyə bilərəm ki, o çox təmiz ürəkli, əqidəli insan olmaqla yanaşı, həm də onu tanıyanların ürəyində özünə yer eləməyi bacaran bir gənc idi. Ürəklərdə məxsusi yeri olan Şəmistan mərd, mübariz, xeyirxah olmaqla yanaşı, həm də çox rəhmdil adam idi.

Şəmistan mənim yaddaşımda şirin xatirələri olan yaxşı qardaş, valideynlərimizə baş ucalığı gətirməyi bacaran övlad kimi qaldı. Onunla bağlı xatirələr tez-tez yadıma düşür. Gözlərim dolur, özüm-öz oduma yanıram. Həyat qəribidər. Harada, hansı hadisələrlə qarşılaşacağını əvvəlcədən heç kəs dəqiq deyə bilməz. Biz də bu həyatın acı hekayəsi ilə qarşılaşıb acı həqiqəti yaşamağa məcbur olduq. Onun şəhid olmasını eşidəndə qətiyyən inanmağım gəlmədi. Təəssüf ki, inanmasam da, bu, həqiqət idi. Onun yoxluğuna hələ də alışa bilmirəm, elə bilirəm ki, harasa uzaq səfərə gedib, yenə də qayıdıb bizi sevindirəcək.

Qardaş itkisi nə ağır imiş! Ondan sonra atamın, anamın üzünə baxa bilmirəm. Onlara baxanda ürəyim parçalnır. Onlara Şəmistanın yoxluğunu hiss etdirməmək üçün əlimdən nə gəlirsə etməyə çalışıram. Amma elə bilirəm ki, mənim üçün bur qardaş olaraq Səmistansız çətin olduğu kimi, onlar üçün cəhənnəm əzabıdır.

Arzuları taleyin amansız şaxtalarına tuş gələrək vaxtsız solan qardaşımın Vətən uğrunda şəhid olması ilə təsəlli duyur, onunla fəxr edirəm. Allah məzarını nura qərq etsin. Qeydlərimi qardaşımın xatirəsinə həsr etdiyim aşağıdakı misralarla bitirirəm:

**Sənlə gedənlər qayıtdı,**
**Qardaş, sən qayıtmaz oldun.**
**Səbr evimiz talan oldu,**
**Qardaş, sən qayıtmaz oldun.**

**Ömrümüz dərdə tuş oldu,**
**Neçə arzumuz puç oldu,**
**Gözümuz qan-yaşla doldu,**
**Qardaş, sən qayıtmaz oldun.**

**Atan-ana sənsiz qaldı,**
**Ürəkləri parçalandı,**
**Xəzan keçdi, bahar gəldi,**
**Qardaş, sən qayıtmaz oldun.**

**Gözüm yoldan yığılmadı,**
**Saldığım bağ bağ olmadı,**
**Dağlı sinəm sağalmadı,**
**Qardaş, sən qayıtmaz oldun.**

***Müşfiq Əzizov***
***qardaşı***




## O MƏNƏ QAYIN YOX, QARDAŞ İDİ

2009-cu ildə bu ailəyə gəlin gəldim. O zaman Şəmistan mülayim və nur üzlü bir məktəbli idi. “Sayqa” adlı bir iti var idi. İtini çox istəyirdi. İllər keçdi. Şəmistan məktəbi bitirib əsgər getdi. Evdən onun yanına getmək istəyirdilər, o isə razılaşmırdı. Bir gün günorta vaxtları idi. Səs gəldi. Evdən çölə çıxdım. Qarşımda Şəmistanı gördüm. Əsgərliyi qurtarıb gəlmişdi. Çox sevindim. Qucaqlayışıb öpüşdük. Öğlum Öməri görüb tanımadı. Dedi ki, necə də böyüyüb. Anası evdə yox idi. Zəng vurdum: “Evə gəl, səni gözləyən var”, -dedim. Elə bu zaman Xəlil baba həyətə girdi. Şəmistanı gizlətdim. Bir azdan anası gəlib çıxdı. Pilləkənlərə evə qalxanda Şəmistan onu arxadan qucaqladı. O anın sevincini yaşamaq xoşbəxtlik idi.

Şəmistan könüllü olaraq orduya gedəndə səhər-səhər bizə gəldi. Saat səkkiz idi. Soruşdu ki, Ömər məktəbə gedibmi? Təzəcə çıxdığını biləndə görüşə bilmədiyini deyib təəssüf hissi keçirdiyini dilə gətirdi. Xəlil yatdığından onu da oyatmağa qoymadı. Ayrılarkən dedi ki, gəlinbacı, anam sizə əmanətdir. Onu yormayın, bir-birinizi qoruyun.

Dedim: “Bura da nə var ki. Əsas sən özünü qoru”.

Yola düşdüyü gün xəstəhal idi. Məni qəhər basmışdı. Maşına minəndə bir daha qucağlıaşıb ayrıldıq. Maşın yolu dö-

nənə qədər arxasınca baxdım. Orduda olanda hər gün zəng edirdi. Deyirdim ki, qardaş, sağ-salamat qayıt gəl, qurban demişəm.

Dedi ki, gəlinbacı, əsgərlərimiz üçün dua et. Uşaqları soruşdu. Tapşırdı ki, onlara yaxşı bax. Son sözü də bu oldu ki, dua et, buradan qayıtmaq çətin məsələdir. Təəssüf ki, qayıtmadı da...

***Könül Aydın qızı Əziziva***
***gəlinləri***

## BİZİM ÜÇÜN VARSAN



Mən ailə quranda Şəmistanın 11 yaşı var idi. Demək olar onu evimizin sonbeşiyi kimi bilmişəm. Bacısı olmayıb deyə, ona bacı hissini yaşatmağa çalışmışam. 3 qardaşım var. Şəmistanı onlardan ayırmamışam. İndi mənə çox ağırdı. O, hər gün bizimlə əlaqə saxlayırdı, zəngləşirdik. Yoldaşım Alikin işi çox olub onlarla əlaqə saxlamadıqları vaxtlarda uşaqlara, mənə deyirdi ki, İlyas dayıgillə, Şəmistanla danışın, vəziyyətləri ilə maraqlanın.

Uşaqlarımız - Mədinə və Murad Şəmistana çox bağlı idilər. Bakıda bir neçə yaxın qohumu olmağına baxmayaraq, o, demək olar ki, həmişə bizə düşər, bizdə qalardı. Onun hər gəlişi bizimçün toy-bayram olardı. Şəmistanlı xatirələrimiz çoxdur. Yay zamanı bizə gələndə uşaqlarla dənizə gedirdi. Onları aparıb bulvarda, parkda gəzdirirdi. Deyirdi ki, gəlinbacı, sən rahat işlərini gör, mən uşaqlarla məşğul olaram.

O, çox saf, ağıllı, mədəni, savadlı bir gənc idi. Biz qısa bir zaman içində ailəmizin iki üzvünü itirmişik. Şəmistanın və Abdulcəmilin itkisi yoldaşım Alikin saçını ağartdı. Şəmistan Alikin dayısı oğlu, Abdulcəmil isə əmisi oğlu idi. Bir ayın içərisində iki ağır itki... Onlar dayı, əmioğlu yox, qardaş, dost idilər. Alik heç cür özünü ələ alıb, Şəmistan haqqında xatirə yazmağa toparlana bilmədi. Cəhd etdi, amma alınmadı. Gözlərindən sel

kimi yaş axmağa və əli titrəməyə başlandı. Qələmi stolun üstünə qoyaraq durub otaqdan çıxdı.

Sözlərimin səmimiliyinə inanın. Bu xatirələri mən də ürək ağrısıyla, göz yaşıyla yazıram. Necə acılar yaşadığımı bir Allah bilir. Uşaqlarımın "biz Şəmistan qaqa üçün çox darıxırıq, nə vaxt gələcək?" suallarına cavab tapa bilmirəm. Bu dərdin heç bir təsəllisi yoxdur. Şəmistan düz 6 aydır cismən bizdən ayrılıb. Hərdən mənə elə gəlir ki, Şəmistan qayıdacaq. O, yenə bizə gələcək. "Gəlinbacı, mən gəldim",- deyəcək. Mən əhd etmişdim ki, onun toy xonçalarını özüm bəzəyəcəkdim, nişan üzüyünü bir bacı olaraq özüm seçib alacaqdım. Toyunda ayaqyalın oynayacaqdım. Əminə xalaya qızı olmamasını hiss etdirməyəcəkdim. İndi Əminə xalamın üzünə baxa bilmirəm. Heyif o gözəl insanlara, İlyas dayıya, Əminə xalaya. Şəmistan haqqında sutkalarla danışsam sözüm bitməz. Müharibə bitəndən mən bütün şəhidlərimizə, o cümlədən Abdulcəmil və Şəmistana ağlayıram. Dua edirəm ki, yuxumuza gəlsin və bizə deyəcək sözləri, tapşırığı, tələbi varsa desin.

Bizim dəyərli Şəmimiz, əziz qardaşımız. Haqqını bizə halal elə. Sən bizimçün varsan, yaşayırsan, yaşayacaqsan. Ruhun şad olsun!

***Aynur Arif qızı Bilalova***
***bibisinin gəlini***



## ACI XƏBƏR

Şəmistanla aramızda yaş fərqi olmasına baxmayaraq bunu heç vaxt hiss etdirməzdi. Çox səmimi və mehriban adam olduğundan yaşından asılı olmayaraq, hamı ilə ünsiyyət yaratmağı bacarardı. Uşaqla uşaq, böyüklə böyük olduğundan çevrəsində olduğu hər kəsin sevimlisi idi.

Şəmistan haqqında keçmiş zamanda danışmaq mənim üçün çox çətindir. Onun haqqında nə qədər xoş sözlər desəm azdır və qələm onun vəsfini söyləməyə acizdir. Hərdən yaxşı adamlar haqqında deyirlər ki, filankəs o qədər rəhmlidir ki, qarışqanı belə tapdalamayıb. Bu sözləri çəkinmədən Şəmistana da aid etmək olar. O, həqiqətən də belə əqidə sahibi, qızıl kimi ürəyə malik bir gənc idi. Bəlkə, elə buna görə də Allah çox adama qismət etmədiyi şəhidlik zirvəsini ona qismət elədi, ruhunu cənnət mələklərinə qovuşdurdu.

Uşaqlıqdan qızlarla oynamağa həvəsim yox idi. Yaşıdlarm qızlara aid oyunlar oynayanda, mən Şəmistanın təşkil etdiyi oyunlara qoşular, onlarla oynayardım. Şəmistan təxəyyülünə uyğun oyunlar qurar, həmin oyunlara adlar verərdi. Ən çox xoşladığımız, indinin özündə də yadımda qalan "Dağlarda döyüş" və "Avtomat, avtomat" oyunları idi. Şəmistanın yaxşı əl qabiliyyəti var idi. Hər birimizə taxtadan avtomat, dəmirdən balaca tanklar düzəldərdi.

Şəmistan çox şən və hazırcavab oğlan idi. Məhəllə uşaqlarına oynadığımız oyunların xarakterinə uyğun ləqəblər verər, hətta oyunlara müvafiq şəkillər də çəkərdi.

Çöx vətnpərvər və millətsevər insan idi. Həqiqi hərbi xidmətini Qarabağ torpağında başa vurmuş, daima Qarabağın işğaldan azad olunması barədə düşünərdi.

İkinci Qarabağ müharibəsi başlananda səbirsizliklə çağırış vərəqəsi gözləyirdi. Nəhayət, o gün gəlib çatdı. Onu da səfərbərliyə cəlb etdilər. Sevincinin həddi-hüdudu yox idi. Çağırş vərəqəsini götürüb bizə gəlmişdi. Sentyabrın 29-da yola düşəcəkdi. Onu yola salmağa biz də getmişdik. Getdiyi yolun nə qədər çətin, dolanbac, qorxulu olduğunu bildiyi halda, onun o yolu qaçaraq, sevinə-sevinə getdiyinin şahidi oldum. Bu, məni qətiyyən təəccübləndirmirdi. Axı onun nə qədər qorxmaz, cəsarətli və iradəli olduğuna bələd idim. Biz onu gülə-gülə, sevinə-sevinə yola saldıq. Təəssüf ki, gəlişi fərqli oldu...

Şəmistan çətinliklərini dilə gətirən adam deyildi. Əminə xala tez-tez bizə gələrdi. Ovqatı yaxşı olanda bilirdik ki, Şəmistan zəng edib. Soruşardıq ki, nə deyir, nə danışır? Əminə xala ümidqarışıq sevinclə deyərdi: “Deyir ki, çox az qalıb, hər şey bitmək üzrədir. Məndən şad xəbərlər gözləyin”. Sən demə, “şad xəbərlər gözləyin” dediyi anlarda belə, o, hər an ölümlə üz-üzə, nəfəs-nəfəsə imiş.

Əfsus ki, ondan bizə vəd etdiyi şad xəbər əvəzinə acı xəbər gəldi. O acı xəbər çıxmazdan bir neçə müddət öncə arzusunda olduğum bir xəyalım gerşəkləşmişdi. Universitetə qəbul olunmuş, çox sevinirdim. Amma ürəyimdə də bir təlaş, nigarançılıq var idi. Ürəyimə dammışdı ki, nəsə qeyri-adi, gözlənilməz

bir iş olacaq. Amma nə? Sonra da "Allah axırını xeyir eləsin" deyə qara-qura fikirləri özümdən uzaqlaşdırdım.

Oktyabrın 14-də eşitdiyim bəd xəbər dünyamı alt-üst etdi. Uşaqlıqdan bir yerdə böyüyüb-boya çatdığım, yaddaşımdan qətiyyən silinməycək əziz dostun acısını yaşamalı oldum. Bu gün də həmin ağrının təsiri altındayam.

Bütün Şəmistansevərlər kimi mənim də təsəllim odur ki, o, ölümü ilə ölümsüzlük qazanaraq şəhidlik zirvəsinə ucaldı. Mənfur düşmənləri torpaqlarımızdan təmizləmək üçün kişi kimi döyüşdü, canını canından əziz saydığı Vətənə qurban verdi.

Allahdan ruhuna rəhmət, ailəsinə və yaxınlarına səbir diləyirəm.

***Ayşən İnqilab qızı Həbullahova***
***qonşusu***



## BİZ ONUNLA DOST VƏ SİRDAŞ İDİK

“Bu dünyanın ən səmimi dostları gecənin ən fırtınalı gəmiləridir”. Elə fikirlərimi də dostluq haqqında deyilmiş yuxarıdakı kəlamla başlamaq qərarına gəldim. Çünki  Şəmistan mənim ən yaxın dostum və sirdaşım idi. Biz Şəmistanla 11 il sinif yoldaşı olmuş, dostluğumuz da buradan başlamışdı. Həyatda dostlar müxtəlif cür olurlar. Biz uşaqlıq dostları idik və dostluğumuzu məktəb həyatı bitdikdən sonra da davam etdirdik.

Şəmistan haqqında xatirələimi qələmə aldıqca elə bilirəm ki, yanımdadır və yenə mənə baxıb gülümsəyəcək və nə lazımdır deyəcək. Həqiqətən Şəmistan heç vaxt dostunu darda qoyan birisi deyildi. Məktəb illərində fiziki cəhətdən nisbətən zəif olmasına baxmayaraq,  hər bir işimizdə öndə gedərdi. Onun bu xasiyyəti II Qarabağ müharibəsinə səfərbərlik zamanı da özünü göstərdi. Adının siyahıda olmaması onu bərk hiddətlındirmişdi. Hərbi komissarlığa gedib adını zorla könüllülərin sırasına yazdırıb döyüşə yollandı.

Səmimi söhbətlərimizdə ən ümdə arzun nədir? soruşanda belə cavab verərdi: “Kaş müharibə başlansın və mən o dığalardan heyifimi almaq üçün cəbhəyə yollanım”.

Gerçək dostlar ulduzlar kimidir. Qaranlıq düşüncə ortaya çıxarlar. Bəli, Şəmistan dostları üçün, sevdiyi və sevənləri üçün, vətəni

və milləti üçün çətin günlərdə sinəsini qabağa verən oğulladan idi. Vətənpərvərlik hissi onda lap uşaqlıqdan özünü biruzə verərdi. Həvəskar rəssam və şair idi. Rəsm dərslərində heç vaxt müəllim verən tapşırığı yerinə yetirməz, öz beynindəkilərini – tank, top, avtomat, pulemyot şəkilləri çəkərdi. Müəllimlər də onun xətrinə dəyməzdi. Bütün sinif yoldaşlarının sevimlisi olan Şəmistan həm də müəllimlərin sevimlisi idi.

Şəmistan haqqında universitetdəki tələbə yoldaşlarıma o qədər danışmışdım ki, onların hamısı onu qiyabi şəkildə tanıyırdılar. Bir gün Şəmistanın Bakıya gələcəyi xəbərini onlara deyəndə hamısı bir ağızdan: "Gedək Şəmistanı əyani tanımağa",- deyib mənimlə onun görüşünə getdilər.

Şəmistanın dinc həyatınadkı xarakteri hərb həyatında daha çox özünü biruzə verdi. Dəfn mərasimində komandiri ondan danışanda sanki uzun illərin yaxın bir adamını itiribmiş kimi danışıb ağlayırdı. Şəmistan öləndən sonra yox, hələ sağ ikən şəhid olmuşdur. Onda olan vətənpərvərlik hissi hər an vətənin müdafiəsinə qalxmaq, döyüşə yollanmaq onu hələ sağ ikən şəhidlik zirvəsinə yüksəltmişdi. Necə qəhrəmancasına döyüşməyi və şəhid olmağı dillərdə dastandır. Ali Baş komandan tərəfindən ölməndən sonra "Vətən uğrunda" medalı ilə təltif olunması Şəmistan haqqında yazdıqlarımın birmənalı şəkildə sübutudur.

***Ramil Şahin oğlu Kərimov***
***sinuf yoldaşı, dostu***



## HƏR ZAMAN QƏLBİMDƏ YAŞAYAN İNSAN

Şəmistan haqqında yazmaq, onunla bağlı xatirələrimi bölüşmək çox çətindir. Şəmistanla bir məhəllədə böyümüşük, uşaqlığımız bir yerdə keçib. Həm yaxın qonşu, həm də dost idik. Sözümüz, söhbətimiz, sirrimiz bir idi.

Mən 2020-ci il sentyabr ayının 21-də təlimə qoşularkən onu toplanışa çağırmadıqlarından, çox məyus və narahat oldu. Məndən bir neçə gün sonra ona da çağırış gəldi və o sentyabrın 29-da könüllü olaraq cəbhəyə yollandı.

Onun vətənpərvər və cəsur bir insan olmasına uşaqlıqdan bələd idim. Uşaq vaxtı məhəllədə ağaclardan və digər əşyalardan maraqlı hərbi oyunlar qurar, oyunlarda həmişə onun komandası qalib gələrdi. Futbolu çox sevərdi. Kəndimizin meydançasında yaz aylarında tez-tez futbol oynayardıq. Yayda yaxınlıqdakı arxda çimmək adətimiz idi.

Məktəbə də birlikdə gedərdik. Şəmistan məndən iki yaş böyük olsa da, söhbətimiz tuturdu. Novruz bayramı gələndə çox sevinər, papaq atmağı çox xoşlayırdı. Sevdiyi qızgilə papaq atarkən onu görməsinlər deyə qaçıb gizlənərdi. Nar bayramında deyərdi ki, Seyran, mütləq rayon mərkəzinə - Göyçaya gedək. Bu bayram bizim rayonun bayramıdır. Biz bu bayramda iştirak etməliyik.

Tez-tez bizə gələrdi. Kompüterdə oyunlar oynayardıq. Döyüş, vuruş oyunlarına daha çox maraq göstərərdi. Mən əsgəri xidmətdə olarkən tez-tez zəng edərdi. Deyərdi ki, Seyran, evdən narahat olma. Anandan xahiş etmişəm ki, nə işi, qulluğu olsa, mənə desin. Anam ondan çox razılıq edirdi.

Şəmistan zəhmətkeş oğlan idi. Ayaqları üstündə durmaq, işlərini yolina qoymaq üçün hər cür çətinliyə hazır idi. Təsərrüfatla məşğul olurdu, əkib-biçirdi. Atası səhhətilə əlaqədar ağır işlər görə bilmədiyinə görə, bütün çətin və ağır işləri o, çox böyük həvəslə özü görər, atasının əziyyət çəkməsinə razı olmazdı.

Güclü yumor hissinə malik Şəmistan həm də yaxşı elektrik idi. Deyirdi ki, gör nə qədər Allahın sevimli bəndəsiyəm ki, bu bacarığı mənə verib. Hər ailəyə, hər ocağa işıq verirəm. Onları qaranlıqdan xilas edirəm.

Zarafat etməyi də, zarafat götürməyi bacarırdı. Lakin çox ciddi adam idi. Bəzən ata və anası haqqında deyirdi ki, Şəmistan kimi oğlu olan ata ancaq əmr verər və tələb edər. Əminə kimi anası olan oğul isə ancaq sevər, ilham alar, yaşar, yaradar. Fəxrlə bildirərdi ki, insanları sevməyi, adamlara hörmətlə yanaşmağı, dəyərləndirməyi anamdan öyrənmişəm. Mən valideynlərimlə fəxr edirəm. Onlar mənim idealımdır.

Əsgəri xidmətdə olarkən yaralanmışdım. Əməliyyatdan çıxarkən ilk olaraq telfonumda Şəmistanın nömrəsini gördüm. Evə dönəndən sonra birinci yanıma gələn də o olmuşdu.

Can qardaşım, can! Səninlə bağlı o qədər şirin, həzin xatirələrim var ki.... Biz hər zaman bir yerdə oynadıq, mehriban qonşular olduq. Uşaqlığımız, gəncliyimiz bir yerdə keçdi. Amma cəbhədə ayrı düşdük. Hər ikimiz bir amal – Vətən

uğrunda mübarizə aparırdıq. Bilirdik ki, bu müharibədir. Müharibə şəhidsiz olmaz....

Mən çox sevinirəm ki, siz kəndimizin Birinci Qarabağ müharibəsi şəhidlərinin qanını yerdə qoymadığınız kimi, biz də sizin qanınızı yerdə qoymadıq. Biz qələbə çaldıq. Bizim uşaqlığımızda oynadığımız oyunlardakı müharibə səhnələri reallığa çevrildi, gerçəkləşdi. Düşməni məhv etdik.

Qardaşdan dost olmaz deyirlər. Amma dostdan qardaş olar. Rahat uyu, canım qardaşım. Hər zaman qəlbimdə yaşayacaqsan.

***Seyran Beydullayev***
***dostu, sırdaşı, qardaşı***

## ŞƏHİD ŞAİRİN ŞEİRLƏRİNƏ MÜQƏDDİMƏ ƏVƏZİ BİR NEÇƏ SÖZ

Şəhid balamız Şəmistanın ömür və döyüş yolu haqqında qısa və ümumi bir oçerk yazıb mətbuatda çap etdiriməklə atası İlyas və anası Əminə xanıma təskinlik vermək niyyəti ilə bəzi məlumatlar əldə etmək üçün Şəmistanı yaxından tanıyanlara müraciət etdim. Topladığım materillar və verilən digər məlumatlar məndə belə bir fikir formalaşdırdı ki, şəhidin ruhuna ehtiram əlaməti olaraq yazmaq istədiklərimi kiçik bir öçerkə sığışdırmaq mümkün olmaz. Odur ki, əhatəni genişləndirmək, imkan olarsa bir kitabça yazıb Şəmistan, onun böyüyüb-boya başa çatdığı ailə, mənsub olduğu nəsil barədə məlumat verməyi qərara aldım. Eyni nəsildən, eyni kökdən oludğumuzdan, təbii ki, faktlar toplamaq, gəldyim nəticələri ümumiləşdirərək sistemə salmaq mənim üçün elə bir ciddi problem yaratmadı. İş prosesində qarşılaşdığım bir məsələ məni həm təəccübləndirdi, həm də mütəəssir etdi. Sən demə, Şəmistan gözəl övlad, yaxşı vətəndaş, insansevər, vətənpərvər bir gənc olmaqla yanaşı, həm də yazı-pozu adamı, ürəyindən keçənləri, duyğu və düşüncələrini ağ kağızlara köçürən, lakin bu barədə kimsə ilə fikirlərini bölüşməyən, bəlkə də yazdıqlarını çap etdirmək niyyətində olamayan şair imiş.

Şair sözünü mübaliğəyə varmadan işlədirəm və Şəmistanın şeirlərini oxuyan oxucuların bizimlə razılaşacağına qətiyyən şübhə etmirəm.

Əmim nəvəsi olan Şəmistanın şeir və musiqi həvəskarı olduğundan xəbərdar idim və hər dəfə evlərində qonaq olanda

onun poeziya sənəti və görkəmli şairlərimiz barədə mənə verdiyi suallar, məndən şeir kitabları istəməsi, müxtəlif şairlərdən, hətta mənim də yaradıcılığımdan bəzi nümunələri əzbər söyləməsi indi də bir kino lenti kimi gözlərimin önündədir. Lakin onun şeir yazmasından qətiyyən xəbərim yox idi, özü də söhbətlərimizdə bu barədə bir şey sezdirməmişdi. Rəsm çəkdiyini bilirdim və çəkdiyi rəsmlərə baxıb gələcəkdə davam etdirəcəksə, gözəl rəssam olacağını da ona bildirmişdim.

Şəmistanın qırx mərasimindən sonra anası Əminə xanımdan onun çəkdiyi rəsmlərdən bir neçəsini istədim ki, bəlkə, kitabda istifadə elədim. O, mənə bir qovluq verdi, dedi ki, nəyi varsa buraya toplamışam. Qovluğu açıb varaqlayanda gözlərimə inanmadım. Rəsmlər, onların məzmun və mahiyyətini tamamlayan şeir papçaları və qəhvəyi rəngli bir şeir dəftəri.

Şeir dəftərini oxuduqca Şəmistanın nurlu siması gözlərim önündə canlanır. Şeirlərin yazılma tarixinə baxıram. Bir-ikisi istisna olmaqla, əksəriyyəti 2012-ci ilin sonu, 2013-cü ilin ilk yarısında yazılıb. Deməli, bu şeirləri yazanda Şəmistanın heç iyirmi yaşı da yox imiş. Bu yaşda yazılan şeirlərdə, təbii ki, hakim bir mövzu olur: *məhəbbət mövzusu.* Şəmistanın şeirlərində əsas mövzu məhəbbət olsa da, ürəyi vətən məhəbbəti ilə çırpınan nakam gəncin ictimai-siyasi mövzulu elə əsərləri ilə qarşılaşırıq ki, onları həyəcansız oxumaq olmur. Nümunə üçün 2013-cü ilin may ayında yazılmış “Laçın yolu bağlı qalıb” şeirinə diqqət edək:

**Laçın yolu bağlı qalıb,**
**Kəlbəcər duman içində.**
**Dərdimzə çarə yoxmu?**
**Millətim güman içində.**

**Qoşqar Murova söykənib,**
**Dəli dağ qəddini əyib,**
**Güneylərdə dərd göyərib,**
**Lalələri qan içində.**

**Düşmən hər gün əhdi pozur,**
**Qərb hələ də tərsə yozur,**
**Görən Şuşam necə dözür,**
**Oturub düşmən içində?**

Təhlilə ehtiyac görmürəm. Atəşkəs dövründə Qarabağda, Füzuli rayonunda hərbi xidmətdə olan bir gəncin yazdığı bu əsər əsl sənət nümunəsi olmaqla yanaşı, həm də vətəni yadların tapdağından qurtarmaq üçün bir çağırışdır. Bu çağırış Səmistanın digər bir şeirində açıq haraya çevrilir. Millətin Qarabağ adlı dərdindən söz açan, Şuşa, Laçın, Xocalı, Ağdərə kimi ərazilərimizin əsarət altında olmasını ürək ağrısı ilə dilə gətirən müəllif çıxış yolunu xarici dövlətlərin yardımında yox, ancaq və ancaq özümüzdə görərək yazır:

**Səsimə səs ver, ey Azərbaycan milləti,**
**Gəlin bir məqsəd uğrunda**
**yumruq kimi birləşək,**
**Düşünək ki, sinəmizdə parçalanmış**
**Azərbaycan dərdi var.**

Şəmistanın elə şeirləri vardır ki, onları 19-20 yaşlı bir gəncin yox, dünya görmüş, həyatın bərkinə-boşuna düşmüş yetkin bir qələm sahibinin şeirləri kimi qəbul edir, onlardakı dərin mənaya heyran kəsilməyə bilmirik. "Əylən" şeiri dediklərimizə əyani sübutdur. Şeirdə oxuyuruq:

**Ömür ümman, axan çayıq,**
**Nə körpü var, nə də qayıq,**
**Ölüm heç nədi, ayrılıq,**
**Yamandı, ay gedən, əylən.**

Şəmistanın həcmcə kiçik, məzmun, mündəricə və ideya baxımından kifayət qədər əhatəli olan "Eşidilməz", "Ümidin varsa", "Ay gözləri yaşlı qadın", "Ana, bilirsən?", "Kimdi günahkar?", "Son arzum", "Yalvarıram" və s. şeirləri gənc və narahat bir qəlbin çırpıntıları olmaqla bərabər, həm də əsl sənət nümunələridir. Şeirlərdə işlənmiş "yarpaqları külək ovur", "ağla gələn yollara", "ruhum göylərdədi, göylər də selə düşüb", "fikirlər beynimi, qəm-qüssə qəlbimi dəlir" və s. bu kimi ifadələr Şəmistandan sözün sehrinə vaqif olan bir qələm sahibi kimi danışmağa imkan verir.

Təbii ki, Şəmistanın bizə yadigar qoyaraq getdiyi poetik irsinin əksəriyyətini onun məhəbbət mövzusunda yazdığı şeirləri təşkil edir. Hiss olunur ki, o, dərin məhəbbətlə sevən bir gənc kimi yalnız düşündüklərini, həqiqət kimi qəbul etdiklərini yazmış, sevincini də, sevginin əzabından doğan kədərini də, inamını və aldanışlarını da səmimiyyətlə, özünəməxsus bir tərzdə poetikləşdirə bilmişdir. Nakam, şəhid şairin "Rastına çıxmaram", "Sevdiyim qıza yazdım", "Bağışla", "Ağlama" , "Çoxları deyir ki...", "Xəbərin olmayır" və s. şeirləri sevən bir aşiqin bir az qəmli, bir az da ümidli məhəbbət nəğmələridir. Şeirlərinin birində "Söz ilə şahmat oynadım, uduza-uduza yazdım" kimi tamamilə yeni poetik ifadə işlədən müəllif məhəbbət mövzulu əsərlərinin əksəriyyətində yaddaqalan obrazlar yaratmağa müfəffəq olur. Müxtəlif situasiyalrda yazılan bu əsərlərin hamısına ümumi bir ruh hakimdir: səmimiyyət və narahatlıq. "Sinəmə çəkdiyin dağa çıxıram" qoşmasında o yazır:

**Yazmaq qələm kimi yonulmadadı,**
**Yonulub kağızdan yoxa çıxıram.**
**Qara günlər axır kir kimi məndən,**
**Yuyunub beş arşın ağa çıxıram.**

**Nə yanğı söndürmək, nə içmək üçün...**
**Bir qurtum su verin tüpürmək üçün.**
**Sənin ad gününə gül dərmək üçün,**
**Sinəmə çəkdiyin dağa çıxıram.**

**Çiyninə qəm yükü qalanmış şaham,**
**Yellərə qoşulan yanıqlı aham,**
**Səni axtarmağa gücüm yox daha,**
**Ta mən də bu gündən yoxa çıxıram.**

Şeirlərində "Sənli xatirələr dağılıb evə, Bağışla, otağım tör-töküntüdü", "Deyərsən, nə yaman arıqlamısan, Deyərsən, nə azdı, ay Şəmi külün?", "Süzülür gözümdən həsrət damcısı", "Bilirsən ən böyük günahın nədir? Sevgini qəlbimdən qaçaq salmısan" və s. bu kimi onlarla uğurlu poetik ifadələr işlədən müəllifin "Zəncir vur, Aşura günümdür", "Məktub", "Bir vaxt unutduğum", "Ayrılıq sona yetəcək", "Çətin", "Heyif", "Ən böyük günahın..", "Darıxmışam", "Unut məni, unuda bilsən" şeirləri forma, məzmun etibarı ilə bitkin əsərlər olmaqla yanaşı, lirik mənin portretini yaratmaq baxımından da diqqəti cəlb edən poetik nümunələrdir.

Şəmistanın məhəbbət şeirlərinin özəl xüsusiyyətlərindən biri və bəlkə də ən başlıcası bu əsərlərdəki dərin lirizm və emosionallıqdır. Nümunə kimi iki kiçik şeirin mətnini olduğu kimi veririk. Şeirlərdən birincisi "Yuxuna gəlim", ikincisi isə "Ovut, ovuda bilsən" adlanır:

**Yuxuna gəlim sənin,**
**Saçıma bir sığal çək.**
**Ürəyim həsrətinə,**
**Onsuz da dözməyəcək.**

**Sevirəm denən mənə,**
**Sən Allah, ovut məni.**
**Sevirəm denən mənə,**
**Sonra da unut məni!**

***

**Pəncərədə qaranquşlar,**
**Divarda sənin rəsmin.**
**Könlümdə dəli sevda,**
**Dilimdə sənin ismin.**

**Unut məni, gözəlim,**
**Unut, unuda bilsən.**
**Ovut, sınıq könlümü,**
**Ovut, ovuda bilsən.**

Şəmistanın şeir dəftərçəsində "Əcəl yolunda uzanmış mələk" adlı nisbətən irihəcmli bir əsərə də rast gəldik. 2013-cü ilin may ayının 15-də başlayıb 23 iyun 2013-cü ildə birirdiyi bu əsəri müəllif özü hekayə-pyes adlandırıb. Nəzmlə nəsrin qarışığı ilə yazılan bu əsəri mənzum hekayə adlandırmaq daha döğru olardı. Avtobioqrafik səciyyə daşıyan bu əsərdə ictimai məsələlərə də yer verilmiş, qarşılıqlı məhəbbətlə yanaşı, gənclərin qovuşmasına əngəl olan problemlər də qabardılmış, vara-dövlətə aludə olub əhdə dönük çıxmaq halları pislənmişdir. Bu əsərdə əsas ideya, gəlinən nəticə bundan ibarətdir ki, insan atdığı hər addımı düşünərək atmalı, sevgidə və dostluqda sabitqədəm ol-

malı, ətrafdakılar da həqiqi məhəbbətlə sevənlərin qovuşmalarına mane olmamalıdırlar.

Şəmistanın dəftərçəsində yer almış bir neçə miniatür onun dünyagörüşü və həyata baxışlarının mahiyyətininin anlamaq baxımından maraq doğurur. Hiss olunur ki, içi həyat və insan sevgisi ilə dolu olan bu gənc böyük arzularla yaşamış, dünyanı gözəlləşdirmək və dünya gözəlliklərindən zövq almaq istəyində olmuşdur.

**QEYD:** Şəmistan Əziziov 2013-cü ilin iyul ayında ordudan tərxis olunaraq Göyçaya, doğma Qaraxıdır kəndinə qayıtmışdır. Ola bilməz ki, iki il müddətində 50-dən artıq şeir yazıb onlarla şəkil şəkən yaradıcı bir insan 2020-ci ilin sentyabrına, İkinci Qarabağ müharibəsinə yollanana qədər nəsə yazmasın. Bizim Şəmistanın atası İlyas müəllimə, anası Əminə xanıma müraciətlərimiz nəticəsiz qaldı. Bizə bildirdilər ki, əldə edə bildiklərimiz sizə təqdim etdiklərimizdir. Bir şey yazıbsa da, harada, kimdə olduğundan xəbərimiz yoxdur. Hesab edirik ki, 2013-cü ilin iyul ayında ordudan tərxis olunan Şəmistanın 2020-ci ilə qədər yazdığı şeirlər və çəkdiyi şəkillər var və ola bilsin ki, o onları kiməsə, etibar etdiyi adamlardan birinə vermişdir. Bu əsərlərin tapılmasında bizə yardımçı olan hər kəsə irəlicədən minnətdarlıq edirik. Belə bir savab iş görüləcəksə, həm şəhid Şəmistanın ruhu sevinər, həm də yazdıqları itib-batmaq, məhv olmaq təhlükəsindən qurtarar.

***Təranə Məhəmmədqızı***
***filologiya elmləri üzrə fəlsəfə doktoru, aparıcı elmi işçı, dosent, Azərbaycan Yazıçılar Birliyinin üzvü***
***10 aprel 2021-ci il***


SİNƏMƏ
ÇƏKDİYİN DAĞA
ÇIXIRAM
VERSACE

# UNUT MƏNİ,
# UNUDA BİLSƏN

## LAÇIN YOLU BAĞLI QALIB

Laçın yolu bağlı qalıb,
Kəlbəcər duman içində.
Dərdimizə çarə yoxmu?
Millətim güman içində.

Qoşqar Murova söykənib,
Dəli dağ qəddini əyib,
Güneylərdə dərd göyərib,
Lalələri qan içində.

Düşmən hər gün əhdi pozur,
Qərb hələ də  tərsə yozur,
Görən Şuşam necə dözür,
Oturub düşmən içində?

***Füzuli, may, 2013-cü il***

## ƏYLƏN

Ömür ümman, axan çayıq,
Nə körpü var, nə də qayıq,
Ölüm heç nədi, ayrılıq,
Yamandı, ay gedən, əylən.

Açıb qızılgül kolları,
Lalələr basıb çölləri,
Tanı getdiyin yolları,
Dumandı, ay gedən, əylən.

***Aprel, 2013-cü il***

## EŞİDİLMƏZ

Ürəyimi xatirələr,
Yarpaqları külək ovur.
Adamların arasından
Tale məni hara qovur?

Ya dərdli ol, ya dəli ol,
Biri bilsə, biri bilməz.
Bu küləkdə hönkürtüylə,
Ağlasan da eşidilməz.

***22 iyun 2013-cü il***

## ÜMİDİN VARSA...

Gedən yollar qayıtmaz,
Ağla gələn yollara.
Nə ümidin varsa da,
Bağla gələn yollara.

***Mart, 2013-cü il***

## AY GÖZLƏRİ YAŞLI QADIN

**(Anama ithaf edirəm)**

Ay gözləri yaşlı qadın,
Qəlbi dağlı, daşlı qadın.
Hörüyü ağ saçlı qadın,
Sən dünyanın anasısan.

Sənlə tapdım nur gözümdə,
Sənlə qalxdı gün gözümdə,
Kimsə olmaz sən dözümdə,
Sən dünyanın anasısan.

***İyun, 2013-cü il***

## YUMRUQ KİMİ BİRLƏŞƏK....

Yenə qəm, yenə kədər,
O yan təpə, bu yan dərə.
Qarşımdakı Şuşa, Laçın, Xocalı,
Zəfər yolunu gözləyir Ağdərə.
Var indi müstəqil dövlətimiz,
Dünyaya səs salıb millətimiz.
Bu millətin Qarabağ adlı dərdi var,
Bu millətin Mübarizi, Fəridi var.
Günü-gündən unudulur Qarabağ,
Heç kimdən bizə həyan olmayacaq.
Bəsdir, yetər, hər şeyin bir həddi var.
Bu millətin tükənən bir səbri var.
Hər gün baxıram Hadruda sarı,
O dağların bizdən böyük dərdi var.
O torpaq altında yatan gəlin, qızların,
Bizdən zəfər gözləyən bir ümidi var.
Səsimə səs ver, ey Azərbaycan milləti,
Gəlin bir məqsəd uğrunda
yumruq kimi birləşək,
Düşünək ki, sinəmizdə parçalanmış
Azərbaycan dərdi var.


ƏZİZOV
ŞƏMİSTAN
İLYAS OĞLU
6.XII.1993 - 2020.15.X
SƏNİ ÖMRÜM BOYU GÖZLƏYƏCƏM MƏN
QAYIT DEYƏCƏM LAP SON NƏFƏSİMDƏ
QAYIDA BİLMƏSƏN QƏHRƏMAN BALAM

## ANA, BİLİRSƏN?

Ana, bilirsən oğlun nə hala düşüb?
Ruhu göylərdədi, göylər də selə düşüb.
Gəlib yoxlasan məni,
Hamı atıb görərsən.

Göydən sel kimi daş yağır,
Evim dammır görəsən?
Soruşsan mənim balam,
Niyə belə tək qalıb?
Dərisini kim soyub belə,
Əyni nə nazik qalıb?!

***Fevral 2013-cü il***

## KİMDİ GÜNAHKAR?

Tənhayam,
Sirrimi söyləməyə,
Sevincimi, kədərimi bölməyə
Kimsə yox....
Fikirlər beynimi,
Qəm-qüssə qəlbimi dəlir.
Görəsən, belə olmağımda,
Kimdi günahkar?

***2013-cü il***

## SON ARZUM...

Bir güllə sancılıb köksümə,
Çıxarıb ata bilmirəm.
İçim acı ilə, həsrətlə dolub,
Tüstüyə verirəm qurtarmır yenə.
Daha siqaretim də tükənib,
Siqaretim kimi
Ömrüm də tükənir, Allah.
Möhlət ver, İlahi,
Son dəfə,
Bircə yol, sevdiklərimi,
Atamı, anamı görə bilim.
Bu, son nəfəsimdə arzumdu, Allah!

***Füzuli, iyun 2013-cü il***

## YALVARIRAM....

Yalvarıram torpağa,
Göyə, aya, günəşə.
Bürüyürəm dünyanı,
Mən alova, atəşə.
Saralan çiçəyimə,
Gülümə yalvarıram.
Yalvarıram Allaha,
Allah, dünyanı qoru!
Ata-anamı qoru!

## AD GÜNÜM

Bir payız axşamı, yaşım on səkkiz,
Yel əsir, zərbindən titrəyir qapım.
Bir şam yandırmışam süfrəmin üstə,
Bircə qab çatışmır, mürəkkəb qabım.

Vaxt axır, on səkkiz ömür yarpağı,
Xəzan gülləritək qonur üstümə.
Elə üşüyürəm, o da yoxdur ki,
Gəlib əllərini sərə üstümə.

Qoca sahibəsi bu köhnə evin,
Yenə qulağını burub saatın.
Gəlib asta-asta döyür qapını:
Ay oğul, neçəyə qurum saatı?

***2011-ci il***

## RASTINA ÇIXMARAM

Bir gün axtararsan məni,
Məni vaxtsız atan gözəl.
Əhdimizi daşa çalıb,
Özgəsini tutan gözəl.

Ha gəzərsən, soraqlarsan,
Rastına çıxmaram sənin.
Daha bir də suya dönüb,
Yolunda axmaram sənin.

İş yerimdən ha xəbər al,
Yerində yoxdu deyərlər.
Özünü divardan atıb,
Harasa çıxdı deyərlər.

## SEVDİYİM QIZA YAZDIM

Söz ilə şahmat oynadım,
Sözə uduza-uduza yazdım.
Ən kövrək  şeirlərimi,
Arzu dolu sətirlərimi,
Sevdiyim qıza yazdım.

Heç başım açılmır mənim,
Əlindən tilsimli dünyanın.
Görən sevdam nə rəngdədir
Gözündə  döğmanın, yadın?

Axı niyə çarəsi yox,
İçində  bişdiyim odun.
Nədən belə inadkardır
Sehrinə düşdüyüm qadın?

## SİNƏMƏ ÇƏKDİYİN DAĞA ÇIXIRAM

Yazmaq qələm kimi yonulmaqdadı,
Yonulub kağızdan yoxa çıxıram.
Qara günlər axır kir kimi məndən,
Yuyunub beş arşın ağa çıxıram.

Nə yanğı söndürmək, nə içmək üçün...
Bir qurtum su verin tüpürmək üçün.
Sənin ad gününə gül dərmək üçün,
Sinəmə çəkdiyin dağa çıxıram.

Çiyninə qəm yükü qalanmış şaham,
Yellərə qoşulan yanıqlı aham,
Səni axtarmağa gücüm yox daha,
Ta mən də bu gündən yoxa çıxıram.

## BAĞIŞLA

Gözləməkdən gözüm çuxura düşdü,
Gör bir soruşursan nə çöküntüdü?
Sənli xatirələr dağılıb evə,
Bağışla, otağım tör-töküntüdü.

Gəl bir nişan al, nişan al məni,
Təntimə, barmağın tətiyə gəlsin.
Sərin kürəyimdə odlu nəfəsin,
Köynəyim bu isti ütüyə gəlsin.

Gördün də, yemədim toy pulovundan,
Yalanmış dediyin, yalan yeyilməz.
Dünən səndən gələn qara kağıza,
Darıxma, məndən bir cavab deyilməz...

## MƏKTUB YAZIRAM

Məktubu yazıram, saxla yadigar,
Bəlkə də  məktubum sonuncu oldu.
Əsgərəm, məni çox da gözləmə,
Qismətim, bəlkə də bir güllə oldu.

## MƏKTUB

Bir gün bir əsgərin qəlbi sevindi,
Dedi: - Sevgilimdən məktub almışam.
Açanda məktubu üç kələm gördü:
-Bağışla, sevgilim, nişanlanmışam.

***

...Bilirəm, sevgilim, nişanlanmısan,
Nişan üzüyünü görməyə gəldim.
Sevgidən alışan göz yaşlarımı,
Əsgər dəsmalıyla silməyə gəldim.

## QILİNCLA KÖTÜYÜN ARASINDAYAM

Qılıncla kötüyün arasındayam,
Baş üstü Allahdı, baş altı dərddi.
Bir külfət yaşayır bu dar otaqda,
Mənəm, odur, bir də beş altı dərddi.

Qəfəsim köhnəldi əynimdə, Allah,
Yanına çuxası yırtıq gəlirəm.
Hansı tərəzidə çəksən də məni,
Yenə özüm boyda artıq gəlirəm.

Sonuncu tikəmi böldüm səninlə,
Sonuncu tikətək özümü kəsdim.
Bağışla, başladım şeir yazmağa,
Bağışla, İlahi, sözünü kəsdim.

## ZƏNCİR VUR, AŞURA GÜNÜMDÜR

Başımı çırpıram dəmir qapıya,
Ağrıyır min illik zədə başımda.
Alnımı döydüyüm divarlar ki lal,
Nə evdən çıxırsan, nə də başımdan.

Mən əkin taleli qara torpağam,
Sən biçin qismətli əlacsız çiçək.
Nə olar, bir az da mənə yaxın dur,
Səninlə bir qoşa şəkil çəkdirək.

Uc-uca bağladım dəsmallarını,
Qurulan yas çadırı mənimdi bu gün.
Qara hörüyünü döy kürəyinə,
Zəncir vur, Aşura günümdü bu gün.

# BİR VAXT UNUTDUĞUM...

Saralıb oxşadım saman çöpünə,
Bir gör səndən sonra nə hala düşdüm.
Nə yaxşı payızdı, payızda getdin,
Ki yolun sevdiyim sərinə düşdü.

Məəttəl qalmışam bu nə həngamə?
Hansı başa gələr belə iş görən?
Sevdiyin həmişə mən olmuşamsa ,
İndi unutduğun kim imiş görən?

Bir vaxt görərsən ki, yanmışam daha,
Tökülər ovcuna iki can, gülüm.
Deyərsən, nə yaman arıqlamısan,
Deyərsən, nə azdı, ay Şəmi külün?

## AYRILIQ SONA YETƏCƏK....

Gecə... Oturub ulduzlara baxıram,
Düşmüsən yadıma yenə, sevdiyim.
Uzaqdasan, sənə çatmayır əlim,
Toxunub telini oxşamayıram.
Məcnuntək Leylimdən uzaq düşmüşəm...
Sabaha ümüdim, sevdiyimə inamım var,
Çox çəkməz ayrılıq sona yetəcək.
Yenə üz-üzə, nəfəs nəfəsə dayanacaq
Yenə işıqlı gələcək uçün
Şirin xəyallara dalacağıq....

## İNTİZAR..

İndi bu qış ömrü sürüşmək gərək,
Bizi qar ötürür, dolu qarşılar.
Bu da ki, sonuncu teleqramım:
“Mən gələr olmadım, yolu qarşıla”.

## ÇƏTİN

Sevib sevgidə yanılmaq,
Aldanılmaq yaman dərddir.
Çəkdiyim əzab,
Deyib-gülməyin nə demək olduğunu
dərd mənə öyrətdi.
Dərman tapmaqsa çətin....
Əlacı dözməkdi.

***19.06.2013-cü il***

## AĞLAMA...

Hərbiyə gedirəm on səkkiz aylıq,
Ağlama sevgilim, islanar yaylıq.
Ayrılıq günündə arxamca su səp,
İnşallah, tez çatar sona ayrılq.

Ağlama, ağlama, ağlama, gülüm,
Yaraşmır simana o nəmli gözlər.
Gözündə qəm görsəm, bağrım yarılar,
O gözlər bilirəm yolumu gözlər.

Nə qədər ağlama desəm də sənə,
Axır yanağından qəlbin acısı.
Mənim əhvalımdan xəbərin varmı?
Süzülür gözümdən həsrət damcısı.

## KEŞİKÇİNƏM...

Bilirəm çətindir yardan ayrılmaq,
Bəlkə, əldən salıb xəyallar səni.
Füzulidə mənəm, Göyçayda da sən,
Yaşadır inan ki, arzular məni.

Bilirəm yolumu gözləyənim var,
Adın bircə an da düşmür dilimdən.
Qarşıda erməni, arxamda Vətən,
Gülüm, keşikçinəm silah əlimdə.

## HEYİF

Yenə günəş kimi durub qarşımda,
Nədən gözlərimi qamaşdırırsan?
Sevginlə yandırıb kül etdiyinin,
Külünü təzədən alışdırırsan?

Yoluna dikilən gözlərə heyif.
Qarşında titrəyən dizlərə, heyif,
Qəlbimdə min arzu, dilimdə adın -
Ürəyimə yazıq, sözlərə heyif!

## ÇOXLARI DEYİR Kİ....

Yenə də cummuşam qəm dəryasına,
Fikirlər rahatlıq verməyir mənə.
Nə gündüzüm gündüz, nə gecəm gecə,
Dünyanın sevinci gəlmir eynimə.

Sənziz bu şəhərin şəhərliyi yox,
Nə yerə sığıram, nə də ki göyə.
Gəzirəm tək-tənha boş küçələrdə,
Sən gəlsən ətrini duyaram deyə.

İnsanlar içində hal bilənim yox,
Məcnunam, səhraya sürgün olmuşam.
Şoxları deyir ki, şairdi Şəmi,
Yox, vallah, dərdindən dəli olmuşam.

## ƏN BÖYÜK GÜNAHIN....

Salam, ürəyimin qara səhifəsi,
Qurutdun boy atan təzə pöhrəmi.
Həqiqət sayırdım saf sevgimi mən,
Sən bir nağıl etdin bu məhəbbəti.

Sandım bu dünyada varlığım sənsən,
Sənə qurban dedim  şirin canımı.
Mən sənə məhəbbət şərbəti verdim,
Sən qane olmayıb içdin qanımı.

Qanımı şərabtək  sıxdün badəyə,
Sındırdın qəlbimi, sındırdın, qəlbsiz.
Mənim halım bəlli,  səninki necə?
Bəlkə, ömrün keçir qəmsiz, kədərsiz?

Bu cavan ömrümü dərdin qocaltdı,
Qara saçlarıma ağ dən salmısan.
Bilirsən ən böyük günahın nədir?
Sevgini qəlbimdən qaçaq salmısan.

# SƏNSİZ

Bilirsən, nə çəkirəm sənsiz....
Göz bulaqlarım su yerinə qan ağlayır.
Bilirsən, nə çəkirəm sənsiz....
Sənsizlik qızmar bir közə dönüb sinəmi dağlayır.
On beş aydır üzünü görmür,
Sənsiz dağlarda cəhənnəm əzabı çəkirəm...
Düşünürəm,
Bu bir sinaqdır, gərək  dözəm.
Çırpınıram, məğlub  duruma düşmüşəm,
Bu sınağın bir adil  hakimi yoxdurmu görən?

## QAYTAR

İçim bulud, çölüm bulud,
Gözümdə qəm  bulud-bulud,
Qadan alım, qadan umud,
Qaytar o qızı, bir qaytar!

## MƏNİ BUNDAN BELƏ...

Məni bundan belə axtarma, görmə,
Qorxuram görəsən, yazığın gələr.
Həsrətin qonduqca kirpiklərimə,
Üstümə qar yağar, dolu ələnər.

## UNUT MƏNİ, UNUDA BİLSƏN

Mən səngər qoynunda, sən əğyar ilə:
Nə tez əsir oldun vara, dövlətə.
Qırdın qanadımı, qırdın qolumu,
De, necə səbr edim bu müsibətə?!

Bircə an yadımdan çıxmır surətin,
Günahım nə idi, saldın zillətə?
Mənim sənli bağçam tar-mar oldu,
Nə deyim, nə deyim bu kor qismətə?!

"Səni ömrüm boyu gözlərəm"- dedin,
Bəs nədən əhdinə çıxdın vəfasız?
Sən təzə sevdada, mən qəm düşkünü,
Yanıram içimdə odsuz, ocaqsız.

Sevgini nifrətlə yanaşı tutmaq:
Yox, bunu bacarmır, bacarmıram mən.
Mən əhdə, ilqara, sözümə sadiq,
Sənsə unut mənini, unuda bilsən.

Əsgərəm, şox şeydən uzaq düşmüşəm,
Gündüzüm sən dərddə, gecəmsə postda.
Nə danım, səninçün çox darıxmışam,
Sən gözəl Göyçayda, Şəmi uzaqda!

## GƏLDİM ÇIXDIM....

Gəldim çıxdım Füzulinin düzünə,
Təzim etdim əllisinə, yüzünə.
Güllə dəysin vayonkomun gözünə,
Həsrət qoydu məni ailəm üzünə.

## AY QIZ

Üz tutub gedirsən haraya, ay qız,
Yüyürsəm arxansa yetəcəyəmmi?
Gülümdən aralı bülbüləm indi,
Bir özgə budaqda ötəcəyəmmi?

## DARIXMIŞAM...

Gözlərimdən yuxuları,
Ərşə çəkib getdin o gün.
Bir tikanlı qızılgültək,
Ürəyimdə bitdin o gün.
Xəyal kimi, röya kimi,
İlim-ilim itdin o gün.

Qəlbimdəsən, fikrimdəsən,
Hissimdəsən səhər, axşam.
Sənsiz yaman darıxmışam,
Bağrı qan bülbül olmuşam.

Çağırıram, yetmir ünüm,
Uzadsan, çatmır əlim,
Yarpaq kimi əsir qəlbim..
Sızlayıram zülüm-zülüm.

Qanadı qırılmış quşam,
Bilsən necə darıxmışam?!
De, bircə yol gələrsənmi,
Göz yaşımı silərsənmi?

***18.06.2013-cü il***

## EHTİYACIM VAR....

Qəlbim yaman kovrəlib,
Yaman doluxsunmuşam.
Yadıma yenə də sən,
Sən düşmüsən bu axşam.
Gəlib halım sorasan,
Gör nə dərdim, sərim var?
Eh, bilsən indi sənə,
Necə ehtiyacım var!

## SƏNDƏN AYRI DÜŞMƏK...

Doldu ağ vərəqim açılan səhər,
Onu göz yaşımla adına yazdım.
Qəlbimlə bacara bilsəydim əgər,
Heç səni bu qədər arzulamazdım.

Səndən ayrı düşmək ürək ağrısı,
Səndən ayrı gəzmək sinə dağımdır.
Görünür beləymiş bəxtin yazısı,
Ürək dəli kimi bağırmalıymış.

## XƏBƏRİN OLMAYIR...

Beləcə günlərim, aylarım keçir,
Beləcə illərim keçəcək yəqin.
Hicran qılınc çəkib ömrümü biçir,
Yəqin ki, xəbərin olmayır sənin.

## YUXUNA GƏLİM

Yuxuna gəlim sənin,
Saçıma bir sığal çək.
Ürəyim həsrətinə,
Onsuz da dözməyəcək.

Sevirəm denən mənə,
Sən Allah, ovut məni.
Sevirəm denən mənə,
Sonra da unut məni!

## OVUT, OVUDA BİLSƏN....

Pəncərədə qaranquşlar,
Divarda sənin rəsmin.
Könlümdə dəli sevda,
Dilimdə sənin ismin.

Unut məni, gözəlim,
Unut, unuda bilsən.
Ovut, sınıq könlümü,
Ovut, ovuda bilsən.

## BOYLAN UZAQLARA...

Günlərin ömrü də insan ömrüdür,
Haçansa onlar da çəkilər dara.
Düşəndə yadına mənli günlərim,
Boylan uzaqlara, bax uzaqlara.

# ƏCƏL YOLUNDAKI UZANMIŞ MƏLƏK

Başladı – 11.05.2013

Otağım soyuq, qələmim donmuş,
Dörd səmtə dağılmış xatirələrim.
Özümdən asılı deyil,
yenə düşmüsən yadıma.
Gözlərim dolub,
Yenə şirin xatirən məni kövrəldib.
Bir müddət əvvəl istədim unudum səni,
Səni sevən ürəyim danladı məni.
Danışmaq istəyirəm səninlə yenə,
Sarılıb telefona səsini öpmək istəyirəm.
Yadındamı keçən günlərimiz?
Necə də xoşbəxt idik, sevdiyim, necə də xoşbəxt!
Ulduzlar altında özümüz baş-başa,
Xəyallarımız mavi göylərdə.
Evimizə əsgəri xidmətə getmək xəbəri gəldi,
Təəssüf ki, ayrılmağa məcbur olduq.
4 yanvar 2012-ci il,
Bu tarix çoxlarına adi gələcək.
Mənimsə qara gündəliyimin
tarixçəsinin başlanğıcı idi o gün.
Yadındamı, sonuncu görüşdə kədərli idim,
Ayrıla bilmirdik bir-birimizdən.
Göz yaşı su yerinə axırdı yanaqlarımızdan.
Əllərim titrəyə-titrəyə qucaqladım çiyinlərini,

Başını sinəmə çıxıb sarıldın mənə.
Zorla, dilim əsə-əsə deyirdim ayrılıq sözlərimi.
Son kərə oxşadım qara tellərini,
Son dəfə duydum isti nəfəsini.
Son dəfə öpdüm lalə yanaqlarından.
Danışmağa taqətimiz yox idi,
Sözümüzü gözlərimiz, baxışlarımız deyirdi.
Ürəyin sözünə baxmır, hıçqırırdın,
Gözlərinin yaşı sinəmi isladırdı.
Yadındamı, dedim sənə
-Ağlama, sevgilim, ağlama,
Yol üstəyəm, göz yaşlarını yoluma səpmə...
Ayrıldıq... O axşam uzandı gecə,
Mənimçün açılmadı səhər,
Elə bil çökmüşdü ömrümə sonsuz kədər...

***

Artıq hərbi hissədə, səngərdəyəm,
Qarşımda düşmən, əlimdə silah.
Mehrimi silahıma salıb onu
sevgilim kimi əzizləyirəm...
Səndən uzaq olsam da,
Xəyalın durub gözümün önündə.
Əllərin əlimdə, yanaqlarını
oxşayıb sarılmaq istəyirəm sənə.
Lakin bu, mümkün olmayan xoş bir xəyaldır...

Yenə də tənhayam, yenə də sənsiz,
Yenə ixtiyarsız dolur gözlərim.
Narın əsən bir küləyəm,
Sarılıb dizlərimə sızlayıram mən,
Həsrətin qəlbimə sığmayır artıq,
Dəlitək qişqırmaq istəyirəm mən.
Halımı düşünürsənmi, sevgilim!
Bircə gün həsrətinə dözməyən,
On beş ay sənsiz necə dözüb, düşünürsənmi?
Gündüzüm qaranlıq, gecəm zülmət,
Çiynimdə silahım, ürəyimdə dərd.
Sənli xatirələr kino lenti kimi canlanır gözümdə...

***

Dünən səndən məktub aldım, açanda əllərim əsdi.
İlahi, bir anlıq ətrini aldım,
öpərək sarıldım məktuba.
Bu hisslər nə doğma, nə əziz.
Oxudum, bir azca azaldı dərdim.
Yazmışdın mənimçün çox darıxmısan,
Tək gedirsən görüş yerimizə, məhəbbət ocağımıza.
Yazırsan tez qayıt gəl, həsrətə son qoy,
Xəyalınla söhbət etməkdən yorulmuşam...

***

Oxuduqca göz yaşım tökülür məktubun üstünə,
Gözlərim sözümə baxmayır artıq.
Göz yaşım ağ yağış... Göylər də buludlu,
İndicə yağmağa başladı gur yağış,
Göylər də ağlayır mənim dərdimə.
Ağlamasın dərdimə göylər,
Ağlasa dünyanı sel aparar.
Qoy yağsın mənimçün bəmbəyaz bir qar,
Qəlbimin yanğısın ovudum onunla.
Qoy əssin mənimçün narın bir külək,
Sevgilimin ətrini gətirsin mənimçün.

***

Səbrim tükənir, beynim qarışıq,
Yanar şam kimi əriməkdəyəm.
Əsgər həyatı... Bir-birinə bənzəyən günlər,
Kiminçünsə bu günlər adi bir gün,
Mənimçün ömrümü oğurlayan....
Bilmirəm xəbərin var ya yox,
Siqaret çəkməyə başlamışam.
Tüstüsünü sinəmə çəkirəm,
Deyirəm həsrətimi, bəlkə, bir az azalda.
Tüstüdən boğuluram artıq,
Həsrətin burnumun ucunda,
Ürəyimsə əlimdə, ovcumda...

***

Bu səhər şad xəbər eşitdim,
Dedilər oktyabrın 30-nə sənə məzuniyyət var.
Sevindim, amma inanmadım,
Dedim, bəlkə, xəyaldı, bəlkə, yuxu görmüşəm.
Sən demə düz imiş...

Gəlmişəm, artıq doğma kəndimdə,
ailəmin yanındayam.

***

Əsən küələyə dedim ki:
Qaşı qara, gözü qara,
Çatdır o gülyanaq yara,
Gəlmişəm sarılım ona,
Həsrət məni çəkdi dara.

***

Qəlbimin sultanı gəlir uzaqdan,
Gözlərim dolub, əllərim əsir.
Göz yaşlarımı yanağımdan silib,
Onu qarşılamağa ürəyim tələsir.

***

Ürəyim yerindən çıxacaq sanki,
Baxım gözlərinə doyunca, gülüm.

Başını  sinəmə söykə, aram ol,
Öpüb saçlarını oxşayım, gülüm.

***

Bir səhr qalxdım ki, məktəbə gedim, onunla görüşüb hal-əhval tutum. Məktəbə yaxınlaşanda gördüm uzaqdan gəlir. Siması mələk siması kimi gülür, aram-aram mənə sarı gəlirdi. Onunla məni bircə yol ayırırdı. Bu, mənim ömrümün əcəl yolu idi.

Bu yolu mənə sarı keçirdi. Aman Allah, əllərim əsir, bu son sətirləri yaza bilmirəm. Sanki hər şey oyuntək qurulmuşdu. Uzaqdan bir maşın şox sürətlə, Əzrayıl kimi onun yanından keçdi.  O görünməz oldu, aləm gözümdə qaraldı. Dünyam tar-mar oldu.

***

Yolda bir qız uzanmışdı. O mənim sevdiyim mələk idi. Qaçaraq  onu qaldırmaq istədim. Aman Allah, hər yeri qan içində idi. Qara gözləri buludlar arxasından boylanan bir günəş kimi mənə baxırdı. Ağ xalatlı həkimlər gəlib onu yerdən götürdülər.

***

Görəsən nə günahın sahibiyəm mən,
Bu cavan yaşımda bəxtim kəm gəlir.

Nədən məni dərd qaralayır,
Səadət nədən məndən gen gəzir?

***

Xəstəxanaya yanına gəldim, sarğı içində uzanmışdın. Ailə üzvlərin də yanında idi. Qoymadılar yaxın gəlib sənə bir anlıq da olsa baxıb, nəvaziş göstərim. Ayılsan da görüşməyimizə imkan vermədilər. Mənimsə vaxtım daralır, zaman su kimi axıb gedirdi. Səhər geri, hərbi hissəyə qayıtmalı idim. Sanki həmin gün hamının sinəsində ürək əvəzində daş asılmışdı.

Məhəl qoymadılar göz yaşlarıma,
Tənhalıq qoynuna almışdı məni.
Səhəri geriyə dönməlyəm mən,
Sarıldım anama sağollaşaraq,
Öpdüm gözlərindən.
Sonra ürkək-ürkək yanına gəldim,
Bir kimsə yox idi yanında sənin.
Bax, yenə gəlmişəm, yanındayam mən,
Gedirəm, bircə söz deməyəcəksən?
Ürəyimin yarısı sənin yanında,
yarısı sinəmdə qaldı,
İçimdə çəkdiyim əzab içimdə qaldı.
Səndən xəbrsiz qalarsam, göylər üstümə uçar...
Ağlamaqdan gözlərim çuxura düşüb,
Dilim ağzımda pörşəlib, bişib.

***

Artıq üstündən xeyli vaxt keçib,
Nə səndən xəbər var, nə də bir məktub.
Bu nə zülmdü düşmüşəm, Allah,
Artıq aradan beş ay da küçib.

***

Aprel, 2013-cü il. Elə bil dünyadan sürgün olundum. Sənin adından mənə bir məktub gəldi. Xəttin heç tanış gəlmədi. Sənə ad günündə  aldığım sep də məktubun içində idi. Məktubu oxudum. Sanki ölüm fərmanımla tanış oldum. Yazmışdın: “Bağışla, ürəyimdə bir başqası var, məni unut”.

***

Düşündüm, daşındım,
Hər şey üzərimə gəldi bir anlıq,
Çökdü gözlərimə qatı qaranlıq.

***

Artıq ordudan tərxis olunuram. Səni sevməkdən də əl çəkə bilmərəm. Təkcə onu düşünürəm ki, səni görəcək, 18 aylıq həsrətimə verdiyin dəyərini soruşacaq, beynimi dələn suallara aydınlıq gətirəcəyəm.

***

Yolumu doğma ailəm gözləyir, artıq yetkin insan olmuşam. Onun vəfasızlığına taleyin hökmü kimi baxsam da, qəbul etməyə ağlımın gücü çatmır.

Tərxis olunub gəldim. Atama, anama, qardaşlarıma sarıldım. Dostlar, tanışlar, qohumlar.... Amma onu unuda bilmədim. Heç olmasa, bir dəfə görüşmək istədim. Qonşudan soruşdum, evdə yoxdu dedilər. Xəbər göndərdim, xəbərimə cavab gəlmədi. Düşünürəm, unutmaq bu qədər asandırmı, əhd-peyman bağladığım adam bu qədər unutqan olarmı? Günahım nə idi ki, şüşə ürəyimi daşlara çaldı, gündüzümü zülmətə çevirib məni qəm dustağı elədi?

***

Yaxşı ki, halımı bilmirsən, mənim
Nələr çəkdiyimdən xəbərin olmur.
Harda olsan xəyallarım qoruyar səni.
Dönsən, vallah, bağışlaram yenə səni.
Hər nağıl bitər, yalan çıxıb gedər,
Doğru qalar.
Bircə sevgi bitməz,
Yerində bir şirin
AĞRI qalar.

***SON***

***23 iyun 2013-cü il***
***Saat 16: 55***

**Müəllifin qeydi:** Mən bu hekayəni tam olaraq öz həyatımın materialları əsasında yazmamışam. Burada həqiqi sevgidən bəhs olunur. Burada nə qız, nə də oğlan vəfasız çıxmır. Bu hekayə əsasında bir pyes yazmaq istəyirəm. Əgər birinci pyes – hekayəm oxucuların ürəyindən olsa, mən iki pyes-hekayə də yazacağam. Mən özüm də əsəgərəm. Bu əsəri 11 may 2013-cü ildə yazmağa başladım. Əsər 43 günə, tərxis olunmağıma 6 gün qalmış tamamlandı.

**İmza: Əzizov Şəmistan**

# MİNİATÜRLƏR

Məzuniyyətə gələndə bir qız gördüm. O, həmişə gözümün qabağında olub. Sanki kor olmuş, onu görməmişəm. O, qonşumuzdu.

***20.12.2012***

***

Bir gecədə yuxudan neçə dəfə oyanıb yataqdan qalxarsan? Başımda başlıq qalmayıb. Hər 4 saatdan bir: "Əzizov, dur, post vaxtıdır". Buna insan dözər? Yuxudan oyandıqda 10-15 dəqiqə özümə belə nifrət eləmək necə bir hisdir, bir başa düşəsiz? Tərxis olunmağıma sayılı günlərim qalıb, amma vaxt getmir. Elə bil, buraya ömürlük məhkum olmuşam .

***16.05.2013***

***

Təəssüf ki, sevgimiz belə alındı, etdiyimiz əhdə vəfa etmədin. Səni çox sevdim. Dərdim böyükdür, necə deyərlər: -İçim özümü yandırır, çölüm özgəni.

Bu gün güzgüyə baxdım. Saçım da ağarıb. Çox fikirləşirəm, başqa səbəb tapa bilmirəm...

....İndi evdə, ailəmin, ata-anamın, qardaşlarımın yanında, onlarla birlikdə olmaq istəyirəm. Səni, sən vəfasızı mənə unutduracaq bir qüvvə varsa, o da doğmalarım, mənə həyat bəxş edənlərimdir....

***

Ağlama, sevdiyim, ağlamağından nə fayda. Bax, indi yanındayam, kimsədən qorxmuram, lakin sənə yaxınlaşa bilmirəm.

Nə qəribə hiss, nə çəkilmız dərddir. Qarşımdasan. Üz-üzə durmuşuq. Mənim yanaqlarım nəmli, sənin isə gözlərin yaşlı...Əl açıb gözünü silə bilmirəm. Sənə də, özümə də yazığım gəlir.

***

Sevgi əsən yaz küləyinə bənzəyir. Əsər, əsər, çıxar gedər. Ha çalışarsan ki, tutub saxlayasan. Nə tuta, nə də saxlaya biməzsən.

***

Nəsə bu gün atam-anam üçün lap çox, həmişəkindən çox darıxmışam. İnşallah 40 gündən sonra ailəmlə birgə olacağam. Onlarla deyib-güləcəyəm. Ən əsası qardaşımın toyu var. O toyda oynamaq istəyirəm. Qismət olsa, 4 iyulda evə gedə bilsəm, arzuma çatacağam.

***21.05.2013-cü il***



***ŞƏMİASTANIN RƏSM ƏSƏRİ***

VƏTƏN UĞRUNDA

# ƏSGƏR MƏKTUBU

Salam Mənim Ailəm mən çox yaxşıyam
sizi çox sevirəm Məndən nigaran olmayın
sizi görməgüçün məndə tələsirəm ama
torpağlarımızı azad edib gələcəm. bütün əsgərlər
üçün dua edin. Allah bizlərə yar olsun

Sizi çox sevirəm

Əzizov Şəmistan






***Şəmistana məktub***

# FOTOALBOM




***Göyçay rayonunun Qaraxıdır kəndi***



***Şəmistanın uşaqlıq illəri – məktəbli ikən***




*Şəmistanın sinif yoldaşları*



***XI sinfin son zəngi. Şəmistan soldan birinci***



***Səmiatanın babası Xəlil***



***Şəmistanın nənəsi Şura xanım***



***Şəmistanın ana babası Qasım***



***Şəmistanın ana nənəsi Əzizə xanım***



***Şəmistanın bibisi mərhum Rəhilə xanım***



***Sözün bitdiyi an***



***Dayısı Rasim, döyüş yoldaşları Ruslan və Səbuhi Şəmistanın məzarı başında***



***Şəmistanın əmisi Namiq, , anası Əminə, atası İlyas və hərbçi dostları***



***Qaraxıdır kənd camaatı Şəmistanın ziyarətinə gedərkən***



***Şəmistan 2-ci Qarabağ müharibəsindən əvvəl***



***Şəmistan dostu Zahidlə***



***Şəmistanın düzəltdiyi "Şaxta baba" ilə***



***Şəmistan dostu Yolçu ilə***



***Şəmistan İkinci Qarabağ müharibəsi zamanı döyüş yoldaşları arasında (ön cərgədə əli avtomatlı)***



***Şəmistan dostu Ceyhunla***



***Şəmistan uşaqlıq dostu Seyranla***




***Şəmistan uşaqlıq dostları Seyran, Raqub və Ceyhunla birlikdə***



***Şəmistanın dostları Ceyhun və İsmayıl ilə***



***Şəmistanın anası Əminə, dayısı oğlu Valeh, xalaları Elmira xanım və Rəna xanım***



***Şəmistanın nənəsi Əzizə xanım,***
***dayısı oğlanları Valeh və Taleh***




***Şəmistanın anası Əminə tarix müəllimәsi Gülbəniz xanım***




***Şəmistanın qardaşı oğlanları Ömər və Xəlil əmilərinin ziyarətində***



***Şəmistanın dostu Rəşadla***



***Şəmistan doğmaları ilə birlikdə***




***Bölük komandiri Mahir Məmmədov və əsgər yoldaşı Rüstəm***




# *ANA TƏSƏLLİSİ*



***Birinci Qarabağ müharibəsi şəhidi Elnur Məmmədov***



***İkinci Qarabağ müharibəsi şəhidi Rəhim Həmidov***



***Qaraxıdır kəndinin Qarabağ müharibəsində şəhid olmuş qəhrəman övladları: Zülfüqar Zülfuqarov, Raqub İsgəndərov, Araz Hacıyev, Səbuhi Abdullayev, Səməd Abdullayev, Şəmistan Əzizov***

# MÜNDƏRİCAT

**Müəllif haqqında məlumat ........................................................3**

**Xatirə-povest:**

Yaddaşlarda əbədi qalacaq şəhid ..................................................4

**Gəl... Səni bir ömür gözləyəcəyik ...............................................72**

(Anasının dilindən)

**Süzülür gözümdən həsrət damcısı :**

(İlyas Əzizovun şeirləri) ...........................................................75

Borcluyuq ...........................................................................76

Şəhid oldum .........................................................................77

Vətən sizə əmanətdir.................................................................78

Yuxuma girirsən .....................................................................79

İndi ..................................................................................80

Gəldi ................................................................................81

Dözəmmirəm .........................................................................82

Qışa döndün .........................................................................83

Darıxmışıq ..........................................................................84

Dilə məndən.....................................................................................85

Uçub getdin.....................................................................................86

**Dil açan xatirələr: ..........................................................................87**

**(Şəmistan haqqında xatirələr)**

Necə dilim gələr  sən yoxsan deyim.........................................90

Arzusu ürəyində qalan şəhid....................................................94

O, vətənpərvər bir gənc idi .......................................................95

Onunla qürur duyuram...............................................................96

Xüsusi  qabiliyyətə malik gənc.................................................98

Ürəklərdə yaşayan şagirdim ....................................................100

O, hərbçi olmaq istəyirdi .........................................................103

O, məktəbimizin sevimlisi idi..................................................105

Şəmistan and yerimizdir ..........................................................107

Mərd və cəsur qardaşım............................................................110

İnana bilmədiyim həqiqət.........................................................112

O mənə qayın yox, qardaş idi ..................................................114

Bizim üçün varsan .....................................................................116

Acı xəbər.......................................................................................118

Biz onunla dost  və sirdaş idik..................................................121

Hər zaman qəlbimdə yaşayan insan.........................................123

Şəhid Şəmistanın şeirlərinə müqəddimə əvəzi bir neçə söz.....126

**Sinəmə çəkdiyin dağa çıxıram:**

**(Şəmistanın bədii əsərləri)....................................................134**

Laçın yolu bağlı qalıb ..............................................................136

Əylən..........................................................................................137

Eşidilməz ...................................................................................137

Ümidin varsa..............................................................................138

Ay gözləri yaşlı qadın................................................................138

Yumruq kimi birləşək................................................................139

Ana, bilirsən?.............................................................................141

Kimdi günahkar? .......................................................................141

Son arzum ..................................................................................142

Yalvarıram .................................................................................142

Ad günüm ..................................................................................143

Rastına çıxmaram ......................................................................144

Sevdiyim qıza yazdım ...............................................................145

Sinəmə çəkdiyin dağa çıxıram ..................................................146

Bağışla .......................................................................................147

Məktub yazıram.........................................................................148

Məktub........................................................................................148

Qılıncla kötüyün arasındayam ..................................................149

Zəncir vur, Aşura günümdür ....................................................150
Bir vaxt unutduğun .....................................................................151
Ayrılıq sona yetəcək ..................................................................152
İntizar ........................................................................................153
Çətin ...........................................................................................153
Ağlama ........................................................................................154
Keşikçinəm .................................................................................155
Heyif ...........................................................................................155
Çoxları deyir ki... .......................................................................156
Ən böyük günahın .......................................................................157
Sənsiz ..........................................................................................158
Qaytar .........................................................................................159
Məni bundan belə.. .....................................................................159
Unut məni, unuda bilsən ............................................................160
Gəldim çıxdım... .........................................................................161
Ay qız ..........................................................................................161
Darıxmışam .................................................................................162
Ehtiyacım var ..............................................................................163
Səndən ayrı düşmək ....................................................................163
Xəbərin olmayır ..........................................................................164
Yuxuna gəlim ..............................................................................164
Ovut, ovuda bilsən ......................................................................165

Boylan uzaqlara ....................................................................165
Əcəl yolundakı uzanmış mələk...............................................166
Miniatürlər ..........................................................................176
Şəmisatanın rəsm əsərləri ....................................................178
Əsgər məktubu.....................................................................179
Şəmistana məktub ...............................................................180
Fotoalbom ...........................................................................181

Nəşriyyatın direktoru
***Şöhrət Səlimbəyli***

Texniki redaktor
***Mail Xəlilov***

**TƏRANƏ MƏHƏMMƏDQIZI**

# QIRILIB
# TALE GÜZGÜSÜ....

Format: 60x84 $_{16}/^{1}$
14 ş.ç.v
Tiraj:300

***«AVROPA»nəşriyyatı***

***Kitab hazır diapozitivlərdən çap olunub***